ب

**Bakı – 2023**

**Kitabın adı:**
İzm`ler Ne Kadar Bizim?

**Müəllif:**
Ayşe YAZICILAR

**Nəşrə hazırlayan:**
t.f.d Abbas QURBANOV

**Redaktor:**
Əziz SULTANOV

**Dizayn:**
Azər İBRAHİMOV

**Qapaq tərtibatı:**
Nicat QƏRİBOV

**Bakı-2023; İpəkyolu Nəşriyyatı: 324-102**
**İSBN:** 978-605-06108-0-2

Bakı Şəhəri Səbail Rayonu Cəfərov Qardaşları, 16
**Tel:** (+994 12) 492 14 38
**Mobil:** (+994 51) 412 22 82
**Web sayt:** www.ipekyolunesriyyati.az
**Elektron poçt:** ipekyoluneshriyyati@gmail.com

# İZMlər nə qədər bizim?

AYŞE YAZICILAR

## Ayşe Yazıcılar

1985-ci ildə Osmaniyədə anadan olub. İmam Xətib məzunlarının təhsil həyatında əlverişsiz vəziyyətdə olduğu illərdə dördillik magistratura təhsilini dörd fərqli universitet dəyişərək tamamlayıb. Uludağ Universitetinin ilahiyyat fakültəsini 2009-cu ildə bitirib.

Lisey illərindən etibarən müxtəlif QHT qurumlarında fəaliyyət göstərib.

Gənc Dərgi Yazı İşlərində və Beynəlxalq Gənc Dərnəyinin rəhbərliyi altında gənc könüllülər koordinatoru kimi fəaliyyətini davam etdirən A.Yazıcılar gənclik və vətəndaş cəmiyyəti başda olmaqla müxtəlif mövzularda konfranslar keçirir.

İstanbulda İmam Xətib Liseyində rəsmi olaraq müəllimlik etməyə davam edir.

Evli və iki uşaq anası olan müəllif hazırda İstanbulda yaşayır.

# GİRİŞ

Orta məktəb illərimdə fəlsəfə dərslərində diqqətimi çəkməyə başlayan fikir cərəyanları universitetdə də marağımı cəlb etməyə davam etmişdi. Hər ay bir “izm”i gündəmimizə daxil edir, onunla bağlı araşdırmalar aparır, yazıya köçürür, fakültə dəhlizlərində divar qəzeti kimi nümayiş etdirirdik.

Məzun olduqdan sonra yaratdığımız fərqli qiraət qruplarında məqalə dəyərləndirmələri adı altında müxtəlif mövzularda tematik qiraətləri və tənqidi çalışmaları davam etdirirdik. Saydığım bu işləri qrup şəklində etsək də, komandanı təşviq etmək rolu hər dəfə mənim öhdəmə düşürdü.

Bəs bu “izm”lər məsələsi niyə bu qədər gündəmimdə idi?

Hər bir fikir cərəyanı ideal dünyanı qurmağın, xoşbəxt həyatı əldə etməyin açarının onda olduğunu söyləyir. İdeologiyalar onların təlimlərinə uyğun həyat tərzi inşa edildiyi təqdirdə insanın xoşbəxtliyi əldə edə biləcəyini vəd edir. İşin maraqlı tərəfi də hər birinin onun baxış tərzinin ən doğrusu olduğu iddiasında olmasıdır. Yaxşı, bəs hansı biri düzünü deyir?

Bəzi "izm"lər dövrün ehtiyaclarına uyğun gəldi, bəziləri saman alovu kimi parladı, həddindən artıq geniş yayıldı, lakin uzunömürlü ola bilmədi. Bəziləri daşları yerindən oynatmaq üçün planlı olaraq bazara çıxarıldı.  Hər bir ideologiyanın özünə görə ortaya çıxış səbəbi var. Bu mənada bütün "izm"ləri eyni tərəziyə qoymaq düzgündürmü? Onların hansının bəşəriyyət üçün rifah və sevinc gətirdiyini, hansılarının fəsad və dağıdıcılığa səbəb olduğunu yaxşıca anlamağımız lazım gəlir.

Həyatı mənalandırmağa çalışan insan üçün bir "izm"-in izinə düşmək doğru bir yol kimi görünə bilər. Lakin burada insanın arxasınca düşdüyü cərəyanın nə vəd etdiyini, ən sonda onu haradan götürüb haraya aparacağını yaxşıca təhlil etməsi zəruri hala gəlir. Bu mənada biz elm dəryalarımızdan bəslənən bilgilərə sahib olmağa, irfan mənbələrimizə və qədim mədəniyyətimizə vaqif olmağa məcburuq.

Kitabdakı başlıqların hamısının sonunda "izm" əlavəsi var və hər biri eyni məcrada axırmış kimi görünsə də, fərqli kanallarda hərəkət edən cərəyanlardır. Bəziləri psixologiyadan hərəkətlənərək ortaya çıxmış, bəziləri siyasi səbəblərlə özünə yer tapmış, bəzilərinin hərəkət nöqtəsi fəlsəfə olmuşdur. Yəni hər bir "izm"in ortaya çıxdığı şərait və təsir dairəsi fərqlilik göstərir. Məsələn, hedonizmin psixoloji reaksiyası siyasi təsirlərindən xeyli yüksəkdir. Diqqətini həzzə cəmləyərək yaşamaq haqqında saysız əsərlər vardır. Sionizmə baxdıqda isə tarixdən bu günədək səbəb olduğu siyasi dəyişiklik və çevrilmələr diqqətimizi çəkir. Minimalizmə göz atdıqda etnik mənşədən gəlməklə yanaşı, ev tərtibindən geyim-kecimə, yemək-içməkdən texno-

logiya ilə münasibətinə qədər gündəlik həyat tərzini başdan sonadək dəyişdirən insanların olduğunu görürük.

"İzm" bir fikrin, ideyanın sistemləşdirilmiş halıdır. Bu səbəblə qədim dövrdən bu günədək keçilən yola sürətlə baxdıqda belə saysız-hesabsız "izm"lə qarşılaşırıq. Çünki yer üzündə saysız insanın yaşayıb öldüyünü düşünsək, insanın məna axtarışını, həyatında bir nizam yaratma ehtiyacını, düşünən bir varlıq olduğunu hesaba qatsaq, nə qədər çox düşüncənin ortaya çıxdığını anlamaq çətin olmaz. Bu düşüncələrin hamısının bir cərəyana çevrilməsi imkansızdır. Sadəcə cərəyan halına gələnlərin belə sayı siyahılar boyunca uzanıb gedir. Bu qədər "izm" arasında bu kitabda sadəcə on ikisi qələmə alınıb. Bu seçim edilərkən cərəyanların bir həyat tərzi kimi təqdim edilməsi, yaşam formasına böyük ölçüdə təsir etmiş olması əsas götürülüb.

İyirmi ilə yaxındır ki, qeyri-hökumət təşkilatları vasiləsiylə gənclərlə məşğul oluram. Universitet tələbələriylə nəfəs alıb-verirəm. Üstəlik, müəllimlik peşəsinin tələbinə uyğun olaraq orta məktəb şagirdləriylə hər gün görüşürəm. Gənclərin həyatı mənalandırma tərzlərinə, xəyallarına, arxasınca qaçdıqları şeylərə, ən çox qiymət verdikləri şeylərə, "olmasa da olar" dedikləri şeylərə, hədəflərini nəyə görə müəyyənləşdirdiklərinə, hətta hədəfsizliklərinə yaxından şahid oluram.

Söhbətləşdiyim gənclərdən bəziləriylə danışarkən sənət, mədəniyyət, yaxud mədəniyyəti ehtiva edən mövzulardan söz açarkən ağıllarına ilk gələn şey bu işlərin insana nə qədər pul qazandırması olursa, bu mənə kapitalizmi xatırladır. Kitabxana üçün kitab toplanarkən bir gəncin yoldaşlarına "nə olar bu kitabxanaya daha dini kitab gətirməyin" deməsi sekulyarizmi xatırladır. Xudbinliyin ayaq

tutub gəzməsi narsizmi, bir tələbəmə mövcud ətalətini davam etdirdiyi təqdirdə gələcəkdə onu gözləyən həyatı təsvir etdikdə “bizdə laqeydlik var, hər şey boşdur, müəllim” deməsi nihilizmi göstərir. Bir ət yeməyinin dadına baxmaq üçün ən azı üç saatlıq məşəqqətli yolun aşılması hedonizmi yada salır. Və daha bir çox “izm”i xatırladan bir çox nümunə…

Bu duyğu və düşüncələrlə qələmə aldığım yazılar “Gənc” jurnalında on iki ay boyunca çap olundu. Mənə bu imkanı verdiyi üçün ən böyük təşəkkürü “Gənc” jurnalı ailəsinə borclu olduğumu bildirmək istəyirəm. Bu yazıların kitab halına gətirilərək qalıcı bir əsər olmasına və oxucularıyla görüşməsinə vəsilə olan “Aşina Kitab”ın əməkdaşlarına təşəkkür edirəm.

Bu kitab “izm”lər çərçivəsində məsələləri təsbit, həssas gerçəkləri təhlil, reallığa tarixi təcrübələr işığında təvazökar bir təşviqdir.

Cəhd bizdən, müvəffəqiyyət və bərəkət Allahdan.

**Ayşe Yazıcılar**

Mart 2020
Üsküdar/ İstanbul

# NİHİLİZM

Mənasız və məqsədsiz
bir heç deyilik

“İzm”lər idrakımıza geyindirilən dəli köynəkləridir.
Nüfuzları mənşələrindən gəlir.
Hamısı da Avropadandır.

**Cəmil Meriç**

## Nihilizm nədir?

Latınca "nihil", yəni "heç" kəlməsindən törəyən nihilizm ümumi mənasıyla varlığı, dəyərləri və əxlaqı rədd edən bir cərəyandır.

## Nihilizm necə ortaya çıxdı?

Öz təməli ilə qədim Yunanıstandakı inkarçılıq fəlsəfəsinə söykənən bir baxışdır. Yunan filosof və sofist Qorgis şübhəpərəst və nihilist düşüncənin ideya yaradıcısı kimi qəbul edilir.

Nihilizm cərəyanı Qorgisin iddialarına bənzər şəkildə ilk dəfə 19-cu əsrin ortalarında Rusiyada ortaya çıxmışdır. İlk dövrlərdə əxlaqi, mədəni və ilahi dəyərlərin heçliyi üzərində qurulmuşdur. Gənclər arasında dəbə mindikdən sonra Rusiyada siyasi bir cərəyana çevrilən nihilizm mübahisələrə yol açaraq dövlət tərəfindən əngəllənməyə çalışılmışdır.

## Nihilistlər nəyə inanırlar?

Nihilistlər varlığı inkar etdikləri üçün dini inanc və dəyərləri də yox sayırlar. Varlığı inkar edərkən dolayısı ilə Allahın varlığını da inkar etmiş olurlar. İradənin azadlığını və əxlaq kimi məfhumları da yox sayan nihilistlər gerçəkləri, dəyərləri və inancları da rədd edirlər.

Bu cərəyan öz bilgi fəlsəfəsində hər cür bilginin bir aldanış olduğunu və bilginin mövcud olmadığını müdafiə edir. Özünün əxlaq fəlsəfəsində insanların hərəkətlərini nizamlayan dəyərlərin olmadığı irəli sürülür. Nihilist doktrin heç bir əxlaqi dəyəri və qaydanı qəbul etmir. Bu əxlaq tanımamaq Nitsşe ilə sistemləşdirilmiş, Dostoyevski və Turgenev kimi yazıçıların romanlarında təfsilatlı şəkildə işlənərək gəncləri öz təsiri altına salmışdır.

Nihilizmin varlıq fəlsəfəsində isə heç bir şeyin mövcud olmadığı iddia edilir.

Siyasi sahədə nihilizm xüsusilə XIX əsrdə Rusiyada tərəfdar qazanmış bir cərəyandır. Əvvəllər yeni bir ictimai nizam qurmaq üçün mövcud olan nizamı tamamilə ortadan qaldırmağa yönələn bir hərəkat olduğu halda, sonra hər cür nizamı rədd edən, cəmiyyətin və bütün sosial qurumların fərd üzərində heç bir avtoritetini qəbul etməyən baxışa çevrilmişdir. Ən başda dövlət olmaqla bütün təzyiqedici qurumların ortadan qalxmalı olduğunu müdafiə edir.

“

Ədəbiyyat sahəsində nihilizmin ilk ortaya çıxışı rus ədəbi əsərlərində gerçəkləşmişdir. İ. S. Turgenevin ***“Atalar və oğullar”*** (1862) adlı romanı nihilizmin ədəbiyyat sahəsindəki ilk və ən önəmli nümunələrindən biri kimi qəbul edilir.




”

Nihilizm fəlsəfi əsasda ateizm ilə eyni müstəvidə dəyərləndirilə bilər. Çünki yaradıcını, inancları, dəyərləri və əxlaqı rədd edən ateist baxışlar varlığı inkar edən metafizik nihilizm ilə bənzərlik göstərir. Ancaq ateizm fövqəltəbii qüvvələrə sahib, kainata hökm edən bir gücü əlində saxlayan yaradıcı inancını rədd edir. Nihilizm isə sadəcə yaradıcının deyil, heç bir şeyin varlığına inanmır. Bu mənada nihilizmin "dini rədd" əsasında tərəfdar qazanmağa çalışan ateizmdən də uzağa gedən "qlobal rədd cərəyanı" olduğunu deyə bilərik.

## Məşhur nihilistlər

Nihilist cərəyanı məşhur filosof və mütəfəkkirlər Neyzen Tevfik, Fridrix Nitsşe, Artur Şopenhauer, Albert Kamyu, Jan Pol Sartr və Herbert Spenser tərəfindən qəbul edilərək dəstəklənib.

## Fridrix Nitsşe

*"Yoxluq böyük varlıqdır, əzizim,*
*Yetər ki, fərqinə vara biləsən".*

Nihilizmin önəmli nümayəndələrindən biri olan alman filosof Nitsşe nihilizmin birdən çox tərifini verərkən bu sözün mənasını "ən ali dəyərlərin dəyərsizləşməsi" kimi açıqlayır.

Nitsşenin fikrincə, köhnə dəyərlər tamamilə atılmalı və bütün dəyərlər yenidən qurulmalıdır. Ancaq yeni dəyərləri ortaya çıxara bilən insan üstündür və müstəqildir. Müasir insanın mənimsədiyi dəyərlərin ənənəvi əsaslarının çökdüyünü irəli sürən Nitsşe dünyada tanrı məfhumunun yadlaşdığını və yox edildiyini də iddia etmişdir.

Nitsşe nihilizmin ən dəqiq tərifini *“Gücün iradəsi”* adlı əsərində ortaya qoymuşdur. Bu əsərində deyir ki, ən yüksək dəyərlər öz qiymətini itirmişdir. Həyatın həqiqəti, mənası və hədəfi yoxdur.

*“Zərdüşt belə söylədi”* kitabında hər cür mənanın yerlə-yeksan edilməsiylə gələcək olan “fövqəlinsan” məfhumunun tərifini verir. Fövqəlinsanın gəlməsi dəyərlərin məhv olub yenidən inşa edilməsinə bağlıdır. Fövqəlinsan hər cür bağlılıqdan qurtulmuş, dəyərləri tərsinə çevirmiş, onları yenidən şərh etmiş şəxsdir.

Nitsşe *“Ecce Homo”* adlı əsərinin 15-ci səhifəsində deyir: “İndi sizə məni itirib özünüzü yenidən tapmağınızı tövsiyə edirəm və ancaq hamınız məni unutduqda sizin yanınıza qayıdacağam”. Bunu deməkdə məqsədi bir nihilist kimi tanıtdığı özünün də “itirilməsinin” vacib olduğu, ardınca əsərləriylə onun yenidən kəşf edilməsidir.

## Jan Bodriyar

*“Postmodern əsr nihilist bir əsrdir”.*

Fransız nəzəriyyəçi Jan Bodriyarın *“Simulakrlar və simulyasiya”* kitabında nihilizm diqqəti cəlb edən bir şərhlə qarşımıza çıxır. Bodriyar nihilizmin dövrümüzdə köhnə mənasını itirdiyini deyir. Nihilizmin artıq Nitsşenin Tanrının ölümünü açıqlaması ilə ortaya çıxan radikal münasibəti qalmayıb. Dövrümüzdə artıq “şəffaflaşmış bir nihilizm”-dən bəhs etmək mümkündür.

Şəffaf nihilizm varlığın mövqeyinin müzakirə edilməsindən daha çox, ümumi olaraq hər sahədə mənanın ehtiva etdiklərinin – tərkibinin boşaldılmasıyla bağlıdır. Mənanın tərkibi mənaya qarşı yaradılan laqeydlik vasitəsilə boşaldılır. Şəffaf nihilizm kütləvi informasiya vasitələri tərəfindən dəstəklənir.

> Bodriyar Tanrının ölmədiyini, lakin hiperhəqiqi bir şeyə çevrildiyini müdafiə edir. Şəxslər yaşanmağa məcbur qalınan şəffaflıq dövründə melanxolik və ovsunlanmış insanlar kimi davranaraq öz yoxolmalarına belə heyranlıq duyurlar.
>
> *Jan Bodriyar*

**Haşiyə**: Burada ağlımıza Oldo Hakslinin "Cəsur yeni dünya" kitabında uzun-uzadı ifadə etdiyi fikirləri gəlir. Maraqlananlara tövsiyə olunur.

## Sitatlarla nihilizm

**Yunan filosof və sofist Qorgis:** "Hər kəsin haqqında ortaq fikrə gələrək "var" deyə biləcəyi bir varlıq yoxdur".

**Oskar Vayld**ın "Nihilistlər" (1880) adlı pyesindəki Vera adlı qəhrəman "hər şeyi yox etməyin və qisas almağın zamanının gəldiyini" deyir.

**Peyami Safa:** "Bizdə "nəyimə lazım" düşüncəsinin hakim olduğu hala gələn nihilizm elə bir imansız gənclik yaratmaq üzrədir ki, gənclər haqqında "təki inansınlar, nəyə olur olsun inansınlar" deyənlərə belə rast gəlinir.

Şübhəsiz, hər hansı bir şeyə inanmaq heç bir şeyə inanmamaqdan yaxşıdır. Heçliyi aktiv bir hala və dilə gətirən nihilizm mənasız saydığı bir dünyada insanları içkiyə, qumara, heyvani zövqlərə, macəralara, yaxud intihara sürükləyir" ("Din, inqilab, irtica" kitabında yer alan "Tərcüman" jurnalında dərc olunmuş 25 noyabr 1959-cu il tarixli yazısı).

**Kadir Mısıroğlu:** "Nihilizm öz-özünü dibsiz bir çuxura atmaq və ya idrak və anlamanı ortadan qaldıran mütləq və sonsuz bir əlilliyə, məhrumiyyətə ram olmaqdır" ("Arifan" jurnalı, noyabr 2009).

***

NƏ DEDİLƏR?
Mehmet Doğan

**Nihilizmin qaranlığından İslamın aydınlığına**

Haber7.com saytında 20.08.2017 tarixli köşə yazısında nihilizmi gündəmə gətirən Mehmet Doğan kapitalist və sosialist mədəniyyətin son dayanacağının nihilizm olduğunu deyərək əlavə edir: "Heç bir əxlaqi dəyəri tanımayan, sosial nizam-intizamı qəbul etməyən bu baxış Tanrı tanımayan Nitsşe ilə sistemləşmişdir. Beləcə, inancsız, bədbin, əxlaq və avtoritet tanımayan, qaydasız və funksional olmayan gənclik ortaya çıxmışdır. İdealı və hədəfi olmayan inkarçı ideologiya; gəncliyi isə utopik, xəyalpərəst, böhrana meyilli, anarxist, qayəsiz, bədbin, pisfikirli, dini və əxlaqi dəyərlərə etiraz etməyi, üsyanı, təkəbbürü qəbul edən, pul və dünyəvi ehtirasların arxasınca qaçan irrasional və materialist bir baxışdır. Gəncliyimizi bu ideologiyadan qorumağın yolu Quran və hədislərə üz tutmaqdan keçir. Qurani-Kərimlə münasibətimizi yenidən gözdən keçirməliyik. Siyasi, ictimai, iqtisadi, ədəbiyyat, təhsil, mədəniyyət və hüquq kimi sahələrdə əsas istinadımız Quran olmalıdır".

NƏ DEDİLƏR?
Turan Kışlakçı

**Bilgidən neonihilizmə**

Turan Kışlakçı turankislakci.com saytında 2008-ci ildə dərc olunan yazısında qərbdən əsən hər küləyin qarşısında sovrulan İslam ümmətinin postmodernizmin içində ehtiva etdiyi neonihilizm təhlükəsi ilə üz-üzə olduğunu deyir. Ağlı başında olan bəzi filosoflar postmodernizmin müvəqqəti bir dövrü əhatə edəcəyini, əsl təhlükənin isə postmodernizmin son mərhələsi olan neonihilizm olduğunu ifadə edir.

Sadəcə müsəlman cəmiyyətlər deyil, bütün dünya xaos, bədbinlik, narahatlıq, mənasızlıq içində vurnuxarkən, sadə və düz üslubu ilə bu vəziyyətə çarə olacaq yeganə dinin İslam olduğunu bildirir. Cəmiyyətlərin böhrandan qurtulması üçün çıxış yolu Qurani-Kərimdə, Həzrət Muhamməddin sünnəsindədir. Bu sözlərini təsdiq üçün isə Edvard Montet, Le Martin, Bernard Şou kimi bəzi qeyri-müsəlmanların İslam və Həzrət Muhamməd haqqındakı sözlərini çatdırır.

**Din İşləri Ali Qurumu** tərəfindən 2015-ci ildə hazırlanan "İŞİD-in əsas fəlsəfəsi və dini istinadları" mövzulu hesabata görə, İŞİD və bənzər təşkilatlar müasir dövrdə dünyanı bürüyən "nihilizm"in bir əksidir. İnsanın həyatın mənasını və var olmağın qayəsini itirməsi, əxlaqın və haqq-ədalətin dəyərdən düşməsi, elmin və fəlsəfənin deməyə heç bir sözünün qalmaması latın mənşəli nihil (yoxluq, heçlik) sözündən törədilmiş nihilizm məfhumuyla ifadə edilir. İslamı nihilizmin istinadgahı etmək təşəbbüsü adam öldürməkdən daha betər bir fitnədir.

**"Dəyanət" jurnalı**nın 2017-ci il avqust sayı "Deizm, ateizm, nihilizmin küncə sıxışdırdığı insanlıq" üz qabığıyla çıxmış və bu "izm"lərin Türkiyədə və Qərb dünyasında nə vəziyyətdə olduğunu araşdırmışdı. Jurnalın sözügedən sayında yer alan "Qərb sivilizasiyasının qaçılmaz taleyi: Nihilizmə gedən yol haradan keçir?" başlıqlı yazısında Faruk Sancar kilsə tarixinin qalın qovluğundan bəhs etdikdən sonra nihilizmin dinə qarşı intiqam hissi ilə reaksiya olaraq ortaya çıxdığını söyləyir. Nihilizmin ehtiva etdiyi bütün şeylər bir tərəfdə qalsın, ən dağıdıcı ölçüsü bütün əxlaqi dəyərlərə açıq şəkildə cəbhə açan və onlara yox edilməsi vacib olan, bəşəriyyətin törətdiyi xəstəlik kimi baxan əxlaqi nihilizmdir. Sancarın fikrincə, nihilizm kimi bütün dəyərləri tar-mar edən təmayüllərin İslam dünyasında yayılmasının qarşısını almaq üçün müsəlman ziyalıların İslami təfəkkürün mənəvi ölçüsünə də başdansovdu yanaşmadan başda dinin metafizik iddiaları olmaqla əsas məsələlərini rasional, ağlabatan şəkildə izah etməsi lazım gəlir.

## e-şərhlər

İnternet lüğətlərində nihilizmlə bağlı bu iki zarafatyana şərh diqqəti cəlb edir, paylaşaq:

"Əsl müdafiəçilərinin müdafiə etməyə başladıqları andan etibarən intihar etmələrini gərəkli sayan "izm"".

"Birlikdə iş görəcəyin insanın nihilist olmasından daha pis bir şey bilmirəm".

## Passiv nihilizm – özünə xeyri olmayanın başqasına da xeyri olmaz

Nihilizmi diqqətlə və ətraflı şəkildə araşdırarkən Nitsşenin "Gücün iradəsi" əsərinin 22-ci səhifəsində bəhs etdiyi "passiv nihilizm"i diqqətdən kənarda saxlamaq olmaz. Bir şəxsin məna və dəyəri yanlış yerdə axtarması nəticəsində səhv ümumiləşdirmə apararaq heç bir şeyin məna və dəyərinin olmadığı qənaətinə gəlməsidir. Bu vəziyyətin səbəbi isə ruh gücünün yetərli səviyyədə olmamasıdır. Passiv nihilistlər dünyanı qapqaranlıq bir yer kimi gördükləri üçün pessimist olaraq da adlandırılırlar və pessimistlərin həyat eşqiylə dolu olmaq üçün elə bir səbəbləri də olmur. Uğrunda mübarizə aparacaqları bir haqq işindən yoxsul, bir inanca baş qoymaqdan məhrum olduqları üçün pessimistlərin müəyyən bir yaşa gəldikdən sonra öz həyatlarına son vermələri isə danılmaz faktdır.

Hazırkı dünyamızda insanların əksəriyyətində və xüsusilə də gənclərdə passiv nihilizmin izlərinə rast gəlinir. Bəlkə, bir çoxu özlərinə nihilist demir, lakin həyatı mənasızlaşdıraraq həyat sevincini və həyəcanını itirmiş olmaları bu cərəyandan təsirləndiklərini göstərir. Bədbinlik içində boğulan nihilistin özünə belə faydasından söz açmaq mümkün olmadığı halda içində yaşadığı dünyaya və insanlara azacıq da olsa xeyir verməsini necə gözləyə bilərik? Özünə xeyri olmayanın başqasına da xeyri dəyməz.

"Bəlkə, bir çoxu özlərinə nihilist demir, lakin həyatı mənasızlaşdıraraq həyat sevincini və həyəcanını itirmiş olmaları bu cərəyandan təsirləndiklərini göstərir."

## “Eh, nəyimə lazımdır, sultanım”

Passiv nihilizmin varacağı dayanacaqlardan biri qaçılmaz olaraq “nəyiməlazımçılıq”dır. Nəyiməlazımçılıq isə heç bir şeyi vecinə almamaq, hər şeyi axışına buraxmaqdır. Bunu “mənə toxunmayan ilan min il yaşasın”, “hər qoyun öz ayağından asılır” kimi sözlərlə xülasə etmək olar. Məşhur bir ifadəni misal gətirərək fikrimi qüvvətləndirim: Qanuni Sultan Süleyman o dövrün mühüm alimi Yəhya Əfəndidən soruşur: “Bir dövlət hansı halda çökür?” Yəhya Əfəndi cavabında deyir: “Eh, nəyimə lazımdır, sultanım”. Yəni cahana hökm edən əzəmətli bir dövlət olsan belə, səni gücdən salmağa təkbaşına yetəcək olan şey boş vermək, laqeydlikdir.

*“Kənarı-Dəclədə bir qurd aşırsa qoyunu, gələr də ədli-ilahi sorar Ömərdən onu”.*

İnsanın özünü kainatdakı bütün varlıqlara görə cavabdeh hiss etməsini Mehmet Akif öz “Safahat”ında nəzmlə belə ifadə etmişdir.

Ətrafımıza bir az diqqətlə baxdıqda sosial məsuliyyət, ya da könüllülük fəaliyyətləri mənasında başqasına yaxşılıq etmək bir tərəfə qalsın, özü üçün belə barmağını tərpətməyə ərincəklik edən gənclər görürük. Mübarizə aparmağı, əmək verməyi qiymətli və gərəkli saymayan, daha doğrusu, əzmliliyi mənasız bilən gənclər bu günə və gələcəyə qarşı ümidsiz, bədbindirlər. Bu gənclərə bir “qızıl alma” göstərmək asan olmur. Bir insanı özünə, öz gücünə inandıra bilmək nə çətindir. Amma imkansız da deyil. Niyyət və qətiyyətli bir səy ilə hər şeyin həll edilə biləcəyinə inanırıq.

## Xoca Nəsrəddin nihilist idimi?

Güldürərkən dərindən düşündürən, məzəli xarakteriylə tanıdığımız, bir çox hikmətə sahib olduğunu düşünərək barəsində yaxşı fikirdə olduğumuz Xoca Nəsrəddinin isə yenə incə bir keçidlə heçlik məqamını gündəmimizə necə gətirdiyinə bir fikir verin. Bir gün Xoca Nəsrəddindən soruşurlar:

– Kimsən?

– Heçəm, – deyir, sualı verənlərin ona əhəmiyyətsiz bir insan kimi baxdıqlarını görüncə onların birindən soruşur:

– Sən kimsən?

– kəndxuda, – kişi təkəbbürlə deyir.

– Sonra nə olacaqsan? – deyə Xoca Nəsrəddin soruşur.

– Hər halda vali olaram, – kişi cavabında deyir.

– Daha sonra?

– Vəzir.

– Ondan sonra nə olacaqsan?

– Ehtimal ki, sədr-əzəm ola bilərəm.

– Yaxşı, bəs ondan sonra?

Artıq yüksələcək vəzifə qalmadığı üçün kişi boynunu bükərək son məqamını deyib:

– Heç.

– Bəs onda niyə bu qədər təkəbbürlənirsən, ay kişi. Mən indidən sənin illər sonra gələcəyin məqamdayam: Heçlik məqamında!

## Xülasə, gəlinən nəticə

**Bizcə?**

**Əlbəttə ki, saxta bir doktrin**

Nihilizmlə bağlı bu xülasələşdirilmiş məlumatları əldə etdikdən sonra yenidən anlayırıq ki, sadəcə müsəlmanlara deyil, bütün insanlara ümid və səadət olacaq yeganə din İslamdır. Nihilizmin insanlara verdiyi təkliflər ortadadır. Yoxluq üzərində qurularaq "var" olmağa çalışan, ən başda özüylə təzadda olan bir cərəyandır. Bəli, adından da göründüyü kimi, cərəyandır; axıb gedəcək, qalıcı olmayacaq, nədənsə tutub duruş gətirə bilməyəcək. Əsilsiz, saxta bir doktrin. Nihilizm ateizm, deizm kimi inanc görünüşlü bir çox süni təbəqə – bəli, təbəqə, əsla dərinləşə, dərini təmsil edə bilməyəcək – əyri ilə doğrunun ayırd edilməsindəki əyri olaraq qalmağa davam edəcək.

> Nihilizmlə bağlı bu xülasələşdirilmiş məlumatları əldə etdikdən sonra yenidən anlayırıq ki, sadəcə müsəlmanlara deyil, bütün insanlara ümid və səadət olacaq yeganə din İslamdır.

## Könül onurğası

Əzm, qətiyyət, cəsarət, möhkəm duruş, iradə kimi xüsusiyyətlərin xarakterə işlənmədiyi bir həyat mənasını itirər. Mənasını itirən bir həyat insana hüzur (rahatlıq) və xoşbəxtlik verməz. Hüzur isə insan könlünün onurğası kimidir. Hüzursuz insan çökmüş, gücsüz, bezgin, özünə inamsız, bədbin olar; fayda gətirən heç bir şeydən zövq ala

bilməz. Ruhuna zərər verən şeylərdən həzz almağa başlayar. Qəlbi-səlim, yəni salamatlığa, hüzura qovuşmuş bir qəlbə sahib olmayan insan dincliyi yanlış yerlərdə axtarmağa başlayar. Halbuki Qurani-Kərimdə "İnsan özbaşına buraxılacağınımı zənn edir?" ayəsi ilə insanın məsuliyyət daşıdığı son dərəcə anlaşılan bir dillə ifadə edilir.

## İddiasız insan olmaz

> "Mənasını itirən bir həyat insana hüzur və xoşbəxtlik verməz. Hüzur isə insan könlünün onurğası kimidir."

Nihilizm ilə insanlar iddiasız və idealsızlaşdırılır, çarəsiz hala gətirilir. Nihilizm mənasız dərdlər içində boğulmağı təklif edir. Beləcə istehsal deyil, istehlak edən bir güruh ortaya çıxmış olur. Nihilizmlə başlayan səfər kapitalizmlə davam edir. Nəyi nə üçün istehlak etdiyini bilmədən bu çarxa xidmət edən çılğın istehlakçılar peyda olur. Bu şəkildə inkişaf etdiyini zənn edən, lakin nəticəyə heç cür gələ bilməyən doyumsuz ruhlar sürəkli təkrarlanan mənfiliklərin içində vurnuxurlar. Susadıqca dəniz suyu içmək, dəniz suyu içdikcə də susamaq kimi.

**– Necəsən?**

**– Heeç...**

Gənclərə necə olduqlarını soruşduqda "heç" cavabı ilə son zamanlarda çox tez-tez rastlaşırıq. Bu "heç" cavabı, təəssüf ki, "hər şey eynidir, həyatım monoton axışı ilə, darıxdırıcılığı ilə davam edir, mənasını itirmiş məşğuliyyətlər içində vaxt keçirirəm" mənasına gəlir. Tarixi məlumatlara görə, nihilizmin ilk təsirlərinin Rusiyada intellektual gənclər üzərində yarandığını hesab etsək,

ölkəmizdə də gənc nəslin içinə düşdüyü – ya da düşürüldüyü – mənasızlıq çuxurunu görməzliyə vura bilmərik. Yəni ilk qurban gənclər təyin edilir. Eynilə ateizmdə, kapitalizmdə və deizmdə olduğu kimi. Bütün cərəyanların, qrupların hədəfində gənclər durur.

## İslamda heçliyə yer varmı?

İslamda yuxarıda bəhs etdiyimiz mənada heçliyə yer, əlbəttə, yoxdur. Hər an yeni bir təşəkküldən bəhs edilən, insanın özbaşına yaradılmadığını deyən, axirətə inanmağı imanın əsasları siyahısına salan, dünyanı axirətin tarlası olaraq görən bir dində "həyatda hər şey boşdur, dəyərsizdir, mənasızdır" kimi fikirlərin olması məntiqsizdir. İslamda dünya həyatının keçiciliyi vurğulanır, ayələrdə əsl həyatın axirət həyatı olduğu bildirilir. İnsanlara dünyada elədiklərinə görə cavabdeh olduqları və bunun nəticəsində cənnət və ya cəhənnəmə gedəcəkləri bildirilir. Bu səbəbdən içində olduğumuz bu dünya vardır, gerçəkdir və insanın əbədiyyəti qazanması üçün bir fürsətdir.

Ancaq təsəvvüfdə "heçlik məqamı" deyilən bir məqam vardır. Nihilizmlə heç bir şəkildə əlaqəsi olmayan bir məqamdır. Bu məqama çatmaq hər insanın hünəri deyildir. Təvazökar olmaq, təkəbbürü buraxmaq, eqodan sıyrılmaq, mərhəmətli olmaq kimi insanın mənliyini arxa plana itələyən xüsusiyyətləri tələb edir. Bax o zaman heçlik məqamına çatmaq mümkün olur və varlığın iç üzünə vaqif olunur. Mövlana Cəlaləddin Rumi "heç" olmaqla bağlı deyir: "Bu dünyada hər kəs bir şey olmağa çalışarkən sən heç ol. Mənzilin yoxluq olsun. İnsanın saxsıdan fərqi olmamalıdır. Necə ki saxsı qabı ayaqda saxlayan xaricindəki forması deyil, içindəki boşluqdur, insanı ayaqda saxlayan da mənlik zənni deyil, heçlik şüurudur".

# HEDONİZM

Əsas qayə həzz almaq deyil,
həzm etməkdir

Hedonizm fəlsəfi cərəyan olaraq baş qaldırmış olsa da, hazırkı dövrümüzdə dünyanın başına gələn ən təhlükəli tələlərdən biridir. “Bir dəfə yaşayacağın bu dünyada alacağın zövqləri təxirə salma, həzzin zirvəsinə dırmaş” təlqinləri ilə xüsusilə gənclərin ağlını başından almaqda çox mahirdir. Belə ki, mənəvi dəyərlər müstəvisində yaşadığını düşünənləri belə toruna salacaq qədər xain bir cəhəti də var.

## Hedonizm nədir?

“Hedone” sözü qədim yunan dilində həzz, zövq mənasını bildirir. Hedonizm isə dilimizə “həzçilik” kimi tərcümə olunur.

Hedonizm Kirenak məktəbindən Sokratın tələbəsi Aristippin təlimidir. Bu təlimə görə, həyatın əsl məqsədi həzz almaqdır. Bir şey həzz verirsə yaxşı, həzz vermirsə pisdir. Fərdə zövq axtarışına həsr olunmuş bir həyat tərzi təklif edən və onu sürəkli olaraq şən-şaqraq, firavan həyata səsləyən təlimdir.

### Hedonistlərdə görünən ortaq xüsusiyyətlər

Zövq, həzz, xoşbəxtlik bir hedonist üçün ən dəyərli şeylərdir. Eqoistdirlər, başqalarından öz mənfəətləri üçün istifadə edirlər. Din və əxlaq məfhumlarını sevmirlər, ani istəkləri hər şeyin önünə keçir. Narsistdirlər, özlərini çox yüksəkdə görürlər.

## Eqoist hedonizm – rasional hedonizm

Hedonizm iki yerə ayrılır. Eqoist hedonizm – bu, yuxarıda bəhs etdiyimiz Aristippin irəli sürdüyü fəlsəfi cərəyandır. İkincisi rasional hedonizmdir. Bu cərəyanın təmsilçisi

isə Epikurdur. Epikurun fikrincə, əsl zövq ağılla əldə edilə bilər. Bütün zövqlər yaxşıdır, lakin hamısı seçilməyə layiq deyildir. Bütün ağrı-acılar pisdir, lakin hamısından qaçılması gərəkli deyildir. Uzun müddətdə daha çox zövq verəcək bir şey üçün qısamüddətli zövqdən əl çəkmək lazım gəlirsə, bu edilməlidir. Rasional hedonistlər özünə nəzarət etməyin və ehtiyatlı davranmağın fəzilətindən söz açmışlar. Eqoist hedonistlər üçün bədənin aldığı zövq önəmli olduğu halda, rasional hedonistlər üçün ruhun dincliyi daha önəmlidir. Yəni biri bədənin aldığı həzzi əsas hesab edir, digəri ruhi həzzə əhəmiyyət verir.

## Yüksələn, amma yüksəltməyən meyil

Buraya qədər hedonizmin bir təlim olaraq çıxış nöqtəsinə qısaca toxunmuş olduq. Yüksələn bir meyil olaraq bütün dünyanı bürüyən bu təhdidedici cərəyanı fərqli yönlərdən araşdıraq.

Müasirlik və kapitalizmin yeritdiyi istehlak mədəniyyəti ilə “zövqlü həyat” vurğusu insanların yaşayış tərzlərində ciddi bir dərrakə dəyişikliyi meydana gətirdi. İnsanlar ağrı-acının və hüznün olmadığı, sadəcə komfortun, ləzzətli “an”lar keçirməyin əsas həyat olduğuna inan(dırıl)dı. “An” kəlməsini qəsdən dırnaq içində yazdıq. Çünki dünyəviləşən insan “anı yaşa” şüarını mənimsəyib. “Həzz al, kef çək, üçgünlük dünyadır” mesajlarına həm açıq-açığına, həm də subliminal olaraq məruz qalıb. Müəyyən məqamda müqaviməti qırıldı və bu təzyiqə təslim oldu. Hələ də dik

> İnsanlar ağrı-acının və hüznün olmadığı, sadəcə komfortun, ləzzətli “an”lar keçirməyin əsas həyat olduğuna inan(dırıl)dı.

durmağa cəhd edənlər olsa da, onların azlıqda qaldığı aşkardır. Çünki nəfsin arzu və həvəs ölçüsünü hesaba qatsaq, insan, təbiəti baxımından zövqlü olanı, həzz verəni seçməyə meyillidir.

## İstehlakdan istehlaka çox fərq var

İstehlakı iki yerə ayırmaq mümkündür. Birincisi faydalı istehlakdırsa, ikincisi hedonik (həzzyönlü) istehlakdır. Faydalı istehlaka önəm verənlər məhsul, yaxud xidmətlərin funksionallığına əhəmiyyət verir, diqqətini konkret şeylərə yönəldir. Hedonik istehlaka meyilli olanlar isə zəruri bir ehtiyac olduğu üçün deyil, "dost-tanış alış-verişdə görsün" qayğısı ilə istəklərinin arxasınca qaçırlar.

## Sən necə başa çıxa bilirsən?

Burada "qayğı" məfhumuna işıq tutaq. İnsanın məna axtarışından qaynaqlanan qayğı fitri bir hissdir. Hər insan bu mənada qayğı ilə tanışdır. Varlığını mənalandırmaq üçün qayğının fərdin daxili mənbələrini hərəkətə keçirən bir funksiyası vardır. Qayğı insan ruhunda meydana gələn bu gərginliyi azaltmaq üçün həyatın mənasını axtararkən insanı qurub-yaradıcı fəaliyyətlərə sövq edərək stimul verir.

Qayğıyla şüurlu olaraq başa çıxmaq mümkün olduğu kimi, şüursuzcasına başa çıxmağa çalışmaq insanın önündəki seçimlərdən biridir. Şüursuz şəkildə başa çıxarkən fərd qayğının mənbəyindən xəbərsiz halda sadəcə hiss orqanlarının həzzini əsas tutur. Bu da tədricən insanı hedonizm çuxuruna sürükləyir. Qayğısını aradan qaldıracağı hər zövq əslində gerçəklikdən qaçışdır. Qayğı ilə şüurlu şəkildə başa çıxarkən isə mənəvi aləmə çatmaq,

başqa aləmlərin varlığını dərk etmək üçün mənəvi cəhd vardır. Bu, həqiqi zövqə çatdıran bir mübarizədir.

## Cilddən cildə girən hedonizm

Həzzin gündəlik həyatımızdakı əksinə baxarkən müxtəlif versiyalarını görə bilirik. Azgəlirli təbəqənin olduğu kənar məhəllələrdə insanlar imkansızlıqların gətirdiyi əzablardan qaçaraq narkotikə qurşanmaq, zərərli münasibətlər və silahlı dəstələrə qoşulmaqla həzz alacaqlarına ümid edirlər. Bunları əldə etmək asan olsa da, əvəzi ağır olan zövq vasitələri olur, səfadan çox cəfa gətirir.

Həzzin iş həyatındakı əksinə baxdıqda isə karyera pillələrini çıxmaq və lüks içində yaşamaq həzz alma vasitələri kimi qəbul edilir. Gəlir səviyyəsi yüksək olan təbəqələrdəki bu süni həzz mənbələri də qalıcı xoşbəxtliyi verə bilmir.

Bundan başqa, din pərdəsi altında hedonizmi yaşayan bir təbəqə də vardır. Əyləncə yolu ilə aralarına girə bilmədiyi şəxslərə "spiritualizm" kanalı ilə gizlincə daxil olan hedonist anlayış dini təcrübə tərzlərində zövqə yönəlməyi təklif edir. Yəni ruhun dincliyi maskası altında bir dinin gətirdiyi dəyərlərin içini boşaltmaq və sadəcə zövq alına biləcək şəkildə tətbiq etmək məqsədilə dindar təbəqəni də təsiri altına alan hedonizm həyatın əsas qayəsi önündə hər keçən gün böyüyən bir risk olaraq durur.

> "Həzzin gündəlik həyatımızdakı əksinə baxarkən müxtəlif versiyalarını görə bilirik."

Həyatın əsas qayəsi insanın varlığını mənalandırması, haradan gəlib haraya getdiyini aydınlaşdırması, hərəkətlərinə nəzarət etməsi, məsuliyyət sahibi olması və əbədi aləmdə ali yaradıcısı ilə görüşməsidir. Fərdi və ictimai məsuliy-

yətdən qaçan, həzz arxasınca qaçmağı ideallaşdırmış hedonizm anlayışı bu əsas qayənin önündə bəşəriyyət üçün ciddi bir risk yaradır.

## Xəyallar, həyatlar... və sonrası

Populyar mədəniyyət cihazları ilə insanlara, xüsusilə gənclərə hüdudsuz azadlıq vədləri verilir və onlar birgünlük müvəqqəti əyləncələrə təşviq edilir. Bu insanların beyinləri sənət adı altında mahnılarla, seriallarla, reklamlarla yuyulur. Qədim zamanların qəlbi riqqətə gətirən musiqilərinin yerinə bədənin zövqlərinə həvəs yaradan mahnı sözlərinə məruz qoyulur. Filmlərdə gənclər ya son model maşınlarda ya da əyləncə və istirahət məkanlarındadırlar. Əsl həyata dəxli olmayan ekranın saxta həyatları məqsəd olaraq göstərilir. Bir addım sonra isə bu gənclər xəyali bir həyat üçün dünənini, bu gününü, sabahını hədər edir.

## Bir "izm"in tələsinə düşdünsə...

Burada valideynlərin uşaqlarını böyütmə tərzləri də əhəmiyyətlidir. "Sən hər şeyin ən gözəlinə layiqsən", "bircə mənim balam ürəyini sıxmasın" deyərək övladlarını ərköyünləşdirən, xəyali mənliklər aşılayan, onlara çətinliklərlə mübarizə ruhunu aşılaya bilməyən ata-analar psixoloji dözümlülüyü olmayan fərdlər yetişdirirlər. Bu fərdlər yetkinlik yaşına çatdıqda hisslərin coşqunluğu, diqqət mərkəzində olma həvəsi ilə motivasiya edilir, kiçik bir çətinliklə üz-üzə gəldikdə özünü yad zövqlərin qollarına atır. Sonu olmayan zövqlər hedonizm, hedonizmin sonu nihilizm, yəni heç bir şeyin mənasının olmaması, nihilizmin sonu isə pessimizmdir. Yəni bədbinlik. Bədbinlik isə depressiya və ardınca intihara qədər gedilən bir prosesdir.

## Həzz və sürətin övladı: Kaliforniya sindromu

Populyar mədəniyyətdə Kaliforniya sindromu olaraq adlandırılan şey əsasən xəstə həyat tərzinin ifadəsidir. Sindromun açar kəlməsi "hedonizm"dir. Kaliforniyada yaşanılan həyatın fəlsəfəsinə əylənmək, daha çox pul qazanmaq və xərcləmək şəklində xülasə verilir. Belə ki, əylənərkən ortaya çıxan yorğunluğu belə yenə fərqli əyləncə forması ilə çıxaran bir həyat anlayışıdır. Tətbiqlər dəyişsə də, dəyişməyən əsas ünsür əyləncə və zövqdür.

Sosial mediadan istifadə artdığı üçün Kaliforniya ilə məhdudlaşmayan, bütün dünyaya xərçəng hüceyrəsi kimi yayılan bu xəstə həyat tərzi bəşəriyyətə aid bütün dəyərləri təhdid edir. Üstəlik, toxunduğunu özü kimi edərək mədəniyyətlərin dərinliklərinə qədər yol taparaq insani tərəflərini yox edir.

Kaliforniya bu vəziyyətin fərqinə vardı və sosial məsuliyyətlilik layihələrini həyata keçirən qurumlar quraraq cəmiyyəti müalicə etməyə başladı. Hətta belə bir tədbir də geniş yayılıb: gənclərin məktəbdən məzun ola bilməsi üçün ehtiyac sahiblərinə yardım edərək yaxşılıq balları toplaması lazım gəlir.

Biz də mədəniyyətimizdə əzəldən var olan, insanı insan edən qədim dəyərlərə neçə-neçə nəsli məhv etdikdən sonra çata bilən bir ştatın həyat tərzinin olsa-olsa ancaq sindrom ola biləcəyini demədən üstündən keçə bilmədik.

> "Populyar mədəniyyətdə Kaliforniya sindromu olaraq adlandırılan şey əsasən xəstə həyat tərzinin ifadəsidir."

“

NƏ DEDİLƏR?

Prof. Dr. Arif Verimli

**Kaliforniya bəşəriyyətin sonunu gətirəcək**

Bakırköy Ruh və Sinir Xəstəlikləri Xəstəxanasının keçmiş baş həkimi, psixiatr, prof. dr. Arif Verimlinin karar.com saytında 12.06.2016 tarixində yayımlanan müsahibəsində “Sizcə, Kaliforniya sindromu bizim cəmiyyətimizdə də yayılıbmı?” sualına verdiyi bu cavab diqqət çəkir:

“Ölünün önündə selfi çəkən görmədikmi? Ya da bir çimərlikdə boğulanların cəsədi orada ikən dənizə girməyə davam edənləri? Bu bir laqeydlik, “mənə nə” deməkdir. Bu, zövqə yönəlmiş tərsinə düşünmə tərzidir. Bu, müasir zamanın təzyiqidir. Boşanmalar, münasibətlərin korlanması elə bu fərdiliyi zövqlə cilalamağın nəticəsidir. İctimailik yerini fərdiliyə verib, fərdilik də onu doyuracaq zövqlərin arxasınca qaçarsa, nəticə özünü büsbütün buraxmaqdır. İnsanlıq tükənib. Bir şəhid cənazəsinin ağrısını hiss etməmək belə bir tükənmənin nəticəsidir. Kaliforniya sindromu bəzəkli bir şey kimi görünsə də, insani və əxlaqi dəyərlərin önəmsizləşdiyi, rəqabətin, zövqün öncül olduğu və artaraq böyüyərsə, insanların sonunu gətirə biləcək təhlükəli bir sindromdur”.

”

## Xülasə, nəticə olaraq

Həzçilik cərəyanını ümumi cizgiləriylə araşdırdıqdan sonra bunları deyə bilərik: bütünlüklə maddi həzzə yönələrək yaşamaq insana doyumsuzluq və narahatlıqdan başqa bir şey gətirmir. Bu o demək deyil ki, heç zövq almayacağıq. Dinimiz və dinimizin formalaşdırdığı mədəniyyətimiz həzzi qadağan etməyib, əhliləşdirmişdir. Yeri gəldikdə həzzi təxirə salmağı təlqin etmişdir.

"Halal dairə kef almaq üçün yetərlidir" sözü bu anlayışın təzahürüdür. Halal lüğətdə "izin verilən" deməkdir. Allahın icazə verdiyi, edib-etməməkdə sərbəst buraxdığı şeylərdir. Halal faydalı, təmiz, zərərsiz olandır. Bir şey haladırsa insanın bədəninə də, ruhuna da yaxşı təsir edir. Haramdırsa həm bədənə, həm də ruha zərərdən başqa verəcəyi bir şey yoxdur. Hansı sahə olursa olsun, halallar insanın ehtiyaclarını qarşılaması üçün yetərlidir. Halallar genişdir, bir-bir sayılmaz. Hüdudlu olan haramlardır, buna görə saya gəlir. "Əşyada əsas olan ibahadır" (izinli olandır) qaydası da bu məsələni açıqlayıcı mahiyyətdədir. Dünya nemətləri boldur, əhatə dairəsi genişdir. Qadağan olunmuş şeyin halallardakı alternativi daha çoxdur. Kef alaraq əylənmək istəyən insan harama yönəlmədən də könlünü xoş edə, nəfsinin payını verə bilər. Yer üzündə "dünyadakı nəsibini də unutma" ayəsi çərçivəsində yaşamağa dəyəcək o qədər gözəllik var ki.

> Dinimiz və dinimizin formalaşdırdığı mədəniyyətimiz həzzi qadağan etməyib, əhliləşdirmişdir. Yeri gəldikdə həzzi təxirə salmağı təlqin etmişdir.

Zövqdən məhrum, ürəksıxıcı, sevincsiz, canlılığını itirmiş bir

həyat və din anlayışını müdafiə etmək doğru deyildir. Orta əsr xristianlığını xatırlayaq. Elə məhz bunu etmişdi. Bir addım sonra da həyatdan tamamilə uzaqlaşdırıldı və iman hissi süni ünsürlərlə təmin edilməyə çalışıldı. Gəlinən son nöqtədə isə həzçiliyi, xudbinliyi, həqiqi olmayan bir azadlığı müqəddəsləşdirən hazırkı qərb dünyası ortaya çıxdı.

Yaxşı, bəs sonu görünən bu yola girməmək üçün nələrə fikir vermək lazımdır?

**1- Yeganə çıxış yolu – iman:** İnsanı torpaq kimi quraqlaşdıran, qalıcı güvən hissi verməyən bu cərəyanların dağıntılarına qarşı ən təsirli qorunma və müalicə üsulu bir mənəvi sistemə bağlı olmaqdır. Kəmal Sayarın ifadəsiylə desək, "bir dinin sərinliyinə sığınmaq"dır.

**2- Bir yetkinləşdirmə məktəbi olan çilə:** Həzrət Eyyub nümunəsini xatırlayaq. İztirab insanı təkamülə sövq edən mühərrik gücdür. O biri dünya dərkinin korşaldıldığı bir anlayışa qarşı əsl iqamətgahın dünya olmadığını göstərir. Dünyanın ən şirin acısını yaşayan fiziki zövqlərdən əsl zövqlərə keçidi təmin edir.

**3- Zövqlərini əhliləşdir.** Keyfiyyətli zövqlərə sahib olmaq, zorla yeridilənə deyil, öz keyfiyyətli seçiminə görə və insanı yaradıcılığa sövq edən zövqləri seçmək gərəklidir. Almalı şəkər və şirin saqqızlar bir çoxumuzun uşaqlıq xatirələrində yer alır. Beş hissin həzzini bu ikisinə bənzədə bilərik. Müvəqqəti həzlər şəkəri bitdikdən sonra əldə qalan bir quru taxta çubuq, ya da çeynəməkdən başqa bir işə yaramayan şirinliyi bitmiş saqqız kimidir. Şou dünyasından filan şəxsin itinin adını öyrənməkdən zövq almaq yerinə insanlığa fayda gətirəcək zövqləri üstün tutmaq lazımdır.

**4- Nümunə götürəcəyin insanı doğru seç:** İnsan özünə örnək olaraq gördüyü insanla zaman keçdikcə ey-

niləşir. Bilik, irfan və həqiqətdən zövq alan insanlarla bədənin bitib-tükənməyən, amma heç cür doya bilməyən həzlərini əsas götürən insanlar eyni deyildir. Deyiblər ki, "divar meyilləndiyi istiqamətə yıxılar". İnsan meyil etdiyinə, rəğbət göstərdiyinə çevrilir. Burada "bədəni yağ ilə, bal ilə çox bəsləmə, o torpaq olacaq. Əsas olan ruhdur, ona sərmayə qoy" deyən Mövlana, qəlbə yönələrək yaşayan Yunus Əmrə kimi insanlığa can suyu olmuş zirvə şəxsiyyətlərin əsrlərə hökm edən nümunəviliyini yenidən xatırlamaq lazımdır.

**5- Ölüm təfəkkürü:** Necə ki, bir dəstə pulu sayarkən qarışınca düzgün saymaq üçün yenidən başlanılırsa, insan ciddi mənada həzzə yönələrək yaşayırsa, ona verilən bu əmanəti qarışdırmış sayılır, yenidən başlaması lazım gəlir. "Nə idim, haradan gəldim" deyərək təfəkkür səfərinə çıxmalıdır. Əgər yenidən başlamaq istəmirsə, o zaman sona baxmalıdır. Ölümü düşünməlidir, ağıllı şəxs gedəcəyi yola hazırlaşar. 3-5 saatlıq gəzintiyə – piknikə gedərkən belə xeyli hazırlıq görürük. Bilirik ki, ancaq götürdüyümüzü yeyəcək, istifadə edəcəyik. Həzlərdən ibarət bir əməl dəftəri yerinə güclü iman və saleh əməllərlə tərtib edilmiş bir əməl dəftəri hazırlamaq insanın qoyacağı ən yaxşı sərmayədir.

**Kitab tövsiyəsi:** *Yalnızıq* (Peyami Safa) romanında hedonist bir gəncin təmsil etdiyi maddilik ilə idealist bir gəncin təmsil etdiyi ruhçuluq toqquşur. Safa hedonist həyat tərzini, bir hedonistin hadisə və faktları dəyərləndirməsini, gözləntilərini, davranış və rəftarını Bəsim xarakterinin timsalında ustalıqla qələmə almışdır. "Zövq"lə oxunacaq bir kitabdır.



# İMPERİALİZM

Qlobal siyasətin xərçəngi

“İmperializm bədəndən öncə ruhların köləşdirilməsi proqramıdır”.

**İbrahim Kalın**

## İmperializm nədir?

Fransızca "imperialisme" sözündən dilimizə keçən imperializmin müxtəlif tərifləri vardır. Ümumi olaraq "bir millətin istismara əsaslanaraq başqa bir milləti siyasi və iqtisadi baxımdan hakimiyyəti altına alıb genişlənməsi və ya genişlənmək istəməsidir" şəklində tərif verilir. Bir dövlətin öz dövlətindən kənardakı cəmiyyətlər üzərində, onların razılığı olmadığı halda nəzarət etmə siyasəti kimi də xülasə vermək mümkündür. Bir kəlmə ilə demək istəsək: istismarçılıq!

## Tarixi proses

İmperializm, kobud dillə desək, üç mühüm hissəyə ayrılır. Birincisi 16-cı əsrə qədər olan və imperiyaların genişlənməsini ifadə edən dövrdür, ikincisi coğrafi kəşflərlə başlayıb 19-cu əsrə qədər davam edən dövrdür, buna keçmiş imperializm də deyilir. Üçüncüsü isə neoimperializm deyilən dövrdür. 1800-cü illərin sonlarından başlayaraq dövrümüzə qədər uzanan dövrdür.

Qədim dövrlərdə krallıqların, imperiyaların hakimiyyəti tək əldə toplaması və istilaçı siyasət aparmaları mümkün idi. Hazırkı dünyamızda bu şəkildə idarəetmə forması qalmadığı üçün imperializmin tətbiq tərzi formasını dəyişdir-

mişdir. Nəhəng şirkətlər mənsub olduqları böyük ölkələrin başqa ölkələr üzərindəki nüfuzundan istifadə edərək istismar olunan ölkələrin yeraltı və yerüstü zənginliklərindən faydalanır, imperializmin təmsilçisi olmağa davam edirlər. Hər kəsə bəlli olan bir nümunə gətirək: Amerikanın İraqı işğal etməsi ilə Amerikaya bağlı olan böyük şirkətlər İraqdakı nefti çox ucuz alaraq ölkələrinə aparmış və çox böyük məbləğlər qazanmışdılar. İmperialist olmağın müxtəlif özəlliklərindən biri də hakim ölkənin mədəniyyətini hökm etdiyi ölkəyə – o ölkənin razılığı olsa da, olmasa da – gətirməsidir. Siyasi, yaxud iqtisadi işğalın ardınca dərhal missionerlərin iş başına keçməsi bunun ən açıq əlamətidir. İmperialist qüvvələr istismar etdikləri ölkənin insanlarına öz ideologiyalarını, mənfəət əldə edəcəkləri düşüncələri, boyun əyməyi, itaəti mənimsətmişdilər.

## İmperializmin səbəbləri, ya da qanunilik qayğıları

İmperializmin səbəbləri haqqında birdən çox baxış vardır. Əsas başlıqlar halında qısa xülasəsini vermək lazım gələrsə, bunları saya bilərik. İqtisadiyyatın yaxşılaşdırılması ən keçərli səbəb kimi qəbul edilib. Yəni sənayeləşmə ilə istehsalın artması və bu məhsullara yeni bazar axtarışı, xammal tələbatını xammal istehsal edən ölkələrdən təmin etmə ehtiyacı, artan əhali üçün yaşayış bölgələrinin yaradılması kimi iqtisadi səbəblər imperialist siyasətlərin inkişaf etdirilməsinə yol açmışdır. Marksist nəzəriyyəçilərə görə, kapitalist dövlətlər iqtisadiyyatı inhisara aldıqda, digər kapitalist dövlətlərlə rəqabət yaşadıqda yeni bazar axtarışına görə kapitalizmin son dayanacağı olan imperializm doğulur.

İkinci baxışa görə, dövlətlər təhlükəsizliklərini təmin etmək üçün nəqliyyat və xəbərləşmənin nəzarətini əllərində saxlamaq istəyirlər. Strateji nöqtələri nəzarət altına almaq, başqa dövlətlərin müdaxilə etmələrini əngəlləmək üçün imperialist davranışa ehtiyac duyurlar.

Bir başqa qrupun fikrincə, imperializm həyatda var olma mübarizəsinin tələblərinə görə ortaya çıxmışdır və bu, təbii bir prosesdir. Hitler və Makiavelli kimi şəxslər bu fikirdədir; güclü olanın gücsüzə hökm etməsi təbiətin qanunudur.

Son olaraq imperializmi əxlaqi səbəblərə görə gərəkli sayanlar da vardır. Qoluzorluluqla, vicdansızcasına idarə edilən dövlətlərin hakimiyyətinə müdaxilə edərək vəziyyəti nəzarətləri altına alırlar və öz qaydalarına görə yeni bir oyun qururlar. İnsani bir həyat üçün isə öz mədəniyyətlərini əlçəkilməz görən dövlətlər imperializmin əsas aktyorları olaraq səhnədədirlər. İstismar edənlər istismar olunanlara mədəniyyət aparırlar!

## Qarşılıqlı asılılıq nəzəriyyəsi

Cozef S. Nye və Robert O. Keohane 1977-ci ildə yazdıqları *"Güc və qarşılıqlı asılılıq"* adlı kitablarında "Qarşılıqlı asılılıq nəzəriyyəsi"ni ortaya qoymuşlar. Nəzəriyyəyə görə, bütün tərəflər bir-birinə möhtacdır və bir-birilərini tamamlayır. Yəni ölkələr arasındakı münasibətlərdə inkişaf etmiş ölkələr ilə inkişaf etməkdə olan ölkələr bir-birilərindən siyasi, iqtisadi və s. sahələrdə asılıdırlar. Burada təktərəfli asılılıq iddiasına bir meydan oxuma vardır. Lakin münasibətlərin qarşılıqlı asılılıq keyfiyyəti qazanması üçün münasibətlərin simmetrik olması tələb olunur. Əks halda

istismar davam edərkən adının imperializm deyil, qarşılıqlı asılılıq olaraq dəyişdirilməsindən başqa nəticə çıxmaz. Bu vəziyyət də arxa planda güclünün gücsüzdən icarə gəliri əldə edərkən dünyanın gözlərini müxtəlif terminlərlə pərdələməsi mənasına gəlir.

## "Neo" yazılır, makiyaj kimi oxunur

İmperializm, ya da koloniyalizm, yəni istismarçılıq. Bu terminlər arasında ədəbiyyatda fərq qoyulsa da, praktikada hamısı eyni mənanı ifadə edir. Mənfəətləri naminə zalımın məzluma zülm etməsi. Məfhumların əvvəlinə "yeni, çağdaş, müasir, post" mənasında "neo" əlavəsi gətirildikdə isə istismarın mədəniləşdirilmiş (!) metodlarla qanuniləşdirilməsindən söhbət gedir. "Demokratiya, insan haqları, sənaye gətiririk" kimi aldadıcı vədlər "maddi və mənəvi dəyərlərinizi, varlığınızı, insanlığınızı, ağlınızı, qəlbinizi, şərəfinizi, heysiyyətinizi, xülasə, sizi sizdən alırıq" mənasının neo, yəni makiyajlı versiyasıdır. Bu, özünü mədəni və ziyalı hesab edən ölkələrin digər millətlərin reaksiyasının qarşısını almaq üçün seçdiyi gizli bir işğal texnikasıdır.

"Məfhumların əvvəlinə "yeni, çağdaş, müasir, post" mənasında "neo" əlavəsi gətirildikdə isə istismarın mədəniləşdirilmiş (!) metodlarla qanuniləşdirilməsindən söhbət gedir."

## İstismarlar dörd bir tərəfi bürüyüb

Hazırkı dünyamızda nizamlı ordularla hərbi güc tətbiq edərək hökm sürən klassik imperializmin yerinə keçən neoimperializmə yardım etmələri üçün özünü "super güc" kimi tanıdan dövlətlər tərəfindən müxtəlif qeyri-hökumət təşkilatları, media orqanları, qondarma dini qurumlar yaradılır, bufer dövlətlər, subpodratçı qruplaşmalar maliyyələşdirilir.

## İmperializmdən söz düşdükdə adını və kitabını xatırlamadan keçmək olmaz: Vladimir İliç Lenin




Leninin ən çox oxunan kitablarından biri olan *"İmperializm: kapitalizmin ən yüksək mərhələsi"* mövzumuzla birbaşa əlaqəli bir kitabdır. Leninə görə, kapitalizmin çatdığı son pillə imperializmdir. Kapitalizm artdıqca xammal ehtiyacı artacaq. Xammal ehtiyacı artdıqca öz mənbələri ilə həyatını davam etdirə bilməyən dövlətlər mənfəətləri üçün özlərindən gücsüz ölkələri istismar etməyə başlayacaqdır. Yəni kapitalizm prosesin sonunda imperializmə çevriləcəkdir.

## Nə DEDİLƏR?

Cemil Meriç

**Dünyanın ən böyük irfanına sahib olan bir ölkədə mədəni imperializm olmaz.**

Mədəniyyət və imperializmin birləşməsini “ağlagəlməz əxlaqsızlıq” kimi qiymətləndirən Cəmil Meriçin bir seminarından qeyd şəklində qarşımıza çıxan bu cümlələr mədəniyyət və imperializm məfhumlarına fərqli bir baxış gətirir:

“Mədəniyyət imperializmi olmaz. Mədəniyyət mənasız, məzmunsuz, bic bir kəlmədir. İmperializm bu kəlmədən başlayır. İrfanla imperializm alınmaz. Mədəniyyətin 182 mənası var, mənası əgər irfandırsa imperializm olmaz. Qərbləşmənin yeni bir qulpudur. Qərb öz dəblərini, zəifliklərini, iylənmişliklərini bizə sırımaq üçün, bizi mədəniyyətsizliyimizə inandırmaq üçün bunu icad etmişdir. Bunun üçün irfanımıza sığınmalıyıq. Mədəni bir ölkədə aşılanmaq istənilən başqa mədəniyyət dərhal yox edilir. Mədəniyyətlə imperializm birləşə bilməz. İrfan süni şəkildə yeridilə bilməz, qarşı tərəfin təhqirinə məruz qalmaz. İrfan ayırmaz, birləşdirər, özünü tanımaqla başlayar. Mədəniyyət imperializminin var olduğunu demək “mədəniyyətimiz yoxdur” mənasına gəlir. Dünyanın ən böyük irfanına sahib olan bir ölkədə mədəniyyət imperializmi olmaz”.

Bundan başqa, “Mədəniyyətdən irfana” adlı əsərinin 226-cı səhifəsində Cəmil Meriç “İmperializm heç bir zaman Akif kimi bir düşmənlə qarşılaşmayıb. Akif həm bir ölkənin səsidir, həm də bütöv bir qitənin”, - deyərək Mehmet Akif Ersoyu imperializmin düşməni kimi qiymətləndirmişdir.

## NƏ DEDİLƏR?

Ahmet Kabaklı

**Bax imperializmin qarşısı belə alınar!**

Ahmet Kabaklının "Mədəniyyət imperializmi" əsərində altından xətt çəkilmiş sətirlərdən bir qismi:

"Amerikaya hirslənirik. Mən də hirslənirəm. Amma amerikalını dəyənəklə bu ölkədən kənara atmaqla məsələ həll olunmur. Ola bilməz! Amerikalının mahnısına qarşı çıxa bilirsinizmi? Saqqallı, bakenbardlı, meşin pencəkli meymuncuqların qarşısını ala bilirsinizmi? "Mən Avropadan bunu aldım" deyə öyünən, amerikan siqaretini qaçaq yoluyla alıb çəkən kimsəni qınaya bilirsinizmi?

Dostlar, bax imperializmin qarşısı belə alınar. Müqavimət ancaq mədəniyyətlə olur. Müqavimət bir milləti dəyərlərinə bağlamaqla mümkün olur. Nə ilə qarşı çıxacağımızı düşündüyünüz bir zamanda "millətimin adət-ənənəsiylə, qısaca desək, türkün şəxsiyyətiylə qarşı çıxacağam" deyə bilirsənmi?

Dostlarım, Türkiyəyə Noelin gəlişi Qurban bayramının gəlişindən daha çox bəlli olur. Əhalisinin 99 faizi müsəlman olan bir ölkədə necə olur ki, (heç olmasa müəyyən dairələrdə, qəzetlərdə, radiolarda) Noelin gəlişi Qurban bayramından daha çox bəlli olur? Amma olur. Deməli, siz mədəniyyət imperializminin təsiri altındasınız. Küçələrdə qışqırmaqla olmaz. Bir-birinizi qırmaqla olmaz. Mədəniyyət imperializminə təslim olmusunuz! Bu gündən qərar verək: mədəniyyət imperializminə qarşı çıxacağıq".

**NƏ DEDİLƏR?**
Abdurrahman Arslan

## Mübtədası təcrid olunmuş imperializm

Abdurrahman Arslan 3 oktyabr 2016-cı il tarixində Eskişehir Osmanqazi Universitetində gerçəkləşən "Yeni dünya nizamı və neokoloniyalizm" başlıqlı paneli Eyüp Düz tərəfindən ortaya çıxarılmış və "Ukba" jurnalının saytında 1 yanvar 2017-ci il tarixində yayımlanmışdır. Yığıncaqda "Mübtədası təcrid edilmiş imperializm nə deməkdir" sualını verir və cavablandırır: imperializmə qarşı olduğunu deyən o yerli xalqlar əslində elə imperializmi dəvət edən xalqlardır. Necə dəvət edirlər? Artıq imperializmin əmtəəsinə, əşyalarına, istehlak şeylərinə alışmış, yemək zövqü, geyim tərzi, düşüncə tərzi, zehniyyəti dəyişmiş bir dünya var. Bu səbəbdən istədikləri qədər hökumətləri bunlara mane olsa belə, bu insanların demokratik tələbləri olaraq yenidən imperializmin istehsal etdiklərini onsuz da cəmiyyətlər istəyir. Buna görə, məncə, hökumətlərin də, dövlətlərin də işi çətindir. Çünki dünən bəzi şeylərə qadağa qoyaraq buna mane ola bilərdiniz, amma bu gün qadağan etdiyiniz andan etibarən azadlıqları məhdudlaşdırdığınızı, istehlaka mane olduğunuzu, cəmiyyətin rifahını yaxud yaxşı yaşamasını istəmədiyinizi deyərək o ki var danışacaqlar. Əslində mən –məfhumu düzgün seçib-seçmədiyimi deyə bilmərəm, amma– buna "imperializmin demokratikləşdirilməsi" deyirəm. Şəxsən imperializmə qarşı olan xalqlar imperializmin məhsullarını istəyərək onun işini asanlaşdırırlar. Belə çətin bir prosesin içində yaşayırıq.



**NƏ DEDİLƏR?**

Peyami Safa

**Yeddi başlı imperializm əjdahası**

Peyami Safa Birinci Dünya müharibəsindən sonra rus imperializmini *“Sosializm, marksizm, kommunizm”* əsərinin 155-ci səhifəsində bu cümlələrlə ifadə edir: “1917-ci ilin sülhsevər və məzlum Rusiyasından Orta Avropanı, Balkanları, Çini istila edən yeddi başlı imperializm əjdahası doğuldu. Marks adından işlənilən cinayətlər və həyata keçirilən qətliamlar orta əsr işgəncələrini kölgədə qoydu”.




Şəxsən imperializmə qarşı olan xalqlar imperializmin məhsullarını istəyərək onun işini asanlaşdırırlar. Belə çətin bir prosesin içində yaşayırıq.

“Xülasə, nəticə olaraq”

## Mədəniyyət imperializmi, yoxsa mədəniyyətsizləşdirmə?

Mədəniyyət imperializmi bir ölkənin öz mədəni dəyərlərini və ideologiyalarını digər ölkələrə mənimsətməsi, qəbul etdirməsidir. İmperializmin ən mühüm dayaqlarından birisidir. İstismarçılığa möhkəm bir zəmin hazırlayır.

Bu gün özünü super güc kimi tanıdan ölkələrin kütləvi informasiya vasitələri və mətbu orqanları vasitəsilə yemək-içmək, geyinmək, əylənmək kimi gündəlik təkrarlanan məşğuliyyətləri aşağı mədəniyyətli kimi tanıtdığı digər xalqlara mənimsətməsi ilə üz-üzəyik. Daha da ağrılısı, hazırda zorla qəbul etdirilən, beyinlərə yeridilən məsələ başqa bir mədəniyyəti mənimsətmək belə deyil, tamamilə mədəniyyətsizləşdirmək, nə olduğu bəlli olmayan, içiboş ritualları mənasız və məqsədsiz, nihilist bir həyat tərzi təklif etməkdir.

## Yumşaq göründüyünə baxma

Bir ölkənin hərbi üsullarla fəthi zəhmətli və məsrəflidir, böyük bir prosedur yumağıdır. Üstəlik, digər böyük qüvvələr dövriyyəyə girəcəyi üçün risklidir. Ancaq yuxarıda saydığımız media, radio-televiziya ilə “soft power” deyilən yumşaq gücün təzyiqi çirkli əməlləri olan istismarçı ölkələrin güclü bir silahıdır.

## Qamus namusdur

Bir mədəniyyəti dəyişdirməyin ilk yolu o millətin dilini dəyişdirməkdir. TV proqramları, seriallar, filmlər, so-

sial media kimi ünsürlər dilin dəyişməsində ən önəmli rolu oynayırlar. Gündəlik işlətdiyimiz sözlərə baxdıqda nə qədər cılızlaşıb korlandığını görə bilirik. Mənası olmayan reaksiya bildirən sözlər, həmsöhbəti nüfuzdan salan müraciətlər, jarqon tərzində sevinməyi ifadə edən qışqırıqlar və daha bir çox nümunə ilə dilin korlanmasına şahid oluruq. Dilimizi itirdikdə namusumuzu itirmiş olacağımızı yenidən xatırlamağa və heç unutmamağa məcburuq.

## Mədəni imperializm başqa, mədəni təsirlənmə başqadır

Özünü hakim güc kimi görən dövlətlərin mədəniyyətlərini qəbul etdirməsi ilə iki, yaxud daha çox mədəniyyətin müxtəlif səbəblərlə bir-birindən təsirlənməsini qarışdırmamaq lazımdır. Türklərin İslamı qəbul etməsi mədəniyyət imperializmi kimi dəyərləndirilmədiyi halda, Qərbin istismar olunan ölkələri müxtəlif hiylələrlə xristianlaşdırması imperializmin aşkar nümunəsidir.

**Qeyd:** İmperializm həyatın hər sahəsində qarşımıza çıxır. Rabitə imperializmi, media imperializmi ağıla ilk gələnlərdəndir. Hər bir sahə öz-özlüyündə önəmli və laqeyd qalınmayacaq keyfiyyətdədir. Məlumat, şüur və hərəkət üçlüyü üçün oxumaq, araşdırmaq, ayıq-sayıq olmaq lazımdır.

## Necə antiimperialist ola bilərik?

İmperializm istismarçılıq deməkdirsə, antiimperializm istismarçılığa qarşı olmaq deməkdir. Yaxşı, bəs necə antiimperialist ola bilərik? Əlbəttə, müasir həyat şəraitini yaradan imperialist ölkələrin istehsal etdiyi hər şeyi rədd edərək deyil. Amma təklif etdiyi hər imkanı sorğu-sualsız,

zərərinə baxmadan alıb qəbul etmək də ağılın işi deyil. Öz süzgəcimizi yaratmağa məcburuq. Yemək, geyim, texnologiya və s. sahələrdə alternativləri dəyərləndirməyə, yaxud alternativ yaratmağa çalışmalıyıq.

## İslamda imperializm, əlbəttə, yoxdur

Mövzuya müsəlman şəxsiyyəti ilə yanaşdıqda ilk cümləmiz "İslamda imperializm yoxdur" olur. Çünki imperializmin ehtiva etdiyi məna ilə İslamın əsas mesajı daban-dabana ziddir. İmperializm başqa ölkələrin sərhədlərini pozmaq, mənbələrini istismar etmək, insanları zehni ya da fiziki olaraq kölələşdirmək kimi vicdandan məhrum bir mənanı ehtiva edir. İslamda fəth vardır. Fəth Allahın adını eşitdirmək və ədaləti təsis və təmin etmək üçün edilir. Fəthin də öz-özlüyündə qaydaları var. Döyüşənlərdən başqasına toxunulmur, heyvanlara, bitkilərə, ətrafa zərər verilmir, qadınların namusuna göz dikilmir. Nə əsirlərə, nə də bir başqasına işgəncə verilir. İnsan qürurunu, şəxsiyyətini heçə sayacaq işlər görülmür, fəth edilən ölkənin əhalisi gündəlik işlərinə davam edir. Din azadlığı təsis edilir, qənimətlər dövlətə təhvil verilir. Fəthdən məqsəd talan etmək, qarət etmək, yaxud istismar etmək deyildir. Kim bunları edərsə, günahı və cəzası böyükdür.

> "Yaxşı, bəs necə anti imperialist ola bilərik? Əlbəttə, müasir həyat şəraitini yaradan imperialist ölkələrin istehsal etdiyi hər şeyi rədd edərək deyil."

İslamın qanuni bir səbəb olmadıqca döyüşü qadağan etməsinin və sülhü tövsiyə etməsinin ən önəmli dəlillərindən biri Ənfal surəsinin 61-ci ayəsidir: **"Əgər onlar sülhə yönəlsələr, sən də sülhə yönəl və Allaha təvəkkül et. Şübhəsiz ki, O eşidəndir, biləndir"**.

# FEMİNİZM

Qadını istismar etmək üçün tələ

Qadın mövzusu
qədim mövzudur

## Feminizm nədir?

Latın dilində qadın mənasına gələn "femine" kəlməsindən törədilən feminizm məfhumu tək çeşid olmadığı üçün sadəcə bir tərif vermək çətindir. Ən ümumi halıyla ifadə edərsək, qadınların öz aralarında həmrəylik yaradaraq cinsi fərqə qarşı çıxdığı, kişilərlə bərabər hüquqi, siyasi və sosial haqlar tələb etdiyi, kişilərin hegemon olduğu dünyanın norma və dəyərlərinə qarşı başlatdıqları kütləvi hərəkat deyə bilərik.

## Cinsiyyət, yoxsa ictimai cinsiyyət?

Feminizmi araşdırarkən "cinsiyyət" və "ictimai cinsiyyət" məfhumlarına ayrı-ayrı işıq tutmağımız lazım gəlir. Cinsiyyət qadın və kişinin bioloji xüsusiyyətlərini ehtiva etdiyi halda, ictimai cinsiyyət qadın və kişinin dəyərlərini əhatə edən sosial təşəkkül kimi tanınır. Feminizm sırf cinsiyyət məfhumundan daha çox ictimai cinsiyyət məfhumu ilə maraqlanır. Patriarxal cəmiyyət quruluşuna və bunun sosial həyata əks olunmasına qarşı çıxır.

## Tarixi proses və dalğalanmalar

## Birinci dalğa

Feminizmin kökləri 18-ci əsrə gedib çıxır. Birinci dalğa feminizm Meri Volstenkraftın "Qadın haqlarının müdafiə-

si" adlı əsərində ifadə etdiyi tələblər üzərində inşa edilmişdi. Bu dövrdə bərabərlilik əsasları ön planda idi. Qadınların da "kişilər kimi" yaşaya biləcəyi düşüncəsi hakim idi. Qadınlara səsvermə hüququ, təhsil imkanı bərabərliyi, mülkiyyət hüququ, eyni işə eyni əməkhaqqı kimi ümumi tələblər irəli sürülürdü. O dövr üçün bu tələblər əsas haqlar sayılırdı.

## İkinci dalğa

1960-cı illərə təsadüf edən bu dövrdə vətəndaşlıq haqlarının az qala hamısına sahib olan feministlər artıq bədənlərinin kişi nəzarətindən çıxmasını tələb etdilər. Cinsi əlaqə ilə doğumun bir-birindən ayrılmasını və doğuma nəzarət tətbiqlərinin qanuniləşməsini istədilər.

Bu dövrdə qadınlar fərqliliyə fikir vermədən bir-birilərini anlama yolunu tutmuşdular. Bu şəkildə "şüur yüksəltmə" dedikləri vəziyyəti ortaya çıxarmışdılar. O dövrün şöhrət qazanan şüarı isə "bacılıq güclüdür" şüarı idi.

Qərb feministləri ilə üçüncü dünya ölkələrinin qadınlarının mübarizələri bambaşqa sahələrdə olduğu üçün bu "bacılıq" ifadəsinin sadəcə qərblilərlə əlaqəli olduğunu demək yanlış olmaz. Çünki qərb feministləri qadınların azadlığı uğrunda mübarizə apardıqları halda, inkişaf etməmiş ölkələr istismar altında olan ölkələrinin azadlığını belə əldə edə bilməmiş vəziyyətdə idilər. Bu səbəbdən "bacılıq" iddiası bir şüardan uzağa gedə bilməmişdi.

## Üçüncü dalğa

Qadının "kişi kimi" olduğu düşüncəsi 1990-cı illərdə qadının mübtəda (tabeli deyil, əsas cümlə üzvü) olması

düşüncəsinə çevrilmişdir. Bu dövrdə "qadın kimliyi" vurğulanmışdır. İkinci dalğa feminizm cərəyanında "mütləq bərabərlik" istənildiyi halda, üçüncü dalğada fərdi müxtəlifliklərin nəzərə alınması üçün işlər görülmüşdür.

## Feminizmin növləri

### Liberal feministlər

Patriarxal cəmiyyət quruluşuna meydan oxumaqdan daha çox qadınların sosial və iqtisadi sahələrdə kişilərlə bərabər haqlara sahib olması üzərində dururlar. Liberallar üçün bərabərliyi təmin edəcək ünsür qadının ictimai sahədə çalışmasıdır. Qadın haqları müdafiəçisi Con Stüart Millin "bir cinsin digərinin üzərində üstünlük yaratması öz-özlüyündə yanlış olmaqdan daha çox insanlığın inkişafının önündə ən böyük əngəldir" sözü liberal feminist düşüncəni əks etdirir.

### Marksist feministlər

Marksist feministlər qadınların hüquqlarının pozulmasının səbəbini sinif fərqində görürlər. Qadının əzab-əziyyət çəkməsinin əsl səbəbi, onların fikrincə, kapitalist sistemdir. Bu sistemdə qadınlar kişilərdən daha çox istismar olunur.

> Qərb feministləri qadınların azadlığı uğrunda mübarizə apardıqları halda, inkişaf etməmiş ölkələr istismar altında olan ölkələrinin azadlığını belə əldə edə bilməmiş vəziyyətdə idilər.

Həm ictimai işlərdə işləyən, həm də evdə uşaqlara baxaraq təmizlik edən, yemək bişirmək kimi işləri çatdırmağa çalışan qadın ilə kişi arasında bərabərsizlik vardır. Marksist feministlər ev işlərinə görə əməkhaqqının verildiyi, ailə institutunun ortadan qalxdığı bir həyatı təsəvvür edirlər.

## Radikal feministlər

Patriarxal quruluş ortadan qaldırılaraq matriarxal bir nizamın qurulmasının lazımlılığını müdafiə edirlər. Radikal feministlər qadını əzən və ikinci sinif kimi baxan bütün qurumların tamamilə ləğv edilməsini istəyirlər. Kapitalist sistem ortadan qalxsa belə, ailə institutu davam etdiyi müddətdə patriarxal nizamın davam edəcəyinə inandıqlarından ailə institutunu rədd edirlər. Uşağın böyüdülməsində bioloji ananın yerini sosial analar tutmalıdır. Qadının kişiyə bənzəməsi qadın hərəkatına ən böyük zərbədir. Qadın mədəniyyəti qlobal hakim mədəniyyət olmalıdır.

Feminizm cərəyanında bu üç növ ən bariz olanlarıdır. Bunlardan başqa, müxtəlif sosial təşəkküllərdən təsirlənən feminist cərəyanlar vardır. Sosialist feminizm, postmodern feminizm, mədəni feminizm, ekzistensialist feminizm, ekofeminizm kimi…

## Hibrid ideologiya: islamçı feminizm

İslamçı feminizmə feminist tələblərin İslami paradiqma çərçivəsində ifadə edildiyi hibrid bir ideologiya kimi tərif verilir. İslamçı feministlərə görə, qadının cəmiyyətdə geri qalmasının əsl səbəbi ənənələrdir. Ənənənin patriarxal bir xarakterə sahib olduğunu deyən islamçı feministlər Əsri-Səadətin ədalətli nizamını tərifləyirlər. Qərbli feminist ifadə

ilə İslamçı feminist ifadə arasındakı fərqlərə baxacaq olsaq, qərbli feministlər ailə qurumunu tənqid etdiyi halda, islamçı feministlər ailənin önəmliliyini vurğulayaraq ona hörmətlə yanaşırlar. İslamçı feministlər özlərini cəmiyyətdən ayrı görmür, cəmiyyət üçün gözəl bir gələcək inşa etmək istəyirlər. Bərabərliyi deyil, tamamlayıcılıq prinsipini əsas götürürlər. Qərbli feministlər İslamın qadının azadlığını əlindən aldığına inanırlar, buna görə müsəlman qadını "xilas etmək" kimi bir rola giriblər. İslamçı feministlər bunu qəbul etmir.

“

**NƏ DEDİLƏR?**

Fatma Aliyə xanım

**Feminizm Osmanlı qadınını xoşbəxt edə bilməz (!)**

Tənzimat (islahatlar) dövründə yetişmiş, türk ədəbiyyatının ilk qadın roman yazarı kimi qəbul edilən, Ahmet Cevdet paşanın qızı Fatma Aliyə xanım öz dövrü üçün bir cəsarət nümunəsi olaraq qadın haqları məsələsində fikirlərini açıq şəkildə bəyan etmişdir. Bir feminist kimi qiymətləndirilsə də, qərb feministi deyildir. Qadın haqları məsələsində İslama istinad edir. Onun fikrincə, İslami çərçivədə qadınlar sahib olmaları vacib hesab edilən haqlara onsuz da sahibdirlər.

Fatma Aliyə xanım 1909-cu ildə çap etdirdiyi “Elm və cəhl” adlı məqaləsində feminizmin sadəcə bir tərifinin olmadığını, “iffətpərvəran” kimi tərif verdiyi radikal feminizmə şübhəylə baxdığını bildirmişdir. Radikal feminist hərəkatın Osmanlıda qadınları xoşbəxt edəcək ünsürlərə sahib olmadığını ifadə edib.

”

## Nə dedilər?

Nazifə Şişman

### Müsəlman bir qadın feminist ola bilməz

Sosioloq-yazar Nazifə Şişman 20.02.2012-ci il tarixində dünyabizim.com saytında yayımlanan müsahibəsində feminizmin əsas hədəflərindən birinin dinlər – xüsusilə İbrahimi dinlər – olduğunu ifadə edir və müsahibəni alan Hülya Kurqanın “Müsəlman bir qadın feminist ola bilməzmi?” sualına belə cavab verir:

“Bəli, açıq şəkildə belə deyirəm. Çünki cins əsaslı feminist baxış nəticə olaraq sekulyardır və “həyat nədir” sualına verilən başqa bir cavabın dövrümüzdəki son mərhələsidir. Bu mənada feminizmin məfhumlarını işlədən bir dindar qadın, bəlkə də, dərhal feminist olmaz. Amma feminist dünyagörüşünü külli dünyagörüşü olaraq mənimsəmək var olmadakı tövhidi vurğulayan bir dinin mənsubları üçün təzadlı bir vəziyyəti göstərir. Amma yenə də bunu unutmamalıyıq, müasir dünyada qadınlar bir çox ədalətsizliklə qarşılaşır və bu vəziyyətdə qadın haqlarından bəhs etmək qaçılmaz olur. Belə hallarda dərhal “feminist” damğasını yapışdırmaq da düzgün və ədalətli deyil. Çünki dindar qadınların feminizmin məfhumlarını işlətmələriylə feminist baxış tərzinə sahib olmaları ayrı şeylərdir. Bir-birinə qarışdırılmamalıdır”.

“

## NƏ DEDİLƏR?

H. Şule Albayrak

**Dindar qadın özünü necə tanıdır?**

Mərmərə Universiteti ilahiyyat fakültəsinin müəllimlərindən H. Şule Albayrak “Laciverd” jurnalının 8-ci sayında – 2014-cü ilin dekabrında yayımlanan “Müsəlman qadın: feministmi, patriarxal nizamın müdafiəçisimi?” başlıqlı yazısında özünü necə tanıtdığını bu sözləriylə ifadə edir:

“Tək tipli münasibətdən çəkinərək bildirmək lazımdır ki, az da olsa, özünü feminist olaraq tanıdan dindar qadınlar olduğu kimi, müasir dünyada dini həyat imkanlarını yaratmağa cəhd edən və özünü İslamçı olaraq qiymətləndirən qadınlar da yeni yüksələn ictimai dindar qadın profili içində yer tutur. Ancaq ideoloji təmayüllərdən uzaq duran daha geniş bir kütlə vardır ki, bu qadınlar özlərini tanıtmaq üçün Allahın seçdiyi bir ad olan “müsəlman”ı yetərli hesab edir. Feminizmi qərbli qadının tarixçəsinin bir mərhələsi olaraq görən, ancaq feminizmin təcrübəsinin gətirdiyi faydaları da inkar etməyən bu yeni qadın profili cəmiyyəti qadın və kişinin rəqabət içində olduğu deyil, harmoniya və iş birliyi içində olduğu bir sahə olaraq təsvir edir. Hər nə qədər ifadələrində yer alan harmoniya və iş birliyini həyata keçirmək bir çox problemi özüylə birlikdə gətirsə də, haqq, ədalət və əmanət kimi məfhumların müşayiəti ilə feminist ifadələrə alternativ sözlərin axtarışı davam edir”.

”

## Qadınlar günü təntənə ilə qeyd edilməlidir, yoxsa yas tutulmalıdır?

Qadınlara dəyərli olduqlarını hiss etdirəcək bir çox tədbirlərin, əyləncələrin düzənləndiyi Dünya Qadınlar Gününün tarixinə nəzər yetirdikdə 1857-ci ildə daha yaxşı iş şəraiti tələbiylə tətil edən – çoxu qadın olan – 40 min fabrik işçisinin çıxan yanğında polisin qurduğu barrikadalar maneə törətdiyi üçün qaçıb qurtula bilmədiyi və can verdiyi barədə məlumatı əldə edirik.

Qadınların haqlarını qəsb edən, bu vəziyyətə etiraz edənləri cəzalandıran, sonra da ildə bir günü sözügedən qadınlara həsr edərək qadına verdiyi yüksək (!) dəyərlə öyünərək sanki günahını yuyan bir zehniyyətin dünyanın gözünü boyaması: Dünya Qadınlar Gününün arxa planı.

Dəyanət İşlərinin keçmiş sədri professor Mehmet Görmez Qadınlar günü münasibətilə təşkil olunan bir proqramda Quranın layiqincə anlaşılacağı təqdirdə insanların Quranın nazil olduğu günü "dünya qadınlar günü" olaraq qeyd edə biləcəklərini söyləyərək bu günə fərqli bir münasibət sərgiləmişdir.

> Qadınların haqlarını qəsb edən, bu vəziyyətə etiraz edənləri cəzalandıran, sonra da ildə bir günü sözügedən qadınlara həsr edərək qadına verdiyi yüksək (!) dəyərlə öyünməklə sanki günahını yuyan bir zehniyyətin dünyanın gözünü boyaması: Dünya Qadınlar Gününün arxa planı.

"Xülasə, nəticə olaraq"

## Qərbin daha bir acı təcrübəsi

Bu məlumatlara baxdıqda feminizmin qərb mənşəli bir cərəyan olduğunu, tədricən dünya ölkələrinə yayıldığını görürük. Digər dinlərdə qadına verilən məna İslamiyyətdəki kimi deyil. Cənnətdə Həzrət Adəmi aldadanın Həzrət Həvva olduğunu qəbul ilə başlayan qadının "pis" olduğuna dair inanc zaman keçdikcə qadının şeytanilәşdirilməsindən tutmuş insanlıqdan kənar davranışlara məruz qoyulmasına qədər getmişdir. Sənaye inqilabı ilə işçi qüvvəsinə duyulan ehtiyacın artması nəticəsində ucuz işçi qüvvəsi kimi qadınlardan istifadə olunması qadın cinsini çilədən çıxarmışdır. Ancaq dediyimiz kimi, bu vəziyyət qərb mədəniyyətinin yaşadığı təcrübədir.

## İctimai sahədə var olma tərzi

İslamiyyətdə qadına etibar edildiyini, haqlarının qorunduğunu göstərən saysız ayə və hədis mövcuddur. İslama istinad edən siyasətlər müsəlman qadını şikayətçi vəziyyətinə salmamış, əksinə, fitri ehtiyaclarını qoruduğu üçün mənəvi və fiziki baxımdan sağlam nəsillər yetişdirmiş, ailəni isti yuvaya çevirmiş, günü və gələcəyi canlandırmışdır. İctimai sahədə varlığını bu yolla gözütox və nəcib duruşu ilə göstərmişdir.

## Bundan sonrakı loğmamı zəmanət altına alıram

Xoca Nəsrəddinə aid edilən bir lətifə vardır. Xoca süfrədəki küftələrdən birini götürərkən digərinə də o biri

barmaqları ilə toxunur. “Nə edirsən, xoca”, – deyə soruşanlara bu cavabı verir: “Birini əlləyirəm, digərinə yer eləyirəm”. Yəni əlimə aldığım onsuz da mənimdir, sonrakı loğmamı da zəmanət altına alıram.

Feminizmə sahib çıxan müsəlman qadınlar ifadələrində feminist olmadıqlarını, qadın haqlarının müdafiəçisi olduqlarını desələr də, hərəkətləri feminizm ilə üst-üstə düşür. Həm dinin qadına verdiyi geniş haqlardan, hörmətdən, həm də feminizmin nəfsə xoş gələn cəhətlərindən faydalanmaq istəyənlər də az deyil.

## Saxladığın pəhriz hara, yediyin kələm turşusu hara

Hazırkı dövrümüzdə qadınlar tələb etdikləri bir çox haqqa sahib olduqları halda, təəssüf ki, bir layihə halına çevrilən feminizm vasitəsilə aparılan siyasətin maşaları olurlar. Qərb dövlətləri tərəfindən təmin edilən fondlarla terror hərəkətlərində istifadə edilən feministlər haqq uğrunda mübarizə apardıqlarını düşünməyə davam edirlər. Meydanlarda çılpaqlıqları ilə bədənlərini öz əlləriylə dəyərsizləşdirərək “mənim bədənim, mənim qərarım” deyən femen qrupların necə vasitəyə çevrildiklərini görmək isə çətin deyil.

“Saxladığın pəhriz hara, yediyin kələm turşusu hara” deyə soruşmadan da dayana bilmirik.

## Mübtədamı? Tamamlıqmı? Yoxsa layihəmi?

Qadın mövzusu qədim mövzudur. İbtidai cəmiyyətlərdən bu günə kimi bəzən “tamamlıq” kimi davranılaraq,

bəzən isə bütləşdirilərək, amma hər zaman tarixin "mübtədası" mövqeyində varlığını davam etdirmişdir. Əsrlərdir danışılan, haqqında cild-cild kitablar yazılan və nəhayət, universitetlərdə tədris məqsədilə qadın mövzusunda söylənilləcəklər bitməz.

Biz yenə öz sözümüzü deyək, Allah-Təala qadın, yaxud kişi olmasından asılı olmayaraq xeyirdə yarışanın mükafatını verəcəkdir. Allah qadınla kişinin bərabərliyi kimi müqayisələrə girmir, ikisini bir-birinin vəlisi olaraq görür, bizi insanlıqda yoldaş, dində qardaş edir. Bu mənada İslamda süni kişi-qadın davası yoxdur. Çünki Rəsulullah qadın-kişi münasibətlərində ölçüləri qoymuş, haqları bildirmişdir. Feminizmin bizi sovuracağı yer dalandır. Bu sovrulma ilə bu gün zərər görən dili sabah yenidən düzəltməyə məcbur olacağıq. Sonra gələcəyimiz məqam isə İslamı doğru anlayaraq doğru yaşamaq olacaq.

Psixoz həddində olan incidilmişlik hissinə qapılmadan ədalət məfhumunun bərabərlik məfhumundan daha doğru olduğunu dərk edərək, qadına qarşı zorakılığa etiraz edən feminizm praktikasının artmasıyla qadına qarşı zorakılığın daha da artdığını görərək və bunda da bir tərslik olduğunun fərqinə vararaq müsəlman qadın feminizm tələsinə düşməməlidir.

> İslamda süni kişi-qadın davası yoxdur. Çünki Rəsulullah qadın-kişi münasibətlərində ölçüləri qoymuş, haqları bildirmişdir. Feminizmin bizi sovuracağı yer dalandır. Bu sovrulma ilə bu gün zərər görən, pozulan dili sabah yenidən bərpa etməyə məcbur olacağıq.

# KAPİTALİZM

Kölgəsini sata bilmədiyi ağacı
kəsən sistem

“Son çay quruduqda, son ağac kəsildikdə və son balıq tutulduqda ağ adam pulun yeyilməyən bir şey olduğunu anlayacaq”.

**Hindu atalar sözü**

“Dünya hər kəsin ehtiyacını ödəyəcək qədər zəngindir, ehtirasını ödəyəcək qədər deyil”.

**Mahatma Qandi**

“Kapitalizm əxlaqında mənfəət vardır, mərhəmət deyil”.

**Sadettin Ökten**

## Kapitalizm nədir?

Ən sadə sözlərlə desək, kapitalizm iqtisadi bir sistemdir. Bu sistemdə istehsal edilən mallar xüsusi şəxslərə aiddir və məqsəd maksimum gəlir əldə etməkdir. İki kəlməylə ifadə etmək lazım gələrsə, kapitalizm güc və puldur.

## Tarixi proses

Kapitalizmi anlaya bilmək üçün ilk növbədə feodalizmi bilmək lazımdır. Feodalizmdə iqtisadiyyat zadəganlar adı verilən müəyyən bir qrupun əlində idi. Torpaq zadəganlara aid idi, kəndlilər torpaqda işləyir və məhsul yetişdirir, qazancın ona yetəcəyi qədər az bir hissəsini götürdükdən sonra qalanını torpağın sahibi olan ağasına verməyə borclu idi. Feodalizm sistemində güc hər mənada torpaqda idi. 15-ci əsrdə ticarətin inkişafı ilə çökməyə başlayan feodalizm sistemindən sonra işçi qüvvəsinin, yəni əməyin satın alınması, ya da kirayələnməsi kapitalizmin ayaq səsləri olmuşdu. Kapitalizmlə bərabər gücün simvolu torpaq olmaqdan çıxmış, pul olmuşdu. Ticari fəaliyyətlərin irəliləməsi nəticəsində feodalizm sistemi çökməyə məhkum oldu.

## Kapitalizmin prinsipləri

**1. Xüsusi mülkiyyət haqqı:** Kapitalizmin önə çıxan ən bariz xüsusiyyəti şəxslərin hədd-hüdud qoyulmadan mülkə və pula sahib ola bilmələridir. Kapitalizmdə insanlar işləyərək əldə etdikləri məhsulları istədikləri kimi istifadə etməkdə sərbəstdirlər. Cəmiyyətin mənafeyinə zərər verməyəcək şəkildə işləyərək əldə etdikləri məhsul, mal, mülk kimi şeyləri istədikləri kimi istifadə edə bilərlər. Ancaq bu sistemdə işləyən qazandığı halda, işləməyən ac qalmağa məhkumdur.

**2. Varislik institutu: V**arisliyin ən mühüm özəlliyi şəxslərin sahib olduqlarını dilədikləri şəxsə və ya şəxslərə buraxa bilmələridir. Bu prinsip şəxslərin ən təbii haqlarıdır. Məqsəd isə bütün yığılan var-dövlətin bir başqasına keçməməsi, pulun inhisara alınmasıdır. Lakin bu vəziyyətdə varlı ilə kasıb arasındakı uçurum daha da dərinləşəcək, iki təbəqə arasında düşmənçilik artacaqdır.

**3. İşləmək azadlığı və xüsusi təşəbbüslər:** Kapitalist sistem təşəbbüsçülərə özlərinə aid məhsul, ya da pulu istədikləri sektorda, istədikləri miqdarda, risk vəziyyətlərini planlaşdıraraq istifadə edə bilmək imkanını yaradır.

**4. Rəqabət:** Kapitalizm uzaqdan baxıldıqda son dərəcə ədalətli imiş kimi görünsə də, içinə girdikcə sistemin amansızlığı görünür. Hər kəs istədiyi işi görməkdə və pul qazanmaqda sərbəst olsa da, birdən çox şəxsin eyni məqsədə çatmağa çalışması rəqabət şəraitini doğurur. Bu səbəbdən daim yarış olur. Ancaq bu yarışda sərmayəni əlində saxlaya bilənlər həmişə bir addım öndədir. Bir qismi rəqib tanımadığı halda, bir qismi də çarəsiz vəziyyətə düşməyə davam edəcək.

**5. Dövlətin rolu:** Kapitalizmdə dövlətin elə də çox böyük bir rolu yoxdur. İqtisadiyyatda problemlər yaşansa da, öz içində nizamlanacaq. Kənardan edilən müdaxilə sistemi alt-üst etmək mənasına gəlir. Eynilə dağınıq halda çalışan şagirdin masası toplandıqda axtardığını tapa bilməməsi, nizamının pozulması kimi. Dövlətin etməli olduğu ən önəmli şey sistemə kənardan edilə biləcək müdaxilələrin qarşısını almaqdır.

## Üstünlükləri nələrdir?

Ortaya çıxdığı ilk zamanlar ümumi mənada qəbul edilmiş, bir çox ölkə bu sistemi mənimsəmişdir. Kapitalizmlə birgə xüsusi mülkiyyət haqqının doğması, təzyiqedici və zorakı sistemlərin insanların qazanclarına və var-dövlətinə qarışmaması möhtəşəm bir azadlıq kimi dəyərləndirilmişdir.

## Üstün olmayan tərəflərinə gəlsək...

İnsanların istədiyi qədər mal-mülk sahibi olması demək mənbələri əldə etmək istəyənlərin daha çox artması deməkdir. Bu da təbii olaraq çətin bir rəqabət yaradır. Daha çox pul və güc sahibi olmaq istəyi ehtirasa çevrildikdə insani və əxlaqi dəyərlər unudulur. İnsanların, mənbələrin, əməyin, məhsulun, sağlamlığın və bir çox şeyin müəyyən bəzi təbəqələr tərəfindən istismar edilməsi və bundan əsla narahatlıq keçirilməməsi kapitalizmin ən ağrılı cəhətlərindəndir.

## Nəticəsi nə olursa olsun, qazanmaq

Kapitalizmdə nəticəsi nə olursa olsun, qazanmaq ehtirası vardır. Daha çox istehsal etmək üçün təbiəti korlamaq, yeraltı və yerüstü sərvətləri əldə etmək üçün amansızcasına mübarizə aparmaq, pula doğru gedən yolda insan həyatının heç bir dəyərinin olmaması, işçi qüvvəsi və əməyin ölümcül şəkildə istismar edilməsi vardır. Kapitalizm insanı pula sitayiş edən, hiss və vicdandan məhrum bir canavara çevirir.

## Nə qədər qazanırsan qazan, xoşbəxt hiss etməmək

Doğrudur, kapitalist sistemdə insanlar çox varlı ola bilər. Elə sistemin hədəf olaraq göstərdiyi şey də budur. Çox gəlir əldə etmək və varlı olmaq. Çünki xoşbəxt olmağın tək yolu pula sahib olmaqdır. Ancaq daha çox qazanmaq üçün çəkilən o qədər zəhmət nəticəsində əldə edilən isə bədbəxtlik hissindən başqa bir şey deyildir. Sürəkli istehsal ardınca sürəkli istehlakı gətirir. Gözünü yüksəklərə dikən insan qazandıqca xərcləyən, xərclədikcə qazanan, kədərləndikcə istehlak edən, istehlak etdikcə kədərlənən hala gəlir və beləcə, təkrarlanan mənfiliklər çarxının içinə girir.

## Gündəlik həyatımızda

Kapitalizmin gündəlik həyatımıza təsiri ümumən hamımızın yaşayacağı bir nümunəylə təsvir edilə bilər: Bir dostunuzla görüşə gedəcəksiniz, bəyəndiyiniz bir paltarı "üçünü al, ikisini ödə" kampaniyası ilə almağa qərar verərək kapitalist sisteminə ilk addımı atmış olursunuz.

Sonra paltarınıza uyğun gələn ayaqqabı, çanta, bəzək əşyaları kimi aksesuarlar lazım olacaq, bunlar üçün də pul ayırırsınız. Bunlara bir də makiyaj və parfümü də mütləq əlavə etməli olduğunuz üçün xərci bir az da artırırsınız.

Nəhayət, görüş üçün yola çıxırsınız. Görüş anında məşhur markalı içkilərə layiq olduğundan üç qat artıq pul ödəyirsiniz. Qayıdanda yağışa düşürsünüz. O an işlətdikdən sonra əlinizə bir daha almayacağınız çətiri tinin başında bir anda peyda olan səyyar satıcılardan satın alırsınız. Dayanacaqda avtobus gözləyərkən üşümüş, islanmış və həvəslə geyindiyiniz paltarlar islanmış olur. Yağış, palçıq və soyuqdan qorunmaq üçün əslində bir maşın almaq qərarına gəlmiş olursunuz. Evə qayıtdıqda bir də baxırsınız ki, internetdə maşın satışı elanlarına baxırsınız.

Bir maşına sahib olmaq üçün artıq gecə-gündüz çalışmağa başlayır, əlavə işlər axtarır, az xərc ilə daha çox gəlir qazanmaq üçün hər cür yola baş vurursunuz. Buyurun, bu da sizə kapitalizm. Necə də həyatdan götürülmüş, necə də tanışdır, elə deyilmi?

“Daha çox qazanmaq üçün çəkilən o qədər zəhmət nəticəsində əldə edilən isə bədbəxtlik hissindən başqa bir şey deyildir. Sürəkli istehsal ardınca sürəkli istehlakı gətirir. Gözünü yüksəklərə dikən insan qazandıqca xərcləyən, xərclədikcə qazanan, kədərləndikcə istehlak edən, istehlak etdikcə kədərlənən hala gəlir və beləcə, təkrarlanan mənfiliklər çarxının içinə girir.”

## NƏ DEDİLƏR?

*Joseph E. Stiglitz*

**Salam,**
**mən kapitalizməm!**

2001-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatını alan ABŞ-dan olan iqtisadçı Joseph E. Stiglitz "Mən kapitalizməm" adlı yazısında kapitalizmin özü haqqında danışmasına imkan verir. Burada bir qismini verdiyimiz yazı bütöv şəkildə internet saytlarında da mövcuddur.

"Kiçik qızlarınızı Barbi gəlinciklərlə böyütdüm, bu gün sizdən estetik əməliyyat üçün pul istəmələrinə niyə təəccüblənirsiniz?!

Mən kapitalizməm və dünyaya baxış tərzinizi elə dəyişdirdim ki, oğru bir şirkət idarəedicisinin həyat tarixçəsi sizin üçün "uğur və əzm tarixçəsi" ola bilir.

Mən kapitalizməm və mənə görə ətrafınız miras davalarına görə qanlı-bıçaq olmuş qohumlarla doludur. Hər il 20 milyon uşaq aclıqdan öldüyü halda siz bir qaçış alətində artıq yağlarınızı əritmək üçün tər tökürsünüz.

Mən kapitalizməm və məşhur bir qəhvə markası üçün qəhvə istehsal edən bir kəndlinin oradan bir fincan qəhvə ala bilməsi üçün üç gün işləməsi lazım gəlir!

Mən kapitalizməm və amerikalıların 24 faizi milyarder olmaq üçün bütün ailə üzvlərindən üz döndərmələri lazım gələrsə, bunu edə biləcəklərini söyləyir.

Mən kapitalizməm və 15 yaşlı bir oğlanın planşet ala bilmək üçün böyrəyini satdığını eşidincə sevincimdən yerə-göyə sığmadım.




Mən kapitalizməm və siz indi hansı Tanrıdan bəhs edirsiniz, artıq bunun fərqinə varın, sitayiş etdiyiniz yeganə tanrı mənəm.

Mən kapitalizməm və müsəlmanlar beşulduzlu Kəbə mənzərəli otellərində "ibadət" edərkən siz hansı Tanrıdan söz açırsınız?

Mən kapitalizməm və bütün dünya xristian bayramı Noeli sırf alış-veriş edib əylənmək üçün qeyd edərkən siz hansı Tanrıdan bəhs edirsiniz?

Mən kapitalizməm və məşhur bir qəhvə markası üçün qəhvə istehsal edən bir kəndlinin oradan bir fincan qəhvə ala bilməsi üçün üç gün işləməsi lazım gəlir!

“

## Nə dedilər?

Kemal Sayar

**Reklamlar, uşaqlar və oyuncaqlar**

Kemal Sayar özünün kemalsayar.com adlı internet saytında “Reklamlar, uşaqlar və oyuncaqlar” adlı məqaləsində kapitalizmin reklamların əliylə uşaqları necə ələ keçirdiyini izah etmişdir. Bu məqalənin qısa bir hissəsi bu şəkildədir:

“Uşaqlar şirkətlər tərəfindən artıq getdikcə daha erkən yaşlarında ələ keçirilmək istənilir. Bəzi marka adlarını zehinlərinə həkk edərək və məhsulları üçün istək yaradaraq uşaqları erkən yaşda bir müştəri kimi ələ keçirənlər daha sonra da əllərində tuta biləcəklərini düşünürlər. Yeri gəlmişkən, psixologiya elmi də təsbitlərini reklam sənayesinə həyasızcasına təqdim edə bilir.

Məsələn, iki yaşlı uşaqların yuxularında tez-tez heyvan və ya heyvan xarakterləri gördüyünü, yumru və maili xarakterləri yaxşı, küncləri olan, qırıq xətli xarakterləri isə pis kimi qəbul etdiyini təsbit edən elm adamları kəşflərini reklamçıların daha təsirli satış strategiyaları yaratmaları üçün kapitalizmin əmrinə verir.

Xəyal dünyaları video oyunlarıyla, televiziya ekranından üzərilərinə fışqıran zorakılıqla və kapitalizmin bu həyasız hücumuyla tar-mar olan uşaqlar bu mühasirədən necə təsirlənir?

”

“

Çalışmalar təcavüzkar reklamçılığın uşağın daxili dünyasında izlər buraxdığını göstərir. Diqqətini daha çox maddi dəyərlərə yönəldən insanların həyatdan daha az doyum aldığı, daha bədbəxt olduqları, insanlararası münasibətlərdə daha çox problem yaşadıqları, daha çox spirtli içki və narkotikə meyilləndikləri və içində yaşadıqları cəmiyyətə daha az fayda verdikləri müxtəlif çalışmalarda göstərilir. Reklamçılar uşaqlara maddi dünya və satın almanın həzzindən bəhs edirlər. Beləcə maddi zənginliyə və tezcə doyurulmaya özünü alışdırmış o dayaz “müştəri şəxsiyyəti”nin toxumları uşaqlığın bərəkətli torpaqlarına səpilir”.

”

## Xülasə, nəticə olaraq

### Kapitalizm belə "çürüdülər"

Kapitalizm bir düşüncə tərzinin ortaya qoyduğu iqtisadi sistemdir. Bu sistemin ağaları müsəlman dünyagörüşümüzün düz qarşısında yer almaqdadır. İslamda əməyin istismar edilməsi bir tərəfə qalsın, işçinin haqqının alnının təri qurumadan verilməsi tövsiyə edilir. Hüdudsuz həzzə yönələn istehlak bir yana, axıb gedən çayın kənarında belə olsaq, suyu qənaətlə işlətməyimiz tövsiyə edilir. Rəqabətdən irəli gələn varlıyla kasıb arasındakı qapanmaz uçurum bir yana qalsın, ədalətli bir iqtisadi nizam üçün varlının malında kasıbın da haqqı olduğu söylənərək zəkatla malın təmizlənməsi tövsiyə edilir.

> Kapitalizm bir düşüncə tərzinin ortaya qoyduğu iqtisadi sistemdir. Bu sistemin ağaları müsəlman dünyagörüşümüzün düz qarşısında yer almaqdadır. İslamda əməyin istismar edilməsi bir tərəfə qalsın, işçinin haqqının alnının təri qurumadan verilməsi tövsiyə edilir.

### Boykot bərabərdir mövqe

Kapitalizmdən danışarkən sözü boykot məsələsinə bağlamasaq, mövzu yarımçıq qalar. İslam aləmi olaraq hər fürsətdə yad mənşəli, pis əməllərlə bazara çıxarılmış, əldə edilən qazancla din qardaşlarımıza zülm ediləcəyini bildiyimiz məhsulları boykot etməyə niyyətlənirik. Ancaq

bu gözütox duruş ümumən baxıldıqda olduqca kiçik bir qrup tərəfindən sərgilənir. Rəsmə bütünlüklə baxdıqda görürük ki, böyük balıq kiçik balığı udmağa davam edir. Biz kiçik dişləmlər aldığımıza sevinərkən tortun sahibi hələ də "pis adam"lardır. Bir şeyə bütöv şəkildə çata bilmiriksə, əlbəttə, əldə etdiyimizdən də əl çəkəcək deyilik. Lakin ortada bir duruş, müqavimət, gözütoxluq olacaqsa, bunu möhkəm və təsirli şəkildə etmək daha doğru olar.

## Sistemə sistematik bir vuruş

Əsri-səadətdə müsəlmanlara qarşı edilən boykot bizim tərəfimizdən hər nə qədər pis bir hadisə olaraq İslam tarixində yerini almış olsa da, müşriklərin tərəfindən baxınca uğurlu və nəticə vermiş bir hərəkətdir. Uzun müddətdə müvəffəqiyyət müsəlmanların olsa da, o prosesdə hicrət etmələrinə zəmin hazırlamışdır. Yəni biz bu gün boykot edəcəyiksə, bu, dəqiq, qəti və sistematik olmalıdır ki, nəticə versin. Boykot ediləcək məhsul, ya da xidmətlərin alternativlərini istehsal edək ki, sudan çıxmış balığa dönməyək. Üstəlik, əgər bir şeyi baltalayacağıqsa, o şey sistemin özü olmalıdır. Şüursuzcasına budaqları kəsmək o ağacı budamaq da ola bilər, daha da gurlaşdıra da bilər.

Boykotdan məqsəd zalımın zülmünə qarşı dik durmaqdır, kapitalizm isə zalımın ən işlək işgəncə üsuludur.

> "Şüursuzcasına budaqları kəsmək o ağacı budamaq da ola bilər."

## Qlobal kənddən "kənd"ə dönüş

Yer üzünə bədbəxtlik və narahatlıq yayan kapitalizmi baltalamağın boykotdan kənar bir yolu da sistemdən uzaqlaşmaq, onu rədd etməkdir. Kapitalizmlə birlikdə ortaya çıxan böyük və izdihamlı şəhərlərdən, qızğın iş tempindən, tıxacdan, sürəkli harayasa çatmaq qayğısından, qeyri-sağlam və yorucu həyat şəraitindən uzaqlaşaraq təbiətə qayıdan insanların sayı az deyil.

İstər Türkiyədə, istərsə də dünyada bir çox məşhur sima möhtəşəm səhnə həyatını və buraxılması çox çətin olan şöhrətini arxada buraxaraq kənd təsərrüfatı və heyvandarlıq kimi sahələrə yönəlməkdədir. Ferma quranlar, süd və süd məhsullarını istehsal etməyə başlayanlar, uşaqları ilə torpağa toxunaraq həyatı nəzəriyyədə deyil, praktikada yaşayanlar ilə hazırlanan reportajlarda əvvəlki həyatlarından ötrü heç darıxmadıqlarını, seçdikləri təbii həyatlarında daha xoşbəxt və sağlam olduqlarını bildirirlər.

Qlobal kənddən kəndlərinə qayıdan bu insanlar kapitalizmə qarşı çıxdıqları, ondan imtina etdikləri üçün xoşbəxtdirlər. Sizcə də insan yaradılışının tələbinə uyğun olaraq torpağa və onun dincliyinə yaxınlaşdıqca özünü ana vətənində hiss etməzmi?

# MİNİMALİZM

Azacıq aşım, ağrımaz başım

“Sadə, amma bəsit olmayan, yalın, amma yavan olmayan gözəllik anlayışı”.

**Hegel**

## Minimalizm nədir?

Minimalizm kəlməsinin kökünə getdikdə "bir şeyin enə biləcəyi ən aşağı sərhəd" mənasında işlədilən fransızca "minimum" sözü ilə qarşılaşırıq. Dilimizə "sadəçilik" kimi də tərcümə edə biləcəyimiz minimalizm əslində müasir sənət cərəyanı olaraq ortaya çıxmışdır.

## Tarixi proses

1913-cü ildə rus rəssam Kazimir Maleviç ağ səthin üzərində qara kvadrat çəkərək minimalizmin ilk siqnallarını vermişdir.

İfrat sadəliyi müdafiə edən, az şeylə çox şeyi ifadə etmək məqsədi daşıyan minimalizm 1960-cı illərdə ABŞ-ın Nyu-York şəhərində özünü göstərmişdir.

"Minimal art" – yəni minimal sənət olaraq ifadə olunan bu cərəyan rəsm və heykəltəraşlıq sahəsində ortaya çıxsa da, dünyaya yayılması musiqi ilə olmuşdur. Arxasınca ədəbiyyatdan filmə, memarlıqdan fotoqrafçılığadək geniş bir şkalaya təsirini göstərmişdir. Hazırkı dövrümüzdə isə ev dekorasiyası, geyim, texnoloji alətlər, internet saytları, loqo və qablaşdırma dizaynları daxil olmaqla hər sahədə varlığını göstərir.

Minimalizmin şüarı isə bizim dilimizə "Az çoxdur" kimi tərcümə edilən "Less is more" ifadəsidir. Qədim bir ingilis şeirindən götürülmüş bu söz alman memar Lüdviq van der Rohe ilə şöhrət qazanmışdır.

## Zen fəlsəfəsi və kapsullar

Tarixi məlumatları nəzərdən keçirdikdə bu qənaətə gəlirik ki, 60-cı illərdə Zen fəlsəfəsinin Qərbdə yayılmağa başlaması ilə minimalizmin ortaya çıxışı təsadüfi olmamalıdır. Hər nə qədər Qərbdə ortaya çıxması qəbul edilsə də, minimalist həyat tərzinin keçmişində bir az daha geriyə getdikdə Zen fəlsəfəsinə rast gəlirik. Zen buddizmin bir qolu olaraq Hindistanda doğulur, Çində kök salır və ardınca Koreyaya, oradan da Yaponiyaya keçir.

Yaponların sadəliyi və funksionallığı seçdiyini bilirik. Çox vaxt bir döşək, xalı və kiçik masadan ibarət evlərinin sadə dekorasiyası bir yana, dincəlmək istəyənlər üçün xidmət göstərən "kapsul otellər" belə tabuta bənzəyən bir otaq, ayaqüstü yemək yeri və paltarları təmizləmək üçün kiçik bir sahədən ibarət olur. Bu otellərin məqsədi müştərilərinə eyni səviyyədə sadə xidmət göstərməkdir. Yaponların az əşya ilə sadə yaşamalarının önəmli bir səbəbi də Zen fəlsəfəsi ilə yanaşı, sürəkli və şiddətli zəlzələlərin bu coğrafiyanın gerçəkliyi olmasıdır.

## Doğru bilinən yanlışlar

Minimalizm boş bir otaqda sadəcə bir xalı üzərində yatmaq, bir qaşıq və bir boşqabla,  yaxud paltar şkafında üç cür paltarla yaşamaq kimi qəbul edilsə də, elə deyil. Evdəki bütün əşyaları çıxarıb sonra tamamilə sadə və ağ

mebelli ultraağ Norveç evləri kimi döşəmək üçün bir yığın pul xərcləmək də qətiyyən deyil. İstehlaka qarşı çıxan bir cərəyandan belə bir təklif onsuz da heç gözlənilməz. Minimalizmə əşyaya az, insana çox dəyər vermək kimi də xülasə vermək olar.

## Nə üçün minimalizm?

Bu cərəyanı mənimsəyənlər sırf dəbdə olduğu üçün minimalizmin həyat fəlsəfəsi kimi seçilməsini istəmirlər. Onların fikrincə, minimalist həyat tərzini seçmək üçün müəyyən səbəblər var. Bunlardan ilki hədd-hüdud qoymaqdır.

“Həyatın, demək olar ki, hər sahəsində hüdudsuz variantlarla üz-üzə olan insan hüdudu olan seçimlər etməlidir.”

Həyatın, demək olar ki, hər sahəsində hüdudsuz variantlarla üz-üzə olan insan hüdudu olan seçimlər etməlidir. Bu səbəbdən sadələşmiş bir həyat seçim etməyi asanlaşdıracaq, gərəksiz vaxt və enerji itkisinə səbəb olmayacaq.

Digər bir səbəb isə stres hesab edilir. Gündəlik həyatımızda hər şeyi vaxtında çatdırmaq stresi, sürəkli dəyişən dəb qarşısında iqtisadi stres, həddən artıq çox əşyanın arasında axtardığını tapa bilməmək stresi və s. Sadəlik demək stres mənbələrini qurutmaq deməkdir.

Başqa bir səbəb realist olmaqdır. İqtisadiyyatda istifadə edilən “Pareto prinsipi” burada nümunə kimi verilir. Bəs bu prinsip nədir? Buna 80-20% qaydası deyə bilərik. Pareto İtaliya mənbələrinin 80 faizinin əhalinin 20 faizinin əlində olduğunun fərqinə varır. Bu vəziyyətin həyatın

bir çox sahəsinə hakim olduğunu müşahidə edir. Məsələn, vaxtımızın 80 faizi tanışlarımızın 20 faizi ilə keçir. Gündəlik həyatımızın 80 faizində paltarlarımızın 20 faizindən istifadə edirik. Minimalistlər deyirlər ki, realist ol və "bir gün lazım olar" tələsinə düşmə, lazım olmayan şeyləri yığma, sadələş.

Qısa desək, dəbə uyğunlaşmaq üçün deyil, əşyaların əsiri olmamaq, kənardan sırınan bir həyat yerinə sadə bir həyat ilə sərbəstləşmək üçün minimalizmi həyat tərzi olaraq seçmək təklif edilir.

## Minimalizm hər yerdə

Minimalizm bütün diqqətini sadəcə əşyaya yönəldən bir cərəyan deyil. Yemək, geyim, ev əşyası, sosial şəbəkələr, münasibətlər, hobbilər, hədəflər kimi həyatın hər sahəsində sadələşmənin əhəmiyyətini vurğulayır. "Təqdim edilən hər yeməyi yeməyə məcbur deyilsən, süni və qeyri-sağlam qidalara  ehtiyacın varmı, yeməsən nə itirərsən" kimi suallar verilir.

Sosial şəbəkələrdə istifadə olunmayan hesabları bağlamağı, heç bir faydası olmayan insanları izləməyi buraxmağı təklif edir. Hər an dəyişən dəb qarşısında iradəli davranmağı, vitrində görünən hər paltarı almamağı, paltar şkafını "filan yerdə geyinərəm, filan tərzdə məclislərə gedəndə taxaram" deyilən, amma heç işlədilməyən əşyalarla doldurmamağı tövsiyə edir.

Bir gün lazım olacağı düşüncəsiylə saxlanılan əşyaların əslində heç vaxt lazım olmadığını, lazım olduqda da qarışıqlıqda tapılmadığı üçün işlədilmədiyini xatırladır. İnsanın onu yoran, tükəndirən, enerjisini alan münasibətləri

davam etdirməyə məcbur olmadığını deyir. Hobbi olaraq müəyyənləşdirilən, zövq alınan işləri, necə deyərlər, ələkdən keçirməyi, ani həvəslərlə hərəkət etməməyi təlqin edir.

Bəli, minimalizm həyatın hər sahəsində deməyə sözü olan, varlığın məğzini müdafiə edən bir cərəyan olaraq son zamanların ən populyar cərəyanlarından biridir.

## Qərar yorğunluğu

Qərar vermə yorğunluğu insanın qərar verməli olduğu mövzuların sayı artdıqca və qərar vermə müddəti uzandıqca verdiyi qərarların keyfiyyətinin düşdüyünü açıqlayan bir psixoloji ifadədir. Minimalizmi mənimsəyənlər gündəlik həyatda sürəkli qərar verməyimizi tələb edən önəmsiz və ya ikinci dərəcəli önəmə sahib olan şeyləri yavaş-yavaş həyatımızdan uzaqlaşdırmalı olduğumuzu müdafiə edir. Başlanğıc nöqtəsi isə adətən qarderoblar olur. Havanın vəziyyəti, iş, gəzinti, şərait, qohumlar, ailə kimi amilləri nəzərə alaraq hər gün nə geyinəcəyinə qərar vermək insan ömrünün ciddi bir hissəsini alır. “Kapsul qarderob” adı verilən, bir-birinə uyğun gələn rəng və tərzlərdə, uzun müddət “onu buna uyğunlaşdırsam” dərdi olmayan bir qarderobu təklif edir. Stiv Cobs, Bill Qeyts, Mark Zukerberq, Barak Obama kimi məşhurlar kapsul qarderobdan istifadə edərək ən azından bu sahədə qərar vermə yorğunluğundan qurtulurlar.

Burada da “1% yaxşılaşma” adı verilən metodu təklif edirlər. Yəni hər gün 1% dəyişikliyi hədəfləyərək uzun müddətə hədəfə çatmaq. Millimetrik addımların nə işə yaraya biləcəyini demədən tətbiq edilərsə, ciddi dəyişikliklə-

rin ortaya çıxacağının dünyada bir çox nümunəsi olduğunu ortaya qoyurlar.

## Hazırda dünyada minimalizm niyə bu qədər diqqəti cəlb edir?

Çünki insanlar ruhlarını tükəndirən istehlakdan yoruldu. Kapitalizmlə birlikdə bitib-tükənmək bilməyən reklamların təsiri altında qalaraq ən lazımsız şeyləri belə ehtiyacı varmış kimi qavrayır. İllərdir xoşbəxtliyi alış-verişdə axtaran, lakin alış-veriş etdikcə ruhunda boşluqlar yaranan, o boşluğu doldurmaq üçün yenidən istehlaka yönələn, sonra yenə doyumsuzluq yaşayan insan təkrarlanan mənfiliklər çarxının içinə düşüb.

> Stiv Cobs, Bill Qeyts, Mark Zukerberq, Barak Obama kimi məşhurlar kapsul qarderobdan istifadə edərək ən azından bu sahədə qərar vermə yorğunluğundan qurtulurlar.

Müasir həyat böhrana girdikcə xərcləyən, xərclədikcə böhrana girən bir insan modelini ortaya çıxardı.

Maddi şeylər içində boğulmağa başlayan, həyat sahəsini anbara çevirən insan sadəliyi, sakitliyi, az və əsas olanın həsrətini çəkdiyi üçün minimalizmi bir çıxış olaraq gördü deyə bilərik. Dincliyi, dolayısı ilə rahatlığı minimalist yaşama fəlsəfəsini mənimsəməkdə tapdı. Çünki minimalizm ehtiyacın olmayan şeyi sırf almağa məcbur hiss etdiyin üçün almamağı tövsiyə edərək zorla sırınılan

anlayışa qarşı fərqli bir şeyi məsləhət gördü. Bir növ əşyanın dustaqlığından çıxmağın yolunu göstərdi.

## Diqqəti cəlb edən iki minimalist və bir neçə sənədli film




Minimalizmdən bəhs edərkən bu iki adı xatırlamadan keçmək olmaz. Joshua Fields Millburn və Ryan Nicodemus. Yüksək gəlirlər əldə edən, şirkətlərə məsləhətçilik edən bu şəxslər minimalizmlə tanış olurlar və həyatlarını tamamilə dəyişdirirlər. Amerikanı gəzərək minimalizmdən danışırlar. Bu sahə üzrə kitablar yazırlar. "Minimalizm – mənalı bir həyat" kitabı da bunlardan biridir. Qurduqları theminimalist.com saytı minimalizm macəralarını danışdıqları bir məcradır. Üstəlik, "Minimalizm" adlı bir sənədli film çəkərək istehlak alışqanlıqlarının doğurduğu problemləri həll etməyə yönəlmiş baxış tərzini göstərirlər.

İstehsal dəyəri, istehlak çılğınlığı, ucuz işçi qüvvəsi, istismar olunan əməklər və bunlara qarşı necə müqavimət göstərəcəyiniz barədə düşünürsünüzsə, bu sənədli filmlərə baxmağınızı tövsiyə edirik:

"Əl Cəzirə Türk"ün hazırladığı "Yaşasın alış-veriş" sənədli filmi müasir insanın niyə çılğınlıqla istehlak etdiyini ələ alır, bu gedişin nəticələrinin nələr ola biləcəyinə cavab verir.

“Story of Stuff” (Şeylərin tarixçəsi) resursların istifadəsini, istehsala keçidi, istehlak və yenidən istehsala qaytarmağı anladan sənədli filmdir.

“The True Coast” (Həqiqi qiymət) sənədli filmi ucuz işçi qüvvəsini, istismar edilən insan əməyini və bu qədər məhsulun necə bu qədər ucuz alına bilindiyi barədəki sualı cavablandırır.

Bu təkrarlanan mənfiliklər çarxından çıxmaq, sistemin bir hissəsi olmaqdan qurtulmaq üçün nələr edə biləcəyini düşünənlər isə “Minimalizm” sənədli filmini izləyə bilərlər.

## Nə dedi?

Faruk Günindi

**Sadə yaşamaq maddi bağlarla aramıza məsafə qoymaqdır**

Minimalizm, yəni sadəçilik cərəyanını araşdırarkən Türkiyədə bu sahədə insanları maarifləndirmək üçün ciddi əmək sərf edən qərb minimalizminin əksinə, Qurana istinad edən Sadə Həyat Dərnəyini gündəmə gətirməmək olmaz. Dərnəyin sədri Faruk Günindi dunyabulteni.com saytına verdiyi müsahibədə "Sadə həyatın tərifini verə bilərsinizmi" sualına bu şəkildə cavab verir:

"Bizlər maddi bağlarla dünyaya qeydiyyata düşmüşük. Sahib olduqlarımızla özümüzü bu aləmə aid hiss edirik. Lakin nə qədər çox sahib olduğumuzu hiss etsək, əslində, bir o qədər onun əsiri oluruq. Sadə yaşamaq bu maddi bağlarla aramıza məsafə qoymaqla başlayır. Ehtiyaclarımızı yenidən gözdən keçirərək sahib olmalı olduqlarımızı yenidən araşdırırıq. Üstəlik, sadə yaşamaq mənəvi ağırlıqlardan da qurtulmaqla olur. İnsanın əsas qayəsini unutmaması lazım gəlir. Əsl xoşbəxtliyə çatmaq üçün mənliyin göstərdiyi istiqamətdə getmək yerinə onu islah edib bu mənəvi yüklərdən qurtulması, aza qane olmağı, əlində olana şükür etməyi, hətta başına gələnə razı olmağı və səbir etməyi öyrənməsi lazımdır. Bunlar hər zaman və hər yerdə insanın qəlbinin doyması, qane olması üçün gərəkli şeylərdir".

## Xülasə, nəticə olaraq

Baş verənlərin ən sonda mühafizəkar baxışa bağlanması hər nə qədər dəbdən düşmüş bir şey kimi görünsə də, hadisələri, fikirləri və cərəyanları İslam süzgəcindən keçirməyi biz müsəlman şəxsiyyətimizə gərəkli bir şey kimi görürük.

Kapitalist sistemə könüllü, yaxud könülsüz kölələk edən müasir insana minimalizmin sevinc gətirdiyi aşkardır. Qərbdə ortaya çıxması və bütün dünyaya yayılaraq dəbə çevrilməsi istehlakdan doymuş, hüzur axtaran insanlar üçün sevindirici haldır.

## Samanlıqda itirdiyini meydanda axtarmaq

Müsəlman olaraq samanlıqda itirdiyini meydanda axtarmaq kimi bir zəifliyimiz var. Minimalizm məsələsində də vəziyyət belədir. Qədim mədəniyyətimizə baxdıqda sadə yaşamaq üçün o qədər çox arqument var ki. Üstəlik, tətbiq olunacağı təqdirdə sadəcə bu dünyada deyil, o biri dünyada da səadət gətirəcək keyfiyyətdədir.

Allah Rəsulunun həyatı bu mənada da ən gözəl nümunədir. Məsələn, Həzrət Ömərin şahid olduğu Rəsulullahın üzündəki həsir izləri. Daha bir nümunə "Sizdən kim nəfsindən əmin, bədəni səhhətli və gündəlik yeməyi də mövcuddursa, sanki dünyalar onun olmuşdur" hədisi-şərifidir. "Adəm övladının üç şeydən başqa (əsas) haqqı yoxdur: İqamət edəcəyi bir ev, ədəb yerini örtəcəyi bir paltar, yavan çörək və su" hədisi-şərifini də misal gətirə bilərik.

Təsəvvüf ənənəmizdə zöhd anlayışını ehtiva edən “bir loğma, bir xirqə” prinsipi vardır. Bu əsasən bir ölçüdür. İnsana ehtiyaclarına bu ölçüyə görə hədd qoymasını və xəyali ehtiyacların arxasınca qaçmamağı tövsiyə edir. İsraf iqtisadiyyatı yerinə ehtiyac iqtisadiyyatını təşviq etməkdə olub ehtiyacları nəzarət altında saxlamağı təlqin edir. Tənbəlliyə deyil, həqiqi ehtiyaclarından qalanını başqalarına xərcləməyə yönəldir.

## Ənənəvi sadəlik – Qərb minimalizmi

Son zamanlarda *YouTube* kanalları arasında minimalist həyat haqqında məlumatlar verən, sadələşmək üçün metod və yollar göstərən kanalların geniş yayıldığı aşkardır. Bu kanallardan birində Qərb minimalizmi ilə Anadolu insanının sadə həyat anlayışı müqayisə edilir. Bu müqayisədə Anadolu insanının qədim dəyərlərinə bağlılığından daha çox tez-tez baş verən müharibələrə görə yoxsulluq içində olduqları üçün sadə yaşadıqları fikri müdafiə edilir. Yəni Anadolu camaatının şəxsi seçiminə görə deyil, məcbur olduğu üçün sadə yaşadığı deyilir. Əlbəttə, bu iddianın öz içində açıqlaması vardır. Lakin hər nə qədər yoxluqla imtahan edilsə də, çətin günlər görsə də, Anadolu insanının kodlarında qənaətcil olmaq, israf etməmək, aza qənaət etmək, nemətin bərəkəti üçün şükür etmək vardır.

Bu gün kapitalizmlə birlikdə zehinlər bulanıqlaşsa da, “Anadolu müdrikliyi”nin qalib gələcəyinə, insanlarımızın mayasındakı ayıqlığı qoruyacağına inanırıq.

> “Biz bilirik ki, “bir az böyük ölçülü alaq, gələn il də geyinər” deyən, eyni paltarla üç uşaq böyüdən analarımız hələ də buradadır.”

Biz bilirik ki, “bir az böyük ölçülü alaq, gələn il də geyinər” deyən, eyni paltarla üç uşaq böyüdən analarımız hələ də buradadır. Geyindiyi paltar köhnəldikdə əvvəlcə döşəkcə üzü, sonra toz əskisi, ən axırda da döşəmə əskisi edən nənələrimiz hələ də yaşayır.

Bir atalar sözü var: Quyuya su tökməklə quyu dolmaz, gərək quyunun özündə olsun. Şadıq ki, bizim quyumuza su kənardan tökülərək dolmur, özündəndir. Çağlamağa, əsrləri aşmağa davam edəcək.

# NARSİZM

Məndən gözəli varmı bu dünyada?

"İnsanın bütünlüklə yetkinləşə bilməsi üçün həm fərdi, həm də ictimai narsizmdən qurtulması lazım gəlir".

**Erix Fromm**

## Narsizm nə deməkdir?

Dilə asan gəldiyi üçün adətən "narsizm" kimi ifadə edilən sözün əsli "narsisizm"dir. Bu məfhumun mənasına baxdıqda isə bir çox tərifi olmaqla bərabər "insanın özünü eşq dərəcəsində sevməsi, eqosunu ucaltması, varlığını hər şeyin üzərində tutması" mənaları qarşımıza çıxır. Xalq arasında "özündənrazılıq" kimi qəbul edilən narsizmin populyar psixologiyadakı adı isə "özünü üstün bilmə xəstəliyi"dir.

Məfhumun mənşəyini araşdırdıqda yunan mifologiyasında bəhs edilən bu hekayə ilə qarşılaşırıq: Narkissos adlı gənc özünə aşiq olur və suda əks olunan surətini qucaqlamaq istəyərkən boğularaq ölür. Narsist kimi tanıdılan şəxslərdə də eynilə Narkissos kimi özlərinə heyran olma xəstəliyi vardır. Narsizm məfhumunu bu əfsanədən ilhamlanaraq ilk işlədən şəxsin isə Freyd olduğu deyilir.

## Narsistlərin xüsusiyyətləri

Narsizm əsasən şəxsiyyət pozğunluğudur. Narsist şəxsiyyətlərdə xudbinlik, eqoizm, özünü üstün tutmaq xəstəliyi məfhumları ilə ifadə olunan halların hamısını əhatə edən xüsusiyyətlər mövcuddur. Təkəbbürlüdürlər. Özlərindən başqa kimsə veclərinə olmur. Həmişə almağı sevirlər, verməyi sevmirlər. Daim diqqət mərkəzində olmaq

istəyirlər. Qarşısındakının hisslərini anlamaq qabiliyyətləri yoxdur. Tənqidə açıq deyillər. Məşhur, varlı və cəmiyyətdə yüksək səviyyədə olmaq kimi xəyalları vardır.

## Digər insanlarla münasibətləri

Öz mənfəətlərini güddükləri zaman təvazökar olurlar və bu rolu çox gözəl oynayırlar. Ancaq elə ki xeyir güdəcəkləri bir şey qalmadı, amansız olurlar. Praqmatik şəxslərdir. Yaxşılıq və fədakarlıq etməzlər, lakin özünü göstərmək məqsədilə bəzən kiçik yaxşılıqlar edərlər. Uzaqdan nəzakətli görünsələr də, yaxın münasibətdə olduqları insanları incidərək əzab verərlər.

> “Sənətçilər, siyasətçilər, akademiklər, sahibkarlar, rəhbər vəzifəlilər və iş adamlarında narsizmə daha çox rast gəlinir.”

## Əhvali-ruhiyyələri

Olduqları hər yerdə özlərini sübut etməyə çalışarlar. Başqa bir avtoritetin olduğu yerdə özlərini təhlükəsizlik içində hiss etməzlər. Onları xoşbəxt edən şey daim təriflənməkdir. Başqalarının onlara xüsusi münasibət göstərmələrini, daha fərqli davranmalarını gözləyirlər. Fəzilət, heysiyyət, şərəf kimi dəyərlərin fərqinə varmırlar.

## Daha çox kimlərdə rast gəlinir?

Sənətçilər, siyasətçilər, akademiklər, sahibkarlar, rəhbər vəzifəlilər və iş adamlarında narsizmə daha çox rast gəlinir.

## Həqiqi narsizm – passiv narsizm

Narsistləri iki qrupa ayırmaq mümkündür. Birincisi həqiqi narsistlərdir, bunlar yuxarıda bəhs etdiyimiz qrupa daxildirlər. İkinci qrupu isə əslində narsist olmadığı halda, narsistik özünümüdafiə və davranışlarla həyatda özünə yer etməyə çalışan şəxslər təşkil edir. Cəmiyyətdə dəyər görməyən şəxslər özlərini xarici görünüşləriylə qəbul etdirmək istəyirlər. Lakin nə qədər çalışsalar da qane ola bilmirlər, daim sanki nəyinsə çatışmadığını hiss edirlər. Passiv narsistlər həqiqi narsistlərə nisbətən terapiyadan daha yaxşı nəticə əldə edirlər.

## Etnik narsizm

Fərdi narsizmdə şəxsin özünü üstün görməsi diqqəti cəlb edirsə, etnik/ictimai narsizmdə insanın mənsub olduğu irqi üstün görməsi, digərlərindən fərqləndirməsi tipik haldır. Hitler və sionist yəhudilərin missiya olaraq mənimsədiyi rəftar etnik narsizmə aiddir.

## Qlobal narsizm

Narsizmə şəxsiyyət pozğunluğu kimi tərif verilsə də, cəmiyyət içində yayılaraq bir həyat tərzinə çevrilir. Qlobal narsizm deyildikdə ağıla gələn ilk nümunə ABŞ cəmiyyəti olur. Dünya əhalisinin 5 faizini təşkil etdikləri halda, dünya mənbələrinin 25 faizini istehlak edirlər. Yəni hər bir ABŞ vətəndaşı ümumən dünyadakı beş nəfərin istifadə etdiyi məhsulu, yaxud xidməti istehlak edir.

## Fərdi kampaniyalar, fərdi inkişaf kitabları narsizmi bəsləyir

Kapitalizmi əks etdirən şeylərdən biri olan fərdi kampaniya deyilərkən nəzərdə tutulan budur ki, şəxsi əşyalar, telefon şirkətlərinin "məhz sizə məxsus" deyərək tətbiq etdiyi paketlər, "ən yaxşı avtomobilə layiqsən" deyən reklamlar insanın özünə verdiyi mənanı bambaşqa ölçülərə daşıyır. Fərdi inkişaf kitablarının "sən xariqüladəsən, sən çox güclüsən" tərzli üslubu insanın mənliyini qabardaraq narsizmi qüvvətləndirir.

## Professionallarda narsizm

Liderliklə narsizm iç-içə keçmiş bir quruluşdadır. Liderlərin bir az narsist olmasının vacibliyi istiqamətində fikirlər mövcuddur. Salim Atayın *"İşləyən narsist" – təşkilatlar, liderlər, idarəçilər və yüksək vəzifəlilər"* adlı kitabının arxa cildində yer alan narsistlərlə bağlı bu ifadələr diqqəti cəlb edir:

"Dünyanı dəyişdirəcək, məna verəcək vizionlarıyla özlərinə və bütün cəmiyyətə yol açmağa, "müstəqil düşünmə və risk edə bilmələriylə" uğurlu təşəbbüslərə, "ehtiraslı və xarizmatik" olmalarıyla insanları ətraflarında toplamağa, "əzm və bitmək-tükənmək bilməyən öyrənmə motivasiyalarıyla inkişaf etməyə, istehsal etməyə, "təhdidlər qarşısında tətikdə durmalarıyla" sürəkliliyə və qalıcılığa,

> Fərdi inkişaf kitablarının "sən xariqüladəsən, sən çox güclüsən" tərzli üslubu insanın mənliyini qabardaraq narsizmi qüvvətləndirir.

"yumor hissləri" ilə xoşbəxtliyə vasitəçilik edə biləcək potensiala sahibdirlər".

Bir növ bu yanaşma mənfi xüsusiyyətləri faydalı işlərdə istifadə etmək kimi dəyərləndirilə bilər. Lakin narsist liderlər qurumun imkanlarını öz eqolarını böyütmək və güclərini inkişaf etdirmək üçün istifadə etdiklərindən, qalıcı bir qurum mədəniyyəti yarada bilməyəcəklər. Sabit qurumların liderlərinin təvazökar olduqları isə önəmli təsbitlərdən biridir.

## Kədərli son

Narsist professionalların sonunu ABŞ-da böyük firmaların CEO-larına (icra heyəti sədri) baxaraq görmək mümkündür. Bu idarəçilər çox böyük gəlirləri olan, mühüm qərarlar verən, mühafizəçilərlə gəzən, görüş təyin etmək belə qeyri-mümkün olan şəxslərdir. Təsbitlərə görə, bu CEO-ların 50 faizi təqaüdə çıxdıqdan sonra infarkt keçirir. Böyük bir qismi həyatını itirir. Təqaüdə çıxmaqla eyni zamanda sahib olduqları imkanları bir anda itirən idarəçilər boşluğa düşür və bu hal onlarda böhrana səbəb olur. Buradan da anlayırıq ki, insan iş əzmi ilə təvazökarlığı birləşdirə bilsə, hansı mövqedə olursa olsun, həyatını doyumlu bir halda keçirə bilər.

**NƏ DEDİLƏR?**

Erol Göka

**Narsist**

Erol Gökanın yenisafak.com-da yayımlanan 3 iyun 2018-ci il tarixli “Narsist” başlıqlı yazısında bu cümlələr diqqəti cəlb edir: Narsistik şəxsiyyət patologiyaları xüsusilə hazırkı dövrümüzdə çox vahiməli misallarını gördüyümüz mədəni narsizm ilə də bir və eyni deyil. Şübhəsiz, narsizm mədəniyyəti nə qədər güclüdürsə, narsistik şəxsiyyət pozğunluğunun görünmə ehtimalı da o qədər artır amma yenə də ikisinin arasında fərq qoymağa məcburuq.

“Təkəbbür belə bağlanmış daş kimidir. Onunla nə üzə, nə də uça bilmək olur (Hacı Bayram Vəli) – deyə inanılan, qürur və təkəbbürün, insanlara, ən çox da Yaradanımıza qarşı üstün və mükəmməlmiş kimi davranışların yerlə-yeksan edildiyi inanc və mədəniyyətin hakim olduğu dairədə yaşayırıq. Əlbəttə, xüsusilə müasir zamanlarda bu dairənin mədəniyyətə aid olan hissəsinə çirkli sular sızdı.

Qədim zamanlarda buralarda “ənayi” deyərkən “ənə”-sinə (“ənə” sözü ərəbcə mən mənasını bildirir – tərc.) saplanıb qalmış, xudbin, özünü bəyənmiş insan nəzərdə tuturdusa (Övliya Çələbi, Səyahətnamə, 1680), bu anlayış getdikcə tam əksinə çevrildi, artıq bir müddətdir xudbin olmayanları, fürsətdən istifadə etməyə çalışmayanları belə çağırmağa başladıq.

“Sən mənim kim olduğumu bilirsənmi?” deyənlər, şübhəsiz, əvvəllər də vardı, xüsusilə əsil-nəcabətə düşkün olan, həddini bilməyənlər belə deyər, öz aləmlərincə lovğalanardılar. Bu günlərdə isə hər kəsin “sən mənim kim olduğumu bilirsənmi?” demək üçün özünə görə bir səbəb tapdığını müşahidə edirik.

NƏ DEDİLƏR?
Kemal Sayar

**Narsizm və səmimi özünəinam ayrı şeylərdir**

Psixiatriya üzrə professor Kemal Sayar narsizm və özünəinamı bir-birindən ayırmanın vacibliyini 6 yanvar 2015-ci il tarixli "Bir narsisti tanımaq" başlıqlı sosial media paylaşımında bu şəkildə ifadə edir:

"Hər özünə inamı yüksək olan insanın narsistik bir təbiətə sahib olduğuna dair bir qayda yoxdur. Özünəinamlı təbiətə sahib olan insanlar eqoları təhdid altında olunca əskik cəhətlərini aqressiv şəkildə ört-basdır etməyə çalışmırlar. Uğursuzluqlarını, limitlərini və səhvlərini qəbul etməkdə çətinlik çəkmirlər və bu uğursuzluqlarla qarşılaşınca qəzəblənərək xəcalətli şəkildə reaksiya vermirlər. Doğru bir iş gördükdə və tərifləndikdə üzlərinə saxta təkəbbür maskası taxmaq yerinə daha səmimi bir fəxarət, özünə inam və hörmət hissini nümayiş etdirirlər".

## NƏ DEDİLƏR?

Nevzat Tarhan

**Selfi şəxsiyyət zəifliyinə yol açır**

Üsküdar Universitetinin rektoru psixiatr Prof. Dr. Nevzat Tarhan öz veb saytında 14.04.2014-cü il tarixli yazısında gündəlik həyatın bir hissəsinə çevrilən selfi çəkməyin psixiatriya baxımından da dəyərləndirilə biləcəyini deyir. Bir insanın hər davranışını lentə alaraq selfi çəkməsini narsistik bir doyum kimi şərh edir.

Nevzat Tarhan bir insanın xüsusi günlərində selfi çəkməsinin xəstəlik kimi qəbul edilmədiyini, ancaq hər vəziyyətində selfi çəkmək ehtiyacının mənmərkəzçiliyi təşviq etdiyini deyir. Narsistik şəxsiyyət pozğunluğu olanların selfiyə daha çox meyilləndiyini bildirən Tarhan hər şeydə olduğu kimi bunda da ifrata varmamağı məsləhət görür.

“

**NƏ DEDİLƏR?**

*Vehbi Bayhan*

**Sosial şəbəkələr narsist edir**

İnönü Universitetinin sosiologiya fakültəsinin müəllimi Vehbi Bayhanın 15 min 496 universitet tələbəsi ilə apardığı araşdırma 12 yanvar 2017-ci il tarixində aljazeera.com ünvanında xəbər kimi yayımlandı. Araşdırmaya görə, sosial şəbəkələr gənclərdə “narsistliyə meyilliliyi” artırır.

Bayhanın fikrincə, narsizmin yüksək mərhələsi “biz və başqaları” ayrı-seçkiliyini dərinləşdirərək irqçiliyə yol açır. Bu düşüncələrini isə aşağıdakı sözlərlə ifadə edir: “Mənim millətim öndədir, mənim millətim gözəldir, başqa ölkələr önəmli deyil” deməyə başladıqda söhbət irqçiliyə doğru yol alır. Donald Trampın iqtidara gəlişinə bir baxın, meksikalılara, müsəlmanlara qarşı ayrı-seçkilik edərək, başqaları gözüylə baxaraq qalib gəldi. Fərdi narsizm ictimai narsizmə doğru yüksəldiyi zaman problemlər yaranır. Fərdi narsist ictimai narsist olmağa hazır olan bir şəxsiyyətdir”.

Bayhan sosial şəbəkə istifadəçilərinin baş verənləri qaçırmamaq qorxusunun və sürəkli başqalarının istehsal etdiklərini izləməyin yaradıcılığı öldürdüyünü hesab edir. Üstəlik, izləyici və bəyənmə saylarını artıraraq narsist şəxsiyyətlərini doyurduqlarını bildirir.

”

**Nə dedilər?**
*Mustafa Merter*

**Sən Həzrət İnsansan, amma sadəcə "potensial" olaraq**

Mustafa Merterlə "Gənc" jurnalının 53-cü sayında narsizm haqqındakı müsahibədə ona belə bir sual verilir və baxın necə cavab verir:

-Təhsil sisteminin uşaqlarımızda xudbinliyi artırdığını deyə bilərikmi?

Jan Tveng "Əsrin vəbası: narsizm xəstəliyi" kitabının 164-cü səhifəsində:

-"Biz çox böyük bir səhv etdik. Uşaqlara əvəzini ödəmədən "sən çox özəlsən" deyib hər şeyi verməyə başladıq. Nəticədə bu nəsil ortaya çıxdı" deyir. Bizim müasir (!) tədris işçilərimiz Amerikanı 20-30 il geridən təqib etdiyi üçün təhsilə qeyd-şərtsiz qəbul prinsipini ciddi-cəhdlə tətbiq etməyə çalışırlar. Allah rizası üçün, insanlar bu cür xəbərdaredici kitabları açıb oxusunlar. Görəcəklər ki, Amerikanın illər öncə etdiyi səhvləri biz bu an təkrarlayırıq. Müəllimlər uşaqlardakı dəyərsizlik və özünü başqalarından aşağı hiss etməni düzəltmək üçün "sən çox gözəlsən, çox dəyərlisən" kimi sözlərlə təskinlik verirlər. Amma gözəllik, yaxud yaxşılıq havayı deyildir. Bəli, sən Həzrət İnsansan, lakin sadəcə "potensial" olaraq eləsən.

**NƏ DEDİLƏR?**
Mehmet Lütfi Arslan

**Yollar "mən" deməyənə açılmaz**

Narsizmi araşdırdıqda mənliyi mərkəzə qoymağın güc və özünəinam iddiası olduğunu görürük. Və bu vəziyyətin ifrat həddə çatdığı zaman nələrə başa gələcəyini araşdırdıq. İnsanın mənliyinin fərqinə varmasını, varlığını sorğu-suala tutmasını fərqli bir baxımdan araşdıran Mehmet Lütfi Arslan "Gənc" jurnalının 2012-ci ilin dekabr sayında yer alan "Mənliyinin fərqinə varana yollar açılır" başlıqlı yazısındakı bu sətirləri paylaşmasaq, bu yazıda mühüm bir əskiklik olacaqdı.

"Yollar "mən" deməyənə açılmaz. Çünki mənliyin fərqinə varmaq varlığımızın qayğısına qalmaq deməkdir. Bu qayğı bizim Yaradan ilə qovuşduğumuz o şərəfli məclisdə ruhlarımızda hiss etdiyimiz "O və biz" fərqinin bir təzahürüdür. Qayğıdan qurtulmanın yolu əvvəlcə kim və nə olduğumuzu idrak etməkdir. Bu idrak Onu da idrak etmək anlamına gələcək bir qapını aralayar, çünki nəfsini tanıyan Allahını tanıyar".

## Xülasə, nəticə olaraq

Narsizmi ümumi cizgiləriylə araşdırdıqdan sonra anlayırıq ki, insanın özünü bütləşdirmə dərəcəsində ucaltması nə özünə, nə də ətrafına fayda gətirir. Əksinə, sağalmaz yaralar açır. İslam dininin təriflədiyi insan modelinə baxdıqda dürüstlük, fədakarlıq, dözümlülük, izzət, heysiyyət, cəsarət, təvazökarlıq, canıyananlıq və daha bir çox gözəl xislətin bir araya gəldiyini görürük. Bugünkü dünyamızda modernizm, kapitalizm, sekulyarizm kimi cərəyanların əl-ələ verərək sırıdığı insan prototipinə baxdıqda isə xudbinlik, hərislik, acgözlük, zalımlıq, təkəbbürlülük, fitnəkarlıq, mənfəətpərəstlik kimi xüsusiyyətləri görürük. Yaradılışında hər iki potensialı daşıyan insan özünə və bütün cahana gətirəcək dəyərlərin insani dəyərlər olduğunu xatırlamağa məcburdur.

Bu xəstəhal ovqatla sadəcə özünü düşünən insanlar zaman keçdikcə tənhalaşır.

Hansı mövqedə olursa olsun, sadəcə öz mənfəətini düşünən şəxslər insanlıq şərəfini zədələyir. İstər ətrafımızdakı kiçik münaqişələrə, istərsə də dünyanın müxtəlif bölgələrində aparılan müharibələrə baxdıqda bu mübarizənin əsas səbəbinin xudbinlik və mənfəət olduğunu görürük. Müsəlman kimi öhdəmizə düşən isə şəxsi, yaxud qövmi mənfəətlər arxasınca düşmədən bütün cahanı bürüyəcək hüzurun yaranmasına səy göstərməkdir. Elə bir səy ki, ani həvəslə hərəkətə gəlib

> “Elə bir səy ki, ani həvəslə hərəkətə gəlib kiçik bir əngəldə geriyə doğru addım atmayan, sabit bir səy olsun.”

kiçik bir əngəldə geriyə doğru addım atmayan, sabit bir səy olsun.

Narsizm İslamın əsaslarından olan tövhidə ziddir. Tək və mütləq qüdrət Allahındır. İnsan bunu bilməsə, zaman keçdikcə hər şeyi özündən bilər. Qurani-Kərimin Furqan surəsindəki bu ayəni gündəmimizə yenidən gətirək: "Nəfsani arzularını ilahlaşdıran kimsəni gördünmü? Onu sənmi qoruyacaqsan?"

**Kitab tövsiyəsi**

Jan Tveng.

*Əsrin vəbası: narsizm xəstəliyi*




**Məşhur narsistlər**

Napoleon Bonapart, Adolf Hitler, Madonna, Mussolini, Kleopatra, Nəmrud, Firon, Stalin.

# ORİYENTALİZM

İstismarçılığın kəşf qolu

“Oriyentalizm əsl Şərqi deyil, şərqşünasların görmək istədikləri Şərqi əks etdirir”.

**Edvard Said**

## Oriyentalizm nədir?

Oriyentalizm məfhumunun mənşəyini araşdırdıqda latın dilində "günəşin doğuşu" mənasına gələn "oriyens" kəlməsi ilə qarşılaşırıq və şərq ilə bağlı, coğrafi olaraq şərqi göstərdiyini anlayırıq.

Məfhum olaraq "müsəlman şərq mədəniyyətinin din, dil və ədəbiyyatını içinə alacaq şəkildə bütün ünsürlərini tədqiq edərək İslam dünyası haqqında qərblilərin sistemli bir məlumata sahib olmalarını təmin edən, İslam və Qərb mədəniyyəti arasındakı mübarizədə Qərb sivilizasiyası lehinə məlumatlar əldə etməyə çalışan bir cərəyan" şəklində tərif verilir. Oriyentalizmə ərəb dilində "istişraq", oriyentalistə isə "müstəşriq" deyilir.

## Adı lazım deyil

Oriyentalist adlandırılmaq ilk zamanlar o şəxsi qürurlandıran vəsfedici kəlmə ikən, oriyentalizm sözünün məna dəyişikliyi nəticəsində bu kəlmə artıq üstün tutulmur. Qərb cəmiyyətlərinin şərqi hakimiyyəti altına almaq üçün gördüyü işlər səbəbiylə bu sözün tərifindəki məna dəyişikliyi uzaqlaşmanın ən önəmli səbəbidir. 1973-cü ildə Parisdə təşkil edilən 29-cu Beynəlmiləl Oriyentalistlər Konqresində etiraz edənlər olsa da, oriyentalist məfhumunun işlənilməməsi rəsmi olaraq qəbul edilmişdir. Bununla yanaşı,

konqresin adı da "Şimali Afrika və Asiya üzrə Beynəlmiləl Humanitar Elmlər Konqresi" olaraq dəyişdirilmişdir.

## Məfhumu tərs üzünə çevirən şəxs: Edvard V. Said

Bu ad dəyişikliyində Edvard Saidin rolu çox böyükdür. Onun *"Şərqşünaslıq"* adlı əsərindən sonra oriyentalizmə yüklənən mənfi mənalar artmışdır. Cəmil Meriçin "Bu kitabı biz yazmalıydıq" dediyi və "İstismarçılığın kəşf qolu" ana başlığını yenə Meriçin qoyduğu bu kitabdan irəli gələn neqativ təsirlərinə görə oriyentalistlər onlara "oriyentalist" deyilməsini istəmədilər. Yaxşı, bəs Edvard Said məfhumda necə bir məzmun dəyişikliyi etdi ki, oriyentalistlər bu adı belə daşımaq istəməyəcək vəziyyətə gəldilər?




"İstismarçılığın kəşf qolu" kitabının 15-16-cı səhifələrindəki "Oriyentalizm əsl Şərqi deyil, şərqşünasların görmək istədikləri bir Şərqi əks etdirir" cümləsi əslində Saidin məramını ifadə etməyə bəs edir. Lakin bu bir cümlə ilə kifayətlənməyərək Saidi bir az da dinləyək: "Oriyentalizm Şərq ilə məşğul olan kütləvi bir müəssisədir" deyərək tərif verir və davam edir: "Yəni Şərq haqqında hökmlər verir, Şərq haqqında gəlinən qənaətləri təsdiq edir, Şərqi təsvir edir, tədris edir, idarə edir. Xülasə, bu, Şərqə hakim olmaq, onu yenidən qurmaq, onun rəisi olmaq üçün Qərbin tapdığı bir yoldur".

## Tarixi proses

Oriyentalizmin başladığı tarixi dəqiqliyi ilə bildirmək mümkün olmasa da, bəzi araşdırmaçılar 1300-cü illərə qədər gedib çıxırlar. 1400-cü illərdən Ümid burnundan Asiyaya gediş yolunun kəşf edilməsi oriyentalist əsərlərə təsir göstərmişdir. 17 və 18-ci əsrlərdə səyyah və missionerlərin şərq səfərləri, ardınca coğrafi kəşflər, sənaye inqilabı, İslahat və İntibah kimi irəliləyişlər nəticəsində 19-cu əsrdə oriyentalist əsərlər partlayış həddinə çatmışdır. 19-cu əsrdə Qərbin dəyişən sosial, iqtisadi və mədəni quruluşu Şərqi tanımağı qəti bir zərurət olaraq qəbul etmişdir. Qərb sadəcə istismarçılıq əməlini deyil, müasirləşmə layihəsini həyata keçirmək üçün də Şərqi tanımağa məcburdur. O gündən bu günədək saysız-hesabsız məqalə, kitab, akademik tezislər yazılmış, universitetlərdə dərslər verilmişdir.

## Oriyentalizmin ortaya çıxma səbəbləri

**Dini səbəblər** arasında Həzrət Muhammədin peyğəmbərliyi haqqında və Qurani-Kərimin Allah kəlamı olmasına dair şübhələr oyandırmaq, hədislərin müsəlmanlar tərəfindən uydurulmuş sözlər olduğunu iddia etmək, islam fiqhini dəyərdən salmaq, ərəb dilinin anlaşılmaz bir dil olduğunu irəli sürərək nüfuzdan salmaq, İslamiyyətin yəhudi və xristian mənbələrdən bəslənərək ortaya çıxdığını iddia etmək kimi başlıqlar sayıla bilər.

**Ticari səbəblərə** baxdıqda sənaye inqilabı ilə bərabər xammal ehtiyacı və məhsul ixracatı üçün bazar axtarışında olan Qərb dünyasının Şərq xalqlarını və torpaqlarını dərindən və təfərrüatlı şəkildə tanıması lazım gəlirdi.

**Siyasi səbəblərə gəlincə** isə ilk olaraq istismarçılıq siyasətlərini gerçəkləşdirmək üçün Şərqi ən münasib yer kimi görürdülər. Xüsusilə müsəlmanların yaşadığı coğrafiyalar xəyallarındakı birdən çox məqsədi gerçəkləşdirmək üçün biçilmiş paltar idi. Bu bölgələr müstəmləkə halına gələrsə, müsəlmanlar gücünü itirər, üstəlik, birlik və bərabərlik pozular və müsəlman aləmi yeyilməsi asan olan yağlı bir tikəyə çevrilər.

## Məşhur oriyentalistlər

### İqnaz Qoldhzer

Macar əsilli yəhudi olan Qoldzher "Yəhudiliyin Quran üzərindəki təsiri" mövzusunda doktorantura işini hazırlamışdı. Məşhur əsərləri arasında "Təfsir məktəbləri" və "İslamda əqidə və şəriət" adlı əsərləri vardır. Qurani-Kərimin vəhyə əsaslanmadığını, İslamın Həzrət Peyğəmbər dövründə tamamlanmadığını, onun vəfatından sonra müsəlmanların islahatları ilə son şəklini aldığını, İncil və Tövratın da haqq kitablar olduğunu iddia edib. Qoldzherə görə, hədisi-şəriflər Həzrət Muhammədə aid sözlər deyil, müsəlmanlar arasında zaman keçdikcə yaranmış mətnlərdir. Onun fikrincə, İslam hüququ Roma hüququndan təsirlənmişdir. Qoldzher Əzhər universitetində dərs almışdır və o, İslamiyyət içində təsəvvüfün əhəmiyyətinin fərqinə varan ilk şəxs olaraq qəbul edilir.

### Ernest Renan

Ernest Renan filoloq, xüsusilə də sami dili tədqiqatçısıdır. Əsas tezisi əqli və nəqli qarşı-qarşıya gətirmək, onları müqayisə etməkdir. Əqlin nəqldən üstün olduğunu

İslam aləminə qəbul etdirməyə çalışmışdır. 1883-cü ildə keçirdiyi "İslam və elm" başlıqlı konfransında İslamın elm, mədəniyyət, təhsil və inkişafa əngəl olan bir din olduğunu iddia etmişdir. Namik Kemal "Renan müdafiənaməsi" adlı əsərinin 13-14-cü səhifələrində Renanın iddialarına cavab vermişdir. Kemalın Renan haqqında yazdığı bu cümlələr diqqəti cəlb edir: "İnkvizisiyanın pisliklərini tənqid edə-edə hər mənfiliyi dinə bağlayan və hər dinin eyni məziyyətdə olduğunu düşünüb vahiməyə düşən bir münkirdir. Üstəlik, haqqında danışdığı mövzunu heç bilmir. Soruşula bilər, necə olur ki, bir Şərq dilləri mütəxəssisi, akademiya üzvü İslamı bilməsin? Bilməz, avropalı Şərqi bilməz".

## Christian Snouck Hurgronje

Müasir şərqşünaslığın qurucularından, Avropanın yetişdirdiyi məşhur oriyentalistlərdən biridir. Ən çox diqqəti cəlb edən əsəri "19-cu əsrin ikinci yarısında Məkkə"dir. Bu əsərində müqəddəs torpaqlarda davam edən sosial və mədəni həyatı, gündəlik hadisələri müşahidə edərək təsvir edir. 1884-85-ci illərdə altı ayı Məkkədə, altı ayı Ciddədə olmaqla bir ilini müqəddəs torpaqlarda keçirmişdir. Bu məqsədlə adını dəyişdirərək Abdulqaffar qoymuşdur. "Məkkədə həcc mövsümü" adlı əsəriylə həcc ibadətinin cahiliyyə dövründən qalma bir adət olduğunu iddia edib. Onun iddiaları həcc və qurban müzakirələrinin əsl mənbəyi hesab edilir.

## Hamısını eyni tərəziyə qoymamaq lazımdır: Helmut Ritter

Alman oriyentalist Helmut Ritter orta təhsilini bitirdikdən sonra məşhur oriyentalistlər Karl Brokelman ilə Paul Kahledən dərs alıb. İstanbul Universitetində də dərslər verən, Şərqşünaslıq İnstitutunun qurulmasında öncül olan Ritter Türkiyədə müasir Şərq dilləri və elmi araşdırmalarının başlanğıcını qoymuşdur. Üstəlik, o illərdə Türkiyədə hədislə bağlı əsərlərə təsiri olmuşdur. M.Fuad Köprülü və İsmail Saib Sencer kimi mühüm simalar Ritterlə çalışıblar. Bizim diqqətimizi çəkən isə dünyaca məşhur tarixçi alimimiz Fuad Sezginin əsərlərində Ritterin həyati bir əhəmiyyətə sahib olmasıdır. Sezgini elm tarixinə yönəldən, fərqli dilləri öyrənməyə təşviq edən, hətta "gündə 14 saat çalışaraq elm adamı ola bilməzsən" deyərək daha çox çalışmaq əzmini verən Helmut Ritterdir. Ustad M. Esad Coşanın bir səs yazısında Ritterin əslində müsəlman olduğuna dair sətiraltı sözlər olsa da, bizə sadəcə qəlbləri bilənin Allah olduğunu demək düşür. Helmut Ritter kimi ümumən Şərqin elmini, xüsusən İslamiyyəti araşdırarkən uca dinimizə heyran qalaraq müsəlman olan, ya da müsəlman olmasa belə, əsərlərini missionerlik, istismarçılıq, ayrı-seçkilik kimi məqsədlərə "qurban" etməyən yaxşı niyyətli oriyentalistləri də görməzliyə vurmamalıyıq.

## Hollivud kinosu və oriyentalizm

Qərbin üstünlüyü, istinad nöqtəsi olması və Şərqin geridəqalmışlığı ilə aşağı səviyyəliliyi düşüncəsi üzərində inşa edilmiş olan oriyentalizm sadəcə yazılı mənbələrdə deyil, kino, fotoqrafiya, teatr kimi vizual sənətlərdə də özü-

nü göstərmişdir. Kinonun sırf əyləncə vasitəsi olmaqdan da artıq ictimai dərkə, düşüncə tərzlərinə təsir edən imic və simvolların cəmi kimi istifadə edildiyi hazırkı dünyamızda hər kəs tərəfindən qəbul edilir. Asudə vaxt keçirmə vasitəsi olmaqdan daha çox süjet xətti ideoloji məqsədlərlə qurulan göstəricilər vasitəsilə "mən" və "başqası" ifadəsi inkişaf etdirilmişdir. Hollivud kinofilmlərində də Qərbin öz üstünlüyünü, xilaskar missiyasını, ağlı təmsil etməsini Şərq ilə bağlı yaratdığı zorakılığa meyilliliyi, fantastik və hissi bir xəyal dünyasında yaşaması, şəhvət düşkünü olan tənbəl barbarlar imici ilə tanıtmasından söhbət gedir. Bir çox insanın həvəslə izlədiyi bu filmlərin o qədər də məsum olmadığını, həqiqəti əks etdirmək bir tərəfə dursun, əksini nümayiş etdirdiyinin fərqinə varmaq lazımdır. Bunun üçün də möhkəm bir təməl və sorğu-suala tutan bir zehinlə gördüyünü, eşitdiyini, oxuduğunu süzgəcdən keçirən ayıq bir diqqət tələb olunur.

"Asudə vaxt keçirmə vasitəsi olmaqdan daha çox süjet xətti ideoloji məqsədlərlə qurulan göstəricilər vasitəsilə "mən" və "başqası" ifadəsi inkişaf etdirilmişdir."

## Oriyentalizm və ayrı-seçkilik

Oriyentalist ifadəsinin ən mühüm ünsürü ayrı-seçkilikdir. Ayrı-seçkiliyin prinsipi isə özünü ucaldarkən qarşısındakını alçaltması, hətta şeytaniləşdirməsidir. Qərbin öz şəxsiyyətinin təşəkkül tapması üçün özünü mübtəda kimi tanıtması lazım gəlirdi və tamamlıq olaraq yerləşdirdiyi Şərqi oriyentalistlərin əliylə daha yaxından tanımalı idi. Bu yolla yaxşı olan hər şeyin özündə olduğu, pisin isə Şərqə aid olduğu barədəki düşüncələri yaradacaq məlumatları ortaya çıxartdı.

Şərq qeyri-realdır, durğundur, özünü ifadə edə bilmir, strateji düşüncə tərzinə sahib deyil, qəzəblə hərəkət edir, zorakılıq və şəhvətdən bəslənir. Üstəlik, Şərqin əsas mövqeyi cəhalətdən ibarətdir. Özünü təmsil edə bilməyən Şərq Qərb tərəfindən təmsil edilməli, yönləndirilməli və idarə edilməlidir. Qərb özünü "ağa" və "mədəni" kimi tanıdarkən ağalığını göstərmək üçün bir köləyə ehtiyacı vardı, bax o kölə də Şərq idi.

Özünü elə bir mərkəzdə görürdü ki, coğrafi mənada Qərb-Şərq fərqi, zamanın təyin olunması, mədəni ehtiyatına görə təqvimin müəyyənləşdirilməsi hər zaman bu mərkəzçiliyin əks olunmasıdır.

“

**NƏ DEDİ?**

*Lütfi Sunar*

**“Şərqşünaslığı” nə üçün yenidən müzakirə etməliyik?**

Mədəniyyət Universitetinin sosiologiya fakültəsinin müəllimlərindən və İLKE Fondu İdarə Heyətinin sədri olan Lütfi Sunar *“Beynəlxalq Oriyentalizm Simpoziumu”* kitabının 28 və 29-cu səhifələrində yer alan yazısında şərqşünaslığı nə üçün yenidən müzakirə etməli olduğumuzu iki maddə ilə qısaca belə izah edir:

“Birincisi, keçmişdə baş verənlər təsirləri və davamlılığı baxımından ötüb-keçmiş deyildir. Hələ üstəlik bu bir cəmiyyətin öz kimliyi və varlığı ilə əlaqəli məfhumlaşdırma və əsasları da özündə ehtiva edən şərqşünaslıq kimi bir sahədirsə, bu vəziyyət daha qabarıqdır. Bu gün şərqşünaslıq sadəcə bir arxa plan kimi deyil, eyni zamanda, bir düşüncə tərzi, metod, məfhumlaşdırma vasitəsi olaraq da varlığını davam etdirir. Hələ də şərqşünaslıqla bağlı məfhumlarla araşdırmalar aparılır və siyasətlər həyata keçirilir.

İkinci Dünya müharibəsindən sonra dünya siyasətindəki siyasi dəyişikliklərə görə fərqli bir şəkildə davam etdirilən və rəsmi səviyyədə tərk edilən şərqşünaslığın yenə siyasi dəyişikliklərlə bağlı olaraq 21-ci əsrin əvvəlində geri qayıtdığını görürük. Müəyyən dövrdə pərdəli bir şəkildə davam etdirilən şərqşünas baxışı artıq yavaş-yavaş pərdələrini atır və yenidən açıq bir şəkildə ortaya çıxır.

”

İkincisi, şərqşünaslıq adi bir imperiya münasibəti deyildir. O, xüsusi bir şəkildə müasir ictimai, iqtisadi və siyasi şərtlərlə əlaqəlidir. Tarix boyunca imperiyaların öz hakimiyyəti altında yaşayan xalqlara dair məlumat topladıqları bazalar olmuşsa da, bu öz kimliklərini yaratmaq üçün mütləq bir ayrı-seçkilik şəklində baş tutmamışdır. Şərqşünaslıq isə müasir Qərb cəmiyyətinin özünə xas səbəblərlə yaratdığı bir məlumat sahəsidir".

## “Xülasə, nəticə olaraq”

### Araşdırma faydalıdır – yaxşı niyyətli olduğu təqdirdə

Araşdırmaçı bir ruh, mədəniyyətləri tanıma arzusu hər nə qədər ağlabatan və qanuni bir səy olaraq qəbul edilsə də, oriyentalizmin Şərqi bilmə/tanıma həvəsini məsum bir cəhd kimi qəbul etmək həqiqəti görməmək üçün başını quma gömməkdən başqa bir şey deyildir. Qövmlərin bir-biriylə tanış olması Qurani-Kərimdə də tövsiyə edilmişdir. Lakin oriyentalizmdə tanış olmaqdan daha çox işğal üçün tanıma niyyəti önə çıxır. Obyektiv bir elm olmaqdan daha çox missionerlik və istismarçılığa dəstək məqsədilə yaradılan ideoloji bir layihə demək yanlış olmaz. Akademik və elmi işlər kimi ört-basdır edilən oriyentalizmdə İslam dini haqqında şübhələr oyandırmaq cəhdi vardır. Nəticədə ilk toxumları atılan Misir və Hindistan torpaqlarında bu parçalanmanın müşahidə edilməsi – təəssüf ki – cəhdlərinin boşa çıxmadığını da ortaya qoyur.

### Səy gərəklidir – dağıdıcı olmadığı təqdirdə

Əsrlərcə danışılmış bir məsələ olan oriyentalizmin təkrar-təkrar üzə çıxarılması avtomatik şəkildə öz-özünə baş verən bir vəziyyət deyil, planlaşdırılaraq yaradılmış, uydurma bir gündəmdir. Bu uydurmanı yaradanlar isə İslam ümməti ilə açıq şəkildə mübarizə aparmağa qüdrəti çatmayan və bir metod kimi oriyentalizmi kəşf edən Qərbdir. Müsəlmanları şəxsiyyət və aidlik mənasında şübhəyə

salmaq, yəni qalanı içindən fəth etməyə çalışmaq üçün şərqşünaslığı icad ediblər.

İslami elmlərin hər sahəsində həqiqətən güclü işlər görən oriyentalistlər şəxsiyyət kodlarını tədqiq etmək, aidlik bağlarını analiz etmək üçün, Əbubəkr Sifilin sözüylə desək, "dağıdıcı" bir səy içindədirlər.

## Yerli olan candır – genetikası dəyişdirilmədiyi təqdirdə

Diqqət yetirdikdə bir çox oriyentalistlərin təhsillərini Əzhər Universitetində aldıqlarını və işlərini burada yoluna qoyduqlarını görürük. Üstəlik, oriyentalistlərin fikirlərini İslamın islahatı adı ilə müsəlmanların bir qismi də mənimsəyiblər. Müasirləşmə prosesində istər Şərqə gələn şərqşünaslar, istərsə də təhsil məqsədi ilə Qərbə göndərilən tələbələrin əli ilə oriyentalistlərin düşüncələri  müsəlmanların arasına da sızmışdır. Lakin bu fikirlər müsəlman zehinlərinə oriyentalist düşüncə qiyafəsində yerləşdirilməmişdir. "Bunlar müsəlmanların problemləridir, bunlar barəsində danışmaq lazımdır" tərzində zehinlərə yeridilmişdir. Bu mərhələdən sonra İslami elmlərlə bağlı müzakirələrdə əcnəbi oriyentalistin adı xatırlanmamış, onların yetişdirdiyi "yerli oriyentalistlər"in adları çəkilmişdir. İslam coğrafiyasının hansı ölkəsinə gedilsə, bu yerli şərqşünaslar nəzərə çarpır. Müdafiə etdikləri fikirlər özlərinə aidmiş kimi dərk edilərək qəbul edilsə də, hamısı oriyentalistlərin dəzgahından keçmişdir. Daha ağrılısı budur ki, "yadların" oriyentalistinə gərək qalmamış, oriyentalistləşən zehinlər, yəni yerli müstəşriklər tərəfindən artıqlamasıyla işlənmişdir.

## Tövsiyə gözəldir – tətbiq edildiyi təqdirdə

Yaxşı, bəs nə etməliyik? İlk növbədə ayıq-sayıq olmalı, tətikdə durmalıyıq. Təməl möhkəm olmalıdır ki, tələlərə düşülməsin. Məlumat və şərhlərin mənbəyi yaxşı araşdırılmalı, hər verilən məlumat olduğu kimi qəbul edilməməlidir. Quran və sünnəyə uyğun gəlməyən məlumatlar yaxşıca ayırd edilməlidir. Doğru hesab edilən yanlışlara işıq tutulmalıdır. Sevilən yazar və fikir adamlarının sözlərini kor-koranə müdafiə etməmək lazımdır. Orientalizmin yaratdığı problemlər yaxşı təsbit edilməlidir. Nəticədə orientalizmlə mütləq üzləşməliyik. Bu üzləşmədə özünü aşağı səviyyəli hissetmə psixologiyasına qapılmadan özümüzü tarixin içində mübtəda kimi qəbul etməli və gələcəyə yönəlmiş proyeksiyaları inkişaf etdirməliyik.

## Bir kitab

Mərmərə Universiteti İlahiyyat fakültəsinin tədris işçisi Prof. Dr. Süleyman Derin oriyentalist əsərlərə tənqidi perspektivlə yanaşdığı "İngilis oriyentalizmi və təsəvvüf" kitabında təsəvvüflə bağlı işlər görən oriyentalistləri illərə görə təsnif edir. İngilis oriyentalistlərinin təsəvvüf haqqında apardıqları araşdırmaları müzakirə edərək tənqid edir. Bu sahəyə marağı olanların sözügedən kitabı oxumasını tövsiyə edirik.



# ROMANTİZM

Hiss var, amma əsil deyil

Kənardan sırınan şablonlarla ifadə edilməyən hisslər
artıq inandırıcı gəlmir. Rituallara sadiq qalmayan
sevgilər sorğu-suala tutulur.

## Romantizm nədir?

Məfhumun mənşəyini araşdırdıqda fransızca "romantisme" sözüylə qarşılaşırıq. Bu sözə fərqli təriflər verilsə də, ümumi olaraq "hiss və coşqunluğun davranışlara güclü şəkildə təsir etməsi" şəklində mənalandırıla bilər.

## Tarixi proses

Bir cərəyan olaraq hiss və xəyal dünyasını ön planda tutaraq ağılı mərkəzə gətirən klassizmə reaksiya kimi yaranmışdır. 18-ci əsrin ortalarında Fransada ayaq səsləri eşidilmişdir. Ədəbiyyat tarixçiləri bu dövrə preromantizm – romantizmöncəsi dövr deyirlər. 19-cu əsrdə isə Avropaya yayılmışdır. Romantizm bir ədəbi cərəyandan daha çox dövrün siyasi və ictimai hadisələrinin nəticəsi şəklində düşünmə və duruş tərzi, həyat tərzi kimi qiymətləndirilir.

## Fransız inqilabının məhsulu

Fransız inqilabı romantizm cərəyanının ortaya çıxmasına səbəb olan ən önəmli faktordur. İnqilabdan əvvəl hakim olan mütləq monarxiya sistemində sərt və qay-

"Romantizm bir ədəbi cərəyandan daha çox dövrün siyasi və ictimai hadisələrinin nəticəsi şəklində düşünmə və duruş tərzi, həyat tərzi kimi qiymətləndirilir."

dapərəst nizam hər sahədə təsirini göstərmişdi. Klassizm cərəyanı bu sərt dövrə görə formalaşmışdır. İnqilabla birlikdə bərabərlik, müstəqillik, fərdiyyətçilik kimi önə çıxan məfhumlar hər sahədə olduğu kimi ədəbiyyat və sənətdə də özünü göstərmişdir. Krallıq rejiminin məhsulu klassizmdirsə, Fransa inqilabının məhsulu romantizmdir desək yanılmarıq.

## Düha ağılda deyil, ürəkdədir

Romantiklər dühanın ağılda deyil, ürəkdə olduğuna inanırlar. Klassizmdə ağıl və sağlam düşüncə önəmli olduğu halda, romantizmdə ehtiraslar və təxəyyül aləmi mühümdür. Klassizmdə sadə bir ifadə hakim olduğu halda, romantizmdə bəzəkli və romantik üslub, təsvir bolluğu, şairanə bir dil işlədilib. Romantik sənətkarların coşqun hissləri lirik şeirə xeyli töhfə vermişdir.

## Ən yaxşı qayda qaydasızlıqdır

Romantizm klassizmin özündə ehtiva etdiyi bir yığın qaydalara qarşı çıxır. Romantiklər insanın məhsuldarlığına hədd qoymağa cəhd edən bütün qaydaları rədd edir. Azadlığı təmsil edən romantiklər hisslərin üzə çıxmasını müxtəlif qəliblərə salan bütün ölçülərə qarşıdırlar. Belə ki, klassizmdəki zaman, məkan, hadisə üçlüyü romantizmdə yox sayılır.

## Sənət kimin üçündür?

Klassizmdə "sənət sənət üçündür" anlayışı var, romantizmdə isə "sənət cəmiyyət üçündür" anlayışı hakimdir. Əsərlərində yaxşı-pis, doğru-yanlış ziddiyyətlərində

romantiklər yaxşının, doğrunun tərəfindədirlər. Beləliklə, "sənət cəmiyyət üçündür" anlayışına sadiq qalaraq cəmiyyəti dəyişdirmək üçün sənətdən təsirli bir vasitə kimi istifadə etməyi hədəfləmişlər.

## Dini və ekzotik motivlər yenidən dəbə minir

Klassik dövrdə arxa plana atılan dini ünsürlər romantizmlə birlikdə yenidən parladılmışdır. Orta əsr əfsanələri, müqəddəslərin əhvalatları, xristianlıq möcüzələri istər tarixdən, istərsə də gündəlik həyatdan ilhamlanaraq işlənmişdir. Bundan başqa, romantizmdə ekzotikliyə maraq vardır. Başqa dillərə, başqa mədəniyyətlərə maraq hakimdir. Romantik yazarlar Uzaq Şərq ölkələrinin mistik təlim və tətbiqlərini öz xəyal dünyalarına görə şəkilləndirirlər. Həqiqətlər qarşısında şairanə və mücərrəd bir tərzdə yaradıcılıqla məşğul olurlar.

## Ən romantik məbəd: təbiət

Təbiətin təsviri romantiklər üçün uzun-uzadı işlənməli olan ən mühüm ünsürlərdən biridir. Təbiət bütün canlılığı ilə təsvir edilməli və oxucuda həyəcan hissi oyandırmalıdır. Romantiklər üçün təbiət ən zəngin ilham mənbəyidir, sığınılacaq limandır. Viktor Hüqo "Kromvel" adlı əsərinin ön sözündə "Təbiətdə var olan hər şey sənətdə də var olmalıdır" deyir. Təbiət sanki Tanrının hökm sürdüyü bir məbəddir, Tanrının şeiridir. Bodlerə görə, təbiət başqa bir məbədə ehtiyac yaratmayan bir məbəddir.

> Təbiətin təsviri romantiklər üçün uzun-uzadı işlənməli olan ən mühüm ünsürlərdən biridir. Təbiət bütün canlılığı ilə təsvir edilməli və oxucuda həyəcan hissi oyandırmalıdır. Romantiklər üçün təbiət ən zəngin ilham mənbəyidir, sığınılacaq limandır.

## Romantizmin qurucusu kimdir?

Bu cərəyanın qurucusu olaraq Viktor Hüqo göstərilsə də, əsas qurucunun Jan Jak Russo olduğuna dair qənaət daha güclüdür. "Romantik" sözünü *"Tənha gəzənin xəyalları"* əsərində ilk dəfə Russonun işlətdiyi qəbul edilmişdir. Viktor Hüqo isə yazdığı "Kromvel" pyesinin ön sözündə romantizm cərəyanının bildirişini yayımlamışdır. "Sənətdə azadlıq" şüarı bu bildirişin əsasını təşkil edir.

## Milli romantizmin idrakı

Fransa inqilabı ilə birlikdə xalqlar arasında yayılan millətçilik cərəyanı təbii olaraq müxtəlif mədəniyyət sahələrində də öz əksini göstərmişdir. Romantizmlə yanaşı, millətlər mənəvi aləmlərində insanı insan edən, daxili dünyasını meydana çıxaran dəyərlərə yönəlmişlər. Bu səbəblə gələcək ülviləşdirilmiş, tarixi hadisə və qəhrəmanlar yenidən kəşf edilmişdir.

Ədəbiyyat tarixçisi və yazar Nihat Sami Banarlı türk millətlərinin öz fəzilətlərini görməsi, yad mədəniyyətlər qarşısındakı zəifliyin və özünü onlardan daha aşağı səviyyədə görməsi hissinin ortadan qalxması üçün milli

romantizmi lazımlı sayır. Esselərində milli romantizmə çox yer verən Banarlı "Kubbealtı Akademi" məcmuəsinin ilk sayında yer alan "Milli romantizmin idrakı" adlı məqaləsində millətlərin – xüsusən türk millətinin – dirçəlişində ən önəmli faktorun milli romantizmin idrakı olduğunu vurğulamışdır. Milli romantizm deyərkən nəzərdə tutduğu isə türk mədəniyyəti, tarixi və sənətinin köklərinə gedərək onlardan ibrət almış şəkildə gələcəyə baxmaqdır. Milli romantizmin idrakı keçmiş və gələcək arasında bir növ körpüdür. Banarlının "yüksəklik hissi" adlandırdığı milli duruş və şahlanma ancaq milli romantizmin təsiri ilə mümkün olacaqdır.

Nihat Sami Banarlı "Ədəbiyyat söhbətləri" adlı əsərinin 16-cı səhifəsində yazır: "Milli romantizm bir sehr və ya tilsim deyildir, lakin sehrli və tilsimli nəticələr doğurur. Milli romantizmin idrakı ilə bir millət bağlı olduğu ortaq mədəniyyət hansı olursa olsun, o mədəniyyətin içində yenə özü olaraq, öz milli şəxsiyyəti, milli heysiyyəti və milli dəyərləri ilə birlikdə dirçəlir. Bu, tarixdə böyük işlər görmüş millətlər üçün daha heybətli və daha şərəfli bir qanadlanmadır".

## Bu adamlar çox romantikdir

**J.J. Russo** xalqların hakimiyyəti, müstəqillik və bərabərliyə əsaslanan bir sistemi inkişaf etdirməyə çalışmış və bu mövzuda əsərlər yazmışdır. Romantizmin qurucusu kimi qəbul edilir.

**Viktor Hüqo** fransız ədəbiyyatında ən məhsuldar sənətkar kimi qəbul edilmiş və "romantizmin ən güclü beyni" təbiri ona layiq görülmüşdür. Hüqonun fikrincə, romantizm ədəbiyyatda müstəqilləşməkdir.

**A.S. Puşkin** rus və dünya ədəbiyyatına əsərləri ilə istiqamət verən güclü romantik qələm sahiblərindən biridir. Rus dili və ədəbiyyatının islahatçısı kimi qəbul edilir.




**Goethe** dünya ədəbiyyatının ən məşhur simalarındandır. *"Gənc Verterin iztirabları"* adlı romanıyla alman ədəbiyyatında romantizm cığırını açmışdır. Hətta bu əsərdən təsirlənərək intihar edənlər belə olmuşdur. Goethe romantizmə klassizmə qarşı inqilabi bir üsyan kimi tərif vermişdir. "Romantiklik xəstəlikdir" deməkdən də özünü saxlaya bilməmişdir.

## Romantik türk ədəbiyyatçıları

Türk ədəbiyyatına baxdıqda görürük ki, İslahatlar dövrü yazarlarının çoxu fransız romantik cərəyanının təsiri altında qalıblar. Viktor Hüqonun əsərlərinin təsiri ilə ədəbi əsərlər yazmışlar. Namik Kemal roman və pyeslərində, Recaizade Mahmut Ekrem şeirlərində, Ahmet Mithat, İbrahim Şinasi müxtəlif əsərlərində romantizm rüzgarı əsdirmişlər.

## Alman romantizmi

Romantizmin mədəniyyətlər üzərindəki təsirini nəzərə aldıqda bəlli olur ki, bu cərəyanın alman mədəniyyətinə təsiri digərlərindən daha çoxdur. Romantizm sadəcə almanlara xas deyildir, lakin alman ədəbiyyatında özünəməxsus

bir forma qazanmışdır. Bu vəziyyət də ümumən dünyada almanların romantizmlə eyniləşmiş bir mədəniyyətə sahib olduqları qənaətini yaratmışdır. Romantizmin Almaniyada nasional sosializmin inkişafında da təsiri olmuşdur. Alman romantizminin ədəbiyyatla məhdudlaşmayaraq siyasi romantizm formatında mübaliğə və şişirtmə ilə nasizmi doğurduğunu ifadə edənləri də nəzərə almaq lazımdır.

## Siyasi romantizm

Müstəqillik, xalqların hakimiyyəti, inqilab kimi iddialarla "ədalətli nizam" qurmağa yönəlmiş dünyagörüşüdür. Siyasi romantizm mövcud şəraitdən çox uzaq olan başqa bir dünyanın mümkün olduğu inamı ilə hərəkətlərini planlaşdırır. Müstəqillik naminə avtoritar rejimi sıradan çıxarmağa qanuni bir yol kimi baxır.

Siyasi ekspert Süleyman Seyfi Ogün siyasət və romantizm haqqında danışdığı "Yeni şafak" qəzetində yayımlanan 13 oktyabr 2014-cü il tarixli "Romantizm və siyasət" başlıqlı köşə yazısında həqiqətin yerinə başqa bir həqiqət inşa etməyi ciddi bir problem kimi dəyərləndirir. Siyasi romantizmin əli ilə suverenliyi həqiqətin yerinə qoymaq üçün hisslərin qamçılandığını və nəticədə zorakılıqla dolu hərəkatın doğulduğunu ifadə edir. Siyasi romantizmin bir başqa təsiri də zehni tənbəllikdir. Gerçəkliklə başa çıxa bilmədiyi vəziyyətdə hisslərin səfərbərliyi və bunun zorakılığa təhvil verilməsinin nisbi bir doyum yaradacağını, amma bunun xəbisləşmə təhlükəsinin olduğunu deyir.

“Xülasə, nəticə olaraq”

## Qablaşdırılmış romantizm sənayesi

Romantizm cərəyanının təsir dairəsini düşünərək çeşidlərinin çoxluğunu təxmin etmək çətin deyil. Hazırkı dövrümüzdə romantizm deyildikdə ağıla gələn şeylərin yuxarıda bəhs etdiklərimizlə çox da əlaqəsi yoxdur. Bu gün insanlarda bu məfhumun yada saldığı ilk şey, şübhəsiz, şam işığında axşam yeməyi yeməkdir. Sonra növbəylə gəlir: yağış altında gəzmək, əlində bir qab popkorn, çiynində yumşaq ədyal ilə duyğulu bir filmə baxmaq, gecə ayı seyr etmək və s.

Sənaye inqilabı sənətdəki romantizmin yuxarı pərdədən gələn səsini susduraraq bəsit və bayağı səs-küy qoparan musiqi alətlərinə çevirmişdir. Həyatın kapilyar damarlarına qədər işləyən istehlak çılğınlığından insanın ən məhrəm duyğuları da öz payını almışdır.

> “Bu gün insanlarda bu məfhumun yada saldığı ilk şey, şübhəsiz, şam işığında axşam yeməyi yeməkdir.”

## Mənim icarədən gələn gəlirim sənin romantikliyin qədərdir

Zehinlərə zorla yeridilmiş şablonlarla ifadə edilməyən hisslər artıq həqiqi və inandırıcı görünmür. Rituallara sadiq qalmayan sevgilər sorğu-suala tutulur. Dəyərsizlik hissi bütün mənliyi bürüyür. Kimlərinsə qazanc əldə etdiyi tök-

mə qəlib tətbiqlər başqa insanların sadəcə ciblərinə deyil, münasibətlərinə də dağıdıcı təsir edir.

Kapitalist sistemin ağaları həyatdakı ən son qayəni yeknəsəq şəkildə xoşbəxt olmaq və daim xoşbəxt qalmaq zənn edən bir zehniyyət inşa edir. Romantizm adı altında mənadan yoxsul məhsullarını və həyat tərzlərini bu xoşbəxtliyin fil ayağından olan sütunları daşıyır. Yəni bu tətbiqləri yerinə yetirməsən, romantik deyilsən, romantik deyilsənsə nə xoşbəxt ola bilərsən, nə də xoşbəxt edə bilərsən.

## Sənayeləşmənin qanadları altında romantizm ifratlılığı

Bu illüziyaya aldanmayan insanların sayı çox-çox azdır. Çünki bu hiyləyə düşməmək möhkəm bir duruş, polad iradə tələb edir. Halbuki insanların əksəriyyəti adətən küləyin önündəki yarpaq kimi "ifrat"a qapılır. Bəli, romantizm sənətdə və ədəbiyyatda bir cərəyan ola bilər. Lakin sənaye inqilabının qanadları altında bir ifratlıq olaraq yeni versiyası ilə bazara çıxarılmışdır.

## Ürəkdən gələn ifadələr, əşyadan ibarət serenadalar

Zövqsüz və estetiklikdən məhrum vasitələr, "kopyala yapışdır" sözlər və makinadan çıxmış davranışlarla həmsöhbətini "xüsusi" və "yeganə" hissetdirmə yanılmasına düşən şəxs özünü "bənzərsiz romantik" zənn edir, əslində bu, tragikomik haldır. Bütün zamanların şübhəyə əsla yer qoymayan gerçəkliyi budur ki, hisslərin bədahətən, ürəkdən gələn ifadələrlə bildirilməsi əşyaya bağlı serenadalardan daha təsirli və qəlbin kövrək tellərinə toxunan olur.

## Oyunla oyunmuş kimi davran

Sosial şəbəkələrdə cütlərin həyat yoldaşları ilə yaşadıqları hər xüsusi anı paylaşaraq günün hər saatında özlərini romantizmin zirvələrindən heç düşmürmüş kimi göstərməsi və şüurlu bir şəkildə yaradılan bu saxta imici təqibçilərinin şüursuzcasına təqlid etmələri səviyyənin hansı vəziyyətdə olduğunu göstərmək üçün yetərlidir.

Yeşilçam filmlərində sevgilərini təmsil üçün əkdikləri ağacla başlayan, türk seriallarında çılğın sevgi gözləntiləriylə meyvəsini verən ssenarilər real həyatda ailələrin bədbəxt olmalarının səbəblərindən birinə çevrilir. Xanımlar bəylərinin seriallardakı kimi romantik bir kişi olmadığını düşünərək özlərini bədbəxt hiss edərkən, bəylər xanımlarını Barbi kimi qənirsiz gözəl hesab etmədikləri üçün nəzərlərini başqa istiqamətə çevirirlər. Halbuki əsiri olduqları dünyanın uydurma bir oyundan ibarət olduğunun fərqinə varsalar, ssenari və ekranın cazibəsinə qapıldıqlarını dərk etsələr, hər zaman romantik evlilik gözləntilərindən uzaqlaşıb qənaətkar, hörmətli və yetkin evliliyə qədəm basacaqlar.

## Cılızlaşmanın bir başqa forması: İslami romantizm

Bir də buna rast gəlirik, elə deyilmi? Bu qısa yazıda belə romantizmin haradan haraya gəldiyini, hansı ideologiyaların qazanc yeri, hansı məcraların yeraltı zənginliyi halına gəldiyini görürük. İslam kimi nəcib bir dini ucuz romantizm fəaliyyətləri ilə yanaşı gətirmək arzu və ehtiraslarının qurbanı olanlardan başqa kimin işidir və kimin işinə yarayar?

İslamçı romantik adı verilən bu güruhun etdiyi şey nəfsani istəklərinə İslamı qılıf olaraq keçirməkdən başqa bir şey deyildir. İslamda hədd-hüdud bəllidir. Halal-haram sərhədini aşaraq hələ nikah sənədini əlinə almamış gənclərin sosial şəbəkələrdə bir-birindən əcaib davranışları ilə qarşılaşırıq. Kəbədə evlilik təklifi etmə tamaşası ilə anidən populyarlaşan bu viruslu cərəyanın – bilərək, yaxud bilməyərək, fərqi yoxdur – İslamın deformasiya edilməsi cəhdindən, cılızlaşdırılmasından başqa izahı yoxdur. Əlbəttə, nəticə olaraq deformasiyaya uğrayan İslam deyil, bu alçaqlıqlara müraciət edənlərin könülləri, ağılları, anlayışları, şəxsiyyət və kimlikləri olur.

> “Kəbədə evlilik təklifi etmə tamaşası ilə anidən populyarlaşan bu viruslu cərəyanın –bilərək, yaxud bilməyərək, fərqi yoxdur– İslamın deformasiya edilməsi cəhdindən, cılızlaşdırılmasından başqa izahı yoxdur.”

## Protestant əxlaq anlayışından uzağıq

Bu həmlələr protestant əxlaqının İslama uyğunlaşdırılaraq cılızlaşdırılmağa çalışılması şəklində dəyərləndirilə bilər. Haqq ilə batilin əzəli mübarizəsində saysız cəbhələrdən biri də dövrümüzün tələblərindən olan virtual mühitlərdir. Bu mühitlər fərasət və bəsirətdə səndələmə, büdrəmə yaşandığı anda ayağın sürüşməsi qaçılmaz olan buz meydançası kimidir. Bu meydançaya çıxan həssas və yaxşı ilə pisin fərqinə varan hər kəs ya buz üstündə rəqs etməyi öyrənəcək, ya da fasiləsiz olaraq yıxılmağa məhkum olacaqdır.

## O ayələr sizin bir-birinizə mesajla göndərməyiniz üçün endirilməyib

“Eyni evdə birinci dəstəmaz almaq üçün davaya çıxırıq, səninlə dünyanın bütün məscidlərində namaz qılmaq istəyirəm. Şam işığında birlikdə Quran oxuyaq” kimi sözlərlə harama yönəlmədiyinə inanan gənclər vicdanlarını bu şüarlarla doyururlar. Halbuki yaşadığımız din bir şüar dini deyil. Ayə və hədislərin dindar gənclərin bir-birinin könlünü qazanması, söz atması üçün gəlmədiyini təkrar-təkrar xatırlatmaq lazımdır.

## Belə həmrəylik olmasa yaxşıdır

Yenə sosial şəbəkələrdə “həmrəylik” adı altında reklamlar edərək təşhirçiliyi (nümayişkaranəlik) qanuniləşdirən təbəqə necə bir girdabın içində sürükləndiyinin fərqinə varmır. Bu, bir növ mədəni imperializmin könüllü köləliyini edən itirilmiş bir nəsildir. Kənardan inyeksiya edilən bu tərz elə mənimsənilib ki, sahib olduğu dəyəri

görə bilməyəcək qədər kor olub. Nuri Pakdilin ifadəsi ilə desək, Qərbə baxa-baxa boynu tutulan, dönüb özünə baxa bilməyənlərdir.

## Ətindən, yunundan, südündən faydalanılan eşq

Bir də YouTube kanalları vasitəsilə İslamı təbliğ etməyi qarşısına məqsəd qoyan, gənclərdən "like" almaq və diqqətini çəkmək üçün "eşq" və "sevgili" məfhumlarının ətindən, yunundan, südündən faydalanan, sürəkli çay söhbətləri edən qruplar vardır. Populyar ifadələrlə gəncliyin nəbzinə görə şərbət verən bu qruplarla bağlı ümumi qənaət belədir ki, izləyərkən xoş gəlir, amma təsir gücü videoların yayım müddətindən çox olmur.

## Ləyaqət başqa bir şeydir

Fikrimizi cəmləşdirəcək olsaq, deyə bilərik ki, romantizm ədəbi bir cərəyan olaraq ortaya çıxıb. Sənaye inqilabı ilə birlikdə kapitalizmin bazarlarından birinə çevrilib. Müsəlmanlar arasında isə romantik islamçılıq kimi qəbul edilmişdir. Qadınla kişi arasındakı emosional münasibət insan olmanın tələblərindəndir. Qarşı cinsə məhəbbət fitrətdə var olan gerçəklikdir. Bizim burada tənqid etdiyimiz birinci və ən önəmli məqam qeyri-qanuni münasibətlərin qurulması, həvəsləndirilməsi və islami jarqon işlədilərək qanuniləşdirilməsidir. Daha sonra halallıqla qəlblər arasında yaranan məhəbbətin basmaqəlib romantizm hərəkətləriylə adi tərzdə, hər kəsin görəcəyi şəkildə paylaşılması, ifşa edilməsidir. Sonra isə müsəlmanların kapitalizm, imperializm kimi maddi-mənəvi istismarı dü-

züb-qoşanların əlində öz xoşu ilə oyuncağa çevrilməsidir. Bundan sonra da nəticə olaraq sevginin Qərb mədəniyyətinin müəyyənləşdirdiyi şablonlara və müəyyən günlərə sığdırılmağa çalışılmasıdır.

Könüldə yer edən hisslər də, bu hisslərin davranışa çevrilmə tərzləri də insan şərəfi və heysiyyətinə yaraşacaq şəkildə olmalıdır. Rəsulullahın da, əshabının da həyat yoldaşları ilə bir-birilərinə məhəbbətlərini göstərən bir çox nümunə vardır. Burada əsas olan həyat yoldaşlarının bir-birilərinə verdikləri dəyəri zərif və nəcib bir şəkildə hiss etdirmələri, "mənim üçün önəmlisən" mesajını verərkən kənardan məcburən beyinlərə yeridilmiş bircə formaya bürünmədən özlərinə xas bir dil və üslubu inkişaf etdirmələri, hörmətlə, ləyaqətlə davranmalarıdır.

# SEKULYARİZM

İnsanın müqəddəsdən qopması

Sekulyarlaşma müasir zamanlara xas olmayan,
insanlıq tarixi boyunca izlənilə bilən prosesdir.

**Mehmet Tayfun Amman**

## Sekulyarizm nədir?

Latın dilində “dövr, nəsil, məkan” kimi mənaları bildirən sekulyarizm məfhumu “saeculum” kəlməsindən gəlir. Zaman keçdikcə “dünya” mənasında da işlədilmişdir. Zaman indiki zamanı, məkan isə içində yaşanılan bu dünyaya aid olmağı vurğulayır. Türk Dil Qurumu isə bu kəlməyə “dindən asılı olmayan, dünyəvilik” kimi tərif verir.

Sekulyarizm məfhumuna keçən əsrlər ərzində fərqli mənalar yüklənərək sosial elmlər baxımından qarmaqarışıq bir hal almış olsa da, bu sözə verilən bütün təriflərin ortaq nöqtəsi “dinə qarşı olma, müqəddəsi kənarlaşdırma” olmuşdur.

Siyasi mənada sekulyarizm din və dövlət işlərinin ayrılması kimi tanıdılmışdır, bir idarəetmə tərzi olaraq teokratiyanın ziddi qəbul edilmişdir. Fəlsəfədə isə nizamın doqmatik dini inanclarla deyil, səbəb və təcrübəliliyə əsasən qurulmasıdır.

Ən sonda sekulyarizm dini qurum, simvol və normaların əhəmiyyətini itirərək fövqəltəbii inancların nüfuzunu itirməsi, dünya həyatının ağlın önəm verdiklərinə görə şərh edilməsi və müasir həyat tərzinin mənimsənilməsidir.

## Tarixi proses

Sekulyarlaşma tezisi Avropanın "Maariflənmə hərəkatı" ilə ortaya çıxmışdır. Elm və müasirləşmənin irəliləməsi ilə birlikdə yer üzündə müqəddəsliyin hər hansı bir dəyərinin qalmayacağını, dinin dəyərsizləşərək gündəlik həyatdan çıxacağını, Tanrının səhnədən düşəcəyini və yerinə ağılın gələcəyini iddia edir. Hətta bu sonun nə zaman gələcəyinə dair tarixlər belə verilmişdir.

Sosial elmlərin qurucularının 19-cu əsrdə əsas tezisləri dinin zaman keçdikcə yox olacağı istiqamətində idi. 20-ci əsrdə isə ibtidai dövrlərdən qalan din faktının artıq ölüm vaxtı gəlmişdi, texnologiya irəlilədikcə müasirləşmə həyata hakim olacaq və nəticədə din ortadan qalxacaqdı.

Bu baxış tərzi zaman keçdikcə "sekulyarlaşma tezisi"ni formalaşdırmışdır. Bu tezis təktərəflidir və Qərbin öz tarixi təcrübəsinə əsaslanaraq ideoloji bir keyfiyyət daşıyır. Bu tezisə görə, din pisdir və ondan dərhal qurtulmaq vacibdir.

## Sosioloqlar və sekulyarizm

19-cu əsrdə bir sıra filosof, şair və mütəfəkkirlər Tanrının olmadığı, dindən xilas edilmiş bir dünyanı təsəvvür edirdilər.

Ali Kösenin 2001-ci ildə "Liberal düşüncə" jurnalında yayımlanan "Müasirləşmə-sekulyarlaşma əlaqəsi haqqında paradiqmalar" məqaləsinin 2-ci səhifəsində verilən məlumata görə, Maks Veber sekulyarlaşma məfhumundan öncə "rasionallaşma" məfhumu üzərində durmuşdur. Veberin fikrincə, rasionallaşma gözün açılmasıdır. Bu isə "sirr-tilsim" kimi şeylərə deyil, "ağılın" məlumatlarına inanılan bir həyatı təsəvvür etməkdir. Gözün açılması bu

məfhumların dəyərsizləşməsidir. Sirr öyrənilən bir sahə deyil, insan ağlı ilə fəth edilməsi lazım gələn bir sahədir. Veber bu "rasionallaşma-gözünü açma" prosesini sekulyarlaşma adlandırır.

> Maks Veber sekulyarlaşma məfhumundan öncə "rasionallaşma" məfhumu üzərində durmuşdur. Veberin fikrincə, rasionallaşma gözün açılmasıdır. Bu isə "sirr-tilsim" kimi şeylərə deyil, "ağılın" məlumatlarına inanılan bir həyatı təsəvvür etməkdir.

Auqust Komt *"Pozitivizmin elmihalı"*nda elmin yüksəlişini, dinin çöküşünü planlaşdırmışdır. Freydə görə, din və Tanrı bir yanılmadır, insanların reallığın əzabları ilə üzləşməsinə mane olduğu üçün yetkinləşmələrini gecikdirir.

## Dünyəviliklə arasındakı fərqlər

Dünyəvilik və sekulyarizm istər akademiya dünyasında, istərsə də mediada bir-birilərinin yerinə işlədilir. Lakin etimoloji və tarixi baxımdan dəyərləndirildikdə aradakı fərqlər açıqlığa çıxır.

Sekulyarizm dinlə cəmiyyət arasındakı münasibəti ifadə etdiyi halda, dünyəvilik dinlə dövlət arasındakı münasibəti açıqlayır.

Dünyəvilik ən geniş mənası ilə din ilə dövlət işlərinin bir-birindən ayrılması kimi tanıdıldığı halda, sekulyarizm dinin cəmiyyətdə nüfuzunu itirərək istinad yeri olmaqdan çıxması şəklində açıqlanır. Yəni dünyəvilik siyasi aləmdə, sekulyarizm fərdi sahədə istifadə edilir. Dünyəvilik bir siyasi prinsip, qaydaqoyucu funksiyasını daşıyırsa, sekulyarizm dinin dəyişməsinə müdaxilə etmədən prosesə adını

verir. Bu vəziyyətdə dünyəvi dövlətlərin sekulyar olmayan ictimai qrupları, yaxud dünyəvi olmayan dövlətlərin sekulyar qruplarının ola biləcəyi söylənir.

Dövlətlərin dünyəviləşməsi konstitusiyaya ediləcək bir qanun dəyişikliyi ilə mümkün ola biləcəyi halda, cəmiyyətlərin sekulyarlaşması bir qanun ilə mümkün olmur. Türkiyənin dünyəviləşməsi prosesi bu mənada maraqlı bir nümunədir. Yuxarıdan qoyulan qayda-qanunlarla cəmiyyəti sekulyarlaşdırma cəhdləri və diktələr xalqın dinini dövlətin görməyəcəyi yerlərdə yaşamasına səbəb olmuşdur.

Xülasə, dünyəvilikdə cəmiyyət “din dövlətə qarışmasın” deyirsə, sekulyarizmdə fərd “din həyatıma qarışmasın” deyir.

## Ortaya çıxma səbəbləri

İntibah və islahat təcrübələrindən əlavə, elmi irəliləyişlərlə birlikdə təbiət hadisələri sirrini itirmiş, metafizik şərhlər yerinə insanlar artıq texniki açıqlamalar verməyə başlamışdır. Texnoloji inqilab sonrasında gündəlik həyatın təşkilində çətin şəraitdə uca bir varlığa sığınmaq yerinə texnoloji tədbirlər görməyə üstünlük verildi. Kapitalizmin yayılması nəticəsində daha çox gəlir əldə etmək qayğısı, rəqabət, sərbəst bazar iqtisadiyyatı kimi vəziyyətlər ənənəvi cəmiyyətin quruluşu ilə uyğun gəlmədiyindən aşınmalar yaşandı. Dini təcrübələrin azalmasına, mənəviyyatla əlaqəyə məsafələr qoyulmasına səbəb oldu. Şəhərləşmə ilə yanaşı, insanların ənənəvi əxlaqi rəftarları dəyişmiş, fərdi həyat ön plana çıxmış, şəhərlərdə sosiallaşma sahələrinin çoxalması kimi səbəblərdən dini praktikalara daha az vaxt ayrılmağa başlandı. Müasirləşmədən sonra problemlərə dini baxımdan həll yolları tapmaqdan uzaqlaşılmış, din istinad yeri olmadığı üçün dini qurumlar, simvollar, rituallar gündəlik həyatdan kənarlaşdırılmış oldu.

## NƏ DEDİLƏR?

İsmail Kılıçarslan

**Nə deizm, nə də ateizm, məhz sekulyarizm**

İsmail Kılıçarslan yenişafak.com-da 14 aprel 2018-ci il tarixində yayımlanan köşə yazısında davam edən deizm mübahisələrini qələmə almış və məsələnin deizm, yaxud ateizmdən daha çox sekulyarizm olduğunu bu cümlələrlə vurğulamışdır: "Humanizm, deizm, nə bilim hansı cərəyanlar yüksəlirmi, yoxsa düşürmü, bilmirəm. Amma sekulyarizmin bütün dünyanı bir "həzz bataqlığı"na sürükləməsi kimi bir gerçəklikdən qaçaraq görüləcək heç bir işin olmadığını bilirəm.

Aparıcılarımızla din üzrə mütəxəssislərimiz, siyasətçilərimizlə ekspertlərimiz müzakirələri davam etdirməkdə olsunlar; dünyəviləşmək, dünyanı yeganə həqiqət, özünü yeganə, "bircə dənə" saymaq bu köhnə planetimizin sonunu gətirəcək.

İnsandan üstün bir varlığın, dünyadan gözəl bir yerin, vicdandan başqa bir tərəzinin olmadığını düşünmək insanı canavara, hətta zombiyə çevirəcək. Mən o zaman baxacağam müzakirəni "vardı-yoxdu" müstəvisinə gətirən maraqlılıq tərzinə..."

## Nə dedilər?

Yusuf Kaplan

**Sekulyarizm insanı həqiqətdən uzaqlaşdırdı**

Yusuf Kaplan yenisafak.com-da 19 oktyabr 2014-cü il tarixində yayımlanan "sekulyarlaşma fəlakəti və həqiqəti" başlıqlı yazısında sekulyarizm haqqında bu cümlələri deyir:

"Sekulyarlaşma prosesi insanı hər baxımdan müstəqilləşdirməyi vəd edirdi.

Halbuki bu gün gəldiyimiz nöqtədə sekulyarlaşma prosesi həm insanı və cəmiyyəti yox etdi, həm həyatı mənasızlaşdırdı, həm də insanı sürət və həzz arasına həbs edərək dünyanın problemlərinə qarşı yadlaşdırdı, həqiqətdən uzaqlaşdırdı:

Vasitənin, gücün və gücü istehsal edən vasitələrin bütləşdirilməsinə yol açaraq, vasitəni/gücü əllərində saxlayan mənbələrin dəhşətli hala gəlmələrinə, vicdansızlaşmalarına zəmin hazırladı. Və dünyanı yaşanılmayacaq bir yerə çevirən qlobal/postmodern yeni istismarçılığın adı, ünvanı və kəşf qolu oldu".

**NƏ DEDİLƏR?**

Prof. Dr. Ali Erbaş

**Sekulyarizmin qısqacında çapalayan insanlıq**

Dəyanət işləri sədri Ali Erbaşın vəzifəni təhvil aldığı mərasimdə ilk sözlərinin "Sekulyarizm, yəni dünyəviləşmə və heç bir dəyər tanımamağın qısqacında çapalayan insanlığa əl uzatmaq üçün həmişəkindən daha çox çalışmağımız lazım gəlir" olması müxtəlif müzakirələri də özü ilə bərabər gətirdi. Bəziləri yeni sədrin dünyəviliyə qarşı olduğu iddiasını irəli sürdü. Bir qisim simalar isə bu sözləri tutduğu vəzifənin tələbinə uyğun olduğu üçün "üzrlü" saydı.

**Tövsiyə edilən kitab / Prof. Dr. Ali Köse**

**1. Sekulyarizm sorğu-suala çəkilir:** Cəmiyyətlərin müasirləşdikcə öz dini həyatlarından çıxaracağı iddiasının səhv olduğunu düşünən sosioloqların təsbit və baxışlarını özündə ehtiva edən məqalələrin türk dilinə tərcümə edilərək çap olunduğu bu kitab dinin keçirdiyi məna dəyişikliyini ortaya qoyan ilk məqalələr toplusu özəlliyini daşıyır. Tərcümələr olduqca keyfiyyətli və şəffaf bir xüsusiyyətə sahibdir.




**2. Dünyəvi, amma müqəddəs:** Sekulyarlaşma tezisinin keçərliliyini itirdiyini və bunun ideoloji bir tezisdən ibarət olduğunu müdafiə edən sosio-

loqların fikirlərinin bir yerə toplandığı kitab Ali Kösenin bu sahədə ortaya çıxardığı bir başqa yazılar toplusudur. Hər tərcümə edilən kitabın oxunaqlı olmadığı bizə məlumdur. Ali Kösenin bu sahə üzrə məlumatlılığı və rahat üslubu əsəri asan anlaşılan və zövqlə oxunan kitaba çevirir.

“Xülasə, nəticə olaraq”

## Gizli sekulyarlaşmaya qarşı diqqətli olun!

Türkiyədə İslahatlar Tənzimat dövründən öncə ayaq səsləri eşidilən sekulyarlaşma cümhuriyyətlə bərabər dövlət siyasətinə çevrilmişdir. Dövlət siyasətləri zaman keçdikcə qurduğu nizama uyğun cəmiyyət modelini yaradır. Lakin Türkiyədə dünyəvi dövlət nizamının ən sərt zamanlarında belə cəmiyyətin təkcə kiçik bir hissəsi sekulyar həyat tərzini mənimsəmişdi. Sekulyarizmin yuxarıdan gələn qanunlarla cəmiyyətin dərinliklərinə nüfuz edə bilməyəcəyini tarixi təcrübələr göstərmişdir.

Bugünkü Türkiyədə isə cəmiyyətin müxtəlif təbəqələrində fərqli səviyyələrdə sekulyarlaşmadan söhbət gedir. Yəni Türkiyə cəmiyyəti haqqında nə birbaşa sekulyar deyilə bilər, nə də tamamilə dindar. Professor Mehmet Tayfun Amman “Türkiyədə ailənin açıq və örtülü sekulyarlaşmasının sosioloji analizi” başlıqlı məqaləsində “açıq sekulyarlaşma” və “örtülü sekulyarlaşma” məfhumlarını açıqlayır. Məqaləyə görə, dindar həyat tərzi keçirməyənlərdə “açıq sekulyarlaşma” göründüyü halda, dini həyat yaşayanlarda “örtülü sekulyarlaşma” müşahidə edilir. Açıq sekulyarlaşma adından da məlum olduğu kimi, dini həyatlarının mərkəzinə gətirməyən təbəqələrin sekulyar həyat

tərzini mənimsəməsi və açıq şəkildə yaşamasıdır. Örtülü sekulyarlaşma isə şəxslərin dindar olduqları halda gündəlik həyat təcrübələrini sekulyarizmin təkliflərinə görə müəyyənləşdirmələridir.

Bu iki vəziyyəti fərqləndirmək üçün çox sadə bir yol var; gündəlik həyatımızda vərdişlərimizin istinad nöqtəsi nədir? Bu suala özümüzə yalan danışmadan cavab versək, nəticəni görmüş olarıq. İstehlak vərdişlərimiz, insanlarla münasibətlərimiz, əylənmə və kədərlənmə tərzlərimiz, qısaca desək, həyatı necə yaşayırıq, ona hansı mənaları veririk – bunun haqq-hesabını təkrar-təkrar nəzərdən keçirməliyik.

> “Gündəlik həyatımızda vərdişlərimizin istinad nöqtəsi nədir?”

## Sekulyar ailə, tükənən ailə

Cəmiyyətin ümumən sekulyarlaşmaya meylinin təbii bir nəticəsi olaraq ailə qurumu da sekulyarlaşmaqdadır. Ailədə sekulyarlaşma həyat yoldaşı seçimi, nikah forması, toy-yas mərasimi, uşaqlara ad qoyma, sosiallaşma və s. sahələrdə özünü göstərir. Gündəlik işlərdə ailənin seçimləri dinin əmr, ya da tövsiyə etdiklərinə uyğun olurmu, yoxsa mənşəyi Qərb cəmiyyətləri olan avropasayağı həyatın təqlidi olur, buna fikir vermək lazımdır. Təqlid sözünü bilərək işlətdik, çünki özünü sekulyar kimi tanıdan ailələr əslində öz sekulyar tərzini belə yarada bilmir, Qərbin təcrübələrini birbaşa tətbiq edir.

Yaxşı, Qərbdə nə görürük? Təəssüf ki, atasız uşaqlar, tənha analar, tək valideynlər olaraq ifadə edilən pərişan, bədbəxt, kimsəsiz, bədbin, ümidsiz insan tiplərinin məqsədsiz və mənasız həyatlarını görürük. Türkiyədə

açıq, yaxud örtülü sekulyar ailə modellərində nisbət hələlik Qərb cəmiyyətlərindəki qədər yüksək deyil. Lakin sekulyarlaşma bir prosesdir. Tamamlanmış bir hadisə deyil. Bu qorxunc mənzərənin fərqinə varmayaraq dünyəviləşmənin ailəyə, dolayısı ilə cəmiyyətə fəlakətdən başqa bir şey gətirməyəcəyini görməsək, kədərli sonluq ilə üzləşməyə hazır olmalıyıq. Çünki ailənin sekulyarlaşması eyni zamanda tükənməsi mənasına gəlir.

> “Sekulyarlaşma bir prosesdir, tamamlanmış bir hadisə deyil.”

## Müqəddəsin sönməsimi? Geri dönməsimi?

Sosioloqlar arasında heç bir şəkk-şübhəsiz qəbul edilən sekulyarizm tezisi 20-ci əsrin sonlarında Peter Berger, Rodney Stark, Daniel Bell kimi bir sıra sosioloqlar tərəfindən mühakimə edilməyə başlandı. Onların fikrincə, din kənarlaşdırılaraq yer üzündən silinmir, tam əksinə, heç bir yerə getməyərək olduğu yerdə qalır. Bu sosioloqlar tərəfindən müdafiə edilən yeni paradiqmaya görə, kilsəyə gedənlərin sayı azalsa da, insanların çoxu ölümdən sonrakı həyata inanır. Sekulyarlaşma tezisi əsassız fikirlərdən ibarətdir və “nəzəriyyə” olmaqdan daha çox bir din halına gətirilmişdir. Bu gün istisnalar olmaqla yanaşı, dini coşqunluq və həyəcan davam etməkdədir, din var olan gücünü qoruyur. İddia edildiyinin əksinə, cəmiyyətlər müasirləşdikcə dinsizləşməmişdir. Elmin inkişafıyla yanaşı, müqəddəsin təsiri azalmamış, artmışdır. Yeni paradiqma müdafiəçilərini iki fərqli kateqoriyada dəyərləndirmək mümkündür: Birincisi müqəddəsin geri döndüyünü deyənlər, ikincisi heç getmədiyini deyənlərdir. İki qrupun da ortaq sözünün isə “çökən din deyil, sekulyarizm nəzəriyyəsidir” olduğunu desək, yanlış olmaz. Yəni müqəddəs nə söndü, nə də geri döndü; müqəddəs baş verənlərin hamısını gördü.

## Yaşlanma yoxdur yalanı

İnsan fitrəti digər aləmlərə, mənəvi olana inanmağa meyillidir. İnanmaqdan daha çox möhtacdır. Enerjisini, canlılığını şəraitə bağlı bir dövr olan gənclik səhifəsinə həbs etməmək üçün sənayeni, texnologiyanı və dizaynı "yaşlanma əleyhinə" adı altında işlər görərək istifadə edir. Bu cəhdlərdən belə insanın qalıcı olmaq kimi bir dərdinin olduğu aşkar olur. Sonsuzluğa həsrət olan insan aid olmadığı bu dünyaya və bu zamana ilişib qalaraq ruhuna əzabdan başqa nə verə bilər ki? Dünyəvi həzlər bir müddət doyursa belə, ən sonda əbədiyyətə olan susuzluğunu yatırmayacaq.

İslam dini heç bir dövrdə insanlara dünyəviləşməni xəyal edilən məqsəd kimi göstərməmişdir. "Əsas olan axirət həyatıdır" deyərək üxrəvi olana, yəni əbədiyyətə təşviq etmişdir. Lakin israrla o biri dünya sözünü vurğulayan İslam bir o qədər də bu dünyaya aid olmağa əhəmiyyət verir. Bir fərqlə ki, bu vəziyyət sekulyarizmdə olduğu kimi sırf dünya həyatını önə çıxarmaq deyil, axirətlə zəruri bir tarazlıq qurmaqdır. Bu tarazlıq imanın tələbidir.

### Nə dərinliklərə baş vur, nə də sahilində qal

İslam bizə "dünya axirətin tarlasıdır" deyərək dünyanın bir sərmayə olduğunu ifadə edərkən "dünya həyatı sizi əsla aldatmasın" xəbərdarlığı ilə bundan da artığını edərək "oyun və əyləncə"dən ibarət olanın dərinliyinə baş vurmamağı bərk-bərk tapşırır. Mehmet Lütfi Arslanın bu tarazlığı çox gözəl izah edən "həyatı əmanət kimi yaşama, sahilində qalma, bir lütf olaraq bax" dediyi "Həyatı sevmək şükürdür" başlıqlı bir yazısı var, maraqlananlara tövsiyə edirik.

## Bu dövrdə günahmı qaldı?

Spirtli içkini tərgidən şəxsdən niyə tərgitdiyini soruşurlar. Günah olduğu üçün belə etdiyini deyincə, aldığı cavab nə olsa yaxşıdır: “Bu dövrdə günahmı qaldı?” Lakin həmin şəxs sağlam yaşamaq, “əzələ yığmaq” üçün buraxdığını deyincə alqış ala bilir. Təsəttürlülər üçün geyimlərdən “sekulyar manto” adlı bir paltardan milyonlarcası satıla bilir. Müqəddəs olanı bayağı görərkən dövrə uyğun – gözəl görünmək, şıq durmaq, xarizmatik olmaq – yeni müqəddəslər çıxarmaq isə sekulyarizmin öz içindəki təzadlarını təkrar-təkrar ortaya qoyur.

## Sel gedər, qum qalar

Biz yenə də ipimizi möhkəm yerə bağlayaq və “əvvəla Allahın adını zikr edək”. Allahın adını zikr etmək onun ölçüləri daxilində yaşamaqdır. Dini öhdəliklərimizdən uzaqlaşmayaq, uzaqlaşdırılmasına izin verməyək. Gündəlik həyatımızı onun cızdığı hüduda riayət edərək yenidən nizamlayaq.

Dünyanın içindəyik, mütləq bir zaman və məkan qeydi var. Buradayıq, buralıyıq. Buranı unutmadan, dünyanın içində qalaraq gözümüzü o biri tərəfə dikək. Yusuf Kaplan Sezai Koç haqqında “dünyanı tanıyan, amma dünyanı tanımadığını elan edən bir insandır” deyir. Şəxsiyyət, xarakter baxımından nə qədər mühüm bir duruşdur.

Nəticədə dini bu həyatdan çıxartmaq demək insanlığı, vicdanı, vəfanı, fədakarlığı, canıyananlığı, hüzuru, yaxşı və gözəl nə varsa hamısını həyatdan çıxartmaq deməkdir. Ən ağrılısı isə əbədi gəncliyi öz əlinlə özündən uzaqlaşdırmaq deməkdir.

# SİONİZM

Dünyanın timsahı

“Bir gün gələcək, İsrailə elə bir şillə vuracağıq ki,
bütün həyatı gözlərinin önündən
**Qəzza zolağı** kimi keçəcək”.

**Nəcməddin Ərbakan**

## Sionizm nədir?

Sionizm kəlməsi “sion” kəlməsindən törəmişdir. Sion isə Qüdsdə olan bir təpənin və bu təpədə yerləşən qalanın adıdır. Sion təpəsi Qüdsün simvolu olaraq qəbul edilmişdir. Sionizm yəhudi millətçiliyini ifadə edir və ən sadə tərifi ilə desək, dünyanın dörd bir tərəfinə səpələnmiş yəhudilərin Ərzi-Məvud (vəd edilmiş torpaq) Fələstin torpaqlarında yenidən toplaşaraq dövlət qurması və Sion dağında yenidən Süleyman məbədini inşa etmək idealına verilən addır.

## Tarixi proses

Yəhudilər xristian Avropasında əsrlərcə təcrid edilərək, ayrı-seçkiliyə məruz qalaraq yaşamışlar. 19-cu əsrdə müasirləşmədən sonra kilsənin sərt rəftarı zəifləmiş, sekulyar zehniyyətin önə çıxdığı ideologiyalar və siyasi baxışlar hökm sürməyə başlamışdı. Bu dəyişiklik nəticəsində xristianların yəhudilərə qarşı davranışları da yumşalmağa başlamışdı.

Orta əsr Avropasının maariflənmə dövründə eyni zamanda milli dövlət anlayışı yayılmışdı. Yəhudilər də bu idarəetmə tərzini əsas götürərək özlərinə aid bir dövlət qurmağı qarşılarına məqsəd qoymuşdular. Avropada təzyiq altında saxlanılan yəhudilər onlara vəd edildiyinə inandıqları torpaqlarda dövlətlərini qurmaq üçün liderlik

edəcək şəxsi gözləməyə başladılar. Bu şəxs bugünkü siyasi sionizmin qurucusu olan macar yəhudisi avstriyalı Teodor Herzl olmuşdur.

## Teodor Herzl nələr etmişdir?

Yəhudilərin ilk məbədlərinin babillilər tərəfindən dağıdılaraq sürgün həyatı yaşamaları "sion"un vəd edilmiş torpaqlara qayıdışın simvolu kimi qəbul edilməsinə səbəb olmuşdur. Sionizm milli bir hiss kimi ifadə edilərkən, Teodor Herzl isə ona Fələstin üzərində yəhudi dövləti qurmaq şəklində məna vermişdir.

## İlk sionist konqresi

Herzl bu idealı həyata keçirmək üçün müxtəlif addımlar atmışdır. Varlı yəhudilərdən dəstək almaq istəmiş, ancaq axtardığı dəstəyi xalqdan görmüşdü. 1897-ci ildə İsveçrənin Basel şəhərində üç gün davam edən Birinci Sionist Konqresini topladı. Bu konqresdə demək olar ki, hər sosial təbəqədən olan yəhudiləri bir yerə toplayaraq kiçik miqyaslı bir yəhudi cərəyanı yaratdı. Dünya Sionist Təşkilatının təməli bu konqresdə qoyulmuş, özü də sədrliyini etmişdir.

> Sionizm milli bir hiss kimi ifadə edilərkən, Teodor Herzl isə ona Fələstin üzərində yəhudi dövləti qurmaq şəklində məna vermişdir.

## Bu gün qəhqəhə çəkərlər, amma...

Ergün Gözenin "Sionizmin qurucusu Teodor Herzlin xatirələri və Sultan Abdülhamid" kitabının 54-cü səhifəsinə görə, ona aid olan xatirə dəftərinə bu cümlələri yazıb: "Mən bu gün Baseldə yəhudi dövlətini təsis etdim. Mən bunu bu gün yüksək səslə desəm, bütün dünyadan bir qəhqəhə tufanı qopar. Lakin bundan bəlkə beş il sonra, bəlkə də əlli il sonra mütləq hər kəs bunun belə olduğunu anlayacaqdır".

## Mən canlı bir bədən üzərində əməliyyat aparılmasına izin verməyəm

Herzl yəhudilərin Fələstinə köçməsini təmin etmək məqsədi ilə II Abdülhamidi razı salmaq üçün xeyli çalışmışdır. Hətta Fələstin torpaqlarının əvəzində çətin vəziyyətdə olan Osmanlı maliyyəsinin düzəldilməsini təklif etmişdir. Abdülhamid xan Herzlə göndərdiyi cavabda bu torpaqların ona aid olmadığını, millətin qanı ilə alındığını və ancaq qanla sulanaraq verilə biləcəyini deyib. Hökmdarın ən təsirli cümləsi isə bu olmuşdur: "Mən canlı bir bədən üzərində əməliyyat aparılmasına izin verməyəm".

## Sionizmin məqsədinə çatması üçün Osmanlı dövlətinin dağılmasını gözləməliyik

II Abdülhamid xan yəhudilərin Fələstinə köçməsinin qarşısını almaq məqsədi ilə müxtəlif tədbirlər görmüşdür. Tayyar Arının "Keçmişdən dövrümüzədək Orta Şərq: Siyasət, müharibə və diplomatiya" kitabının 119-cu səhifəsinə görə, bütün təşəbbüsləri nəticəsiz qalan Herzl xatirə

dəftərinə "Sionizmin məqsədinə çatması üçün Osmanlı dövlətinin dağılmasını gözləməliyik" cümlələrini yazmışdır.

## Balfur deklarasiyası

İngiltərə Sionist Dərnəklərinin sədri lord Rotşild 19 iyun 1917-ci ildə İngiltərə xarici işlər naziri Balfura öz imzası ilə təqdim etdiyi məktubda üç mühüm təklifi irəli sürmüşdür. Birincisi Fələstinin yəhudilərin vətəni olması, ikincisi yəhudilərə məhdudiyyət qoyulmadan buraya köç etmə imkanı, üçüncüsü isə yəhudilərin burada öz-özlərini idarə etmələridir. Xarici işlər naziri Balfur verdiyi cavabda "İngiltərə Fələstində yəhudi xalqı üçün bir milli yurdun təsis edilməsini müsbət qarşılayır" şəklində cümlə qurmuşdur. Fələstində bir yəhudi dövlətinin olması işlərinə yaradığı üçün ABŞ, Fransa və İtaliya tərəfindən də dəstəklənmişdir. Bundan sonra Fələstinə yəhudi köçləri artmışdır. Üstəlik, siyasi sionizm ilk vaxtlar inandırıcı hesab olunmadığı üçün Qərb dünyasındakı varlı yəhudilər tərəfindən dəstəklənməmişdi. Ancaq 1917-ci ildə yayımlanan Balfur deklarasiyasından sonra dəstəkləndi.

## Osmanlının açdığı qucaq

Sürgün həyatı yaşayan yəhudilərdən müsəlman ölkələrində həyatlarını davam etdirənlər dinc və əmin-amanlıq içində yaşadıqları halda, Avropada ömür sürənlər inanclarına və mədəniyyətlərinə görə sürəkli təzyiqə və təcrid edilməyə məruz qalmışdılar. İngiltərə, Fransa, İspaniya, Portuqaliya kimi ölkələrdən qovulmuşdular. Bəzi yəhudilər xristianlığı qəbul edibmiş kimi davranaraq dinlərini gizlətməyə məcbur olmuşdular. Təcrid edilən yəhudilərin

bir qismi Hollandiyaya sığınmış, bir qismi Osmanlıya köçmüşdü.

## Antisemitizm

Antisemitizmə yəhudi əleyhdarlığı ya da yəhudi düşmənçiliyi kimi tərif verilir. Bir növ irqçilikdir. Yəhudilərin aralarına qarışdıqları xalqların dinc həyatlarını, nizamlarını korlamaları səbəbi ilə təcrid edilmələrini ifadə edir. 19-cu əsrdə canlanan antisemitizm ilə birlikdə bir çox Avropa ölkəsində yəhudi düşmənçiliyi vüsət almağa başlamışdı. Rusiyada ikinci dərəcəli vətəndaş kimi davranılırdı. Çarın öldürülməsindən sonra Rusiyada ifrat dərəcədə yəhudi düşmənçiliyi başladı və yəhudilərin kütləvi şəkildə köçünə səbəb oldu. Almaniyada Hitlerin iqtidara gəlməsi ilə yəhudi soyqırımı başladı  və Fələstinə köçlər özünün ən zirvə həddinə çatdı.

## Fələstin əsla xalqsız bir torpaq deyildi

Fələstindəki ingilis mandatı hakimiyyətinin ardınca 1948-ci ildə İsrail bir dövlət kimi tarix səhnəsində boy göstərməyə başladı. Bu tarixdən etibarən Ərəb-İsrail müharibələri başladı. Sionizmin prinsiplərindən olan “Torpaqsız bir xalq xalqsız bir torpağa girəcək” ifadəsi isə Fələstin torpaqlarındakı xalqı itələyərək özünə yer açmaqdan başqa bir məna daşımır. Çünki yəhudilər torpaqsız bir xalq idi, lakin Fələstin əsla xalqsız bir torpaq deyildi.

## Qorxutma siyasəti

Sionist İsrail müsəlmanların bombalar və müxtəlif zorakı metodlarla ya canlarını alır, ya da ticarəti baltala-

yaraq, yaşadıqları evləri qanunsuz şəkildə mənimsəyərək, qanunsuz həbslərlə, müsəlmanların müqəddəs saydıqlarına zərər verməklə onları təhrik edərək fələstinlilərə öz torpaqlarını dar edir. Bununla yanaşı, ölkəyə gələn müsəlmanlara hələ ölkənin girişində başlayan bir sıra gözünü qorxutma siyasəti və psixoloji təzyiq taktikaları tətbiq edir. Pasport yoxlanışı zamanı səbəbsiz gözlətmələr, təhlükəsizlik bəhanəsi ilə saatlarca davam edən təfərrüatlı axtarışlar, qanunsuz həbslər, təhlükəli hesab etdikləri şəxsləri deportasiya etmələri, ziyarət yerlərinə turniketlərdən və x-ray cihazlarından keçərək giriş izni verilməsi və ağıla-məntiqə sığmayan daha bir çox şeylərlə üz-üzə qalınır. Bütün bunlardan bircə məqsəd güdülür: müsəlmanları təhrik edərək xaos yaratmaq, öldürərək, ya da köçə məcbur edərək ölkədəki müsəlman əhalinin sayını azaltmaq, öz hökmünü yeritmək üçün zəmin hazırlamaq, ölkədə müharibə olduğu görüntüsü yaradaraq Fələstin torpaqlarına müxtəlif ölkələrdən gəlmək istəyən müsəlmanları fikrindən daşındırmaq və müsəlmanların bir-biriləri ilə görüşməsini əngəlləyərək güclənmələrinə mane olmaq.

## Yəhudilərin əsas düşməni sionistlərdir

Mövzunu araşdırarkən "hər yəhudi sionistdirmi" sualını verməsək, yarımçıq qalar. Hər nə qədər "sionisti də, yəhudisi də – hamısı eynidir" deyənlər olsa da, yəhudilərin içində də sionizmi qəbul etməyən bir təbəqə vardır. Qara papaqları  və qıvrım saçları ilə diqqətimizi çəkən – dindar mənasına gələn – hasidik yəhudilər də bu qrupdandır. Sionizmin hər hansı bir müqəddəsliyinin olmadığını düşünən hasidiklər yəhudiləri iki qrupa ayırırlar: sionist yəhudilər və sionist olmayan yəhudilər. Dini həyatlarında

son dərəcə həssasdırlar. İşğalçı İsraili quran sekulyar yəhudilərdən özlərini ayırırlar. Allah tərəfindən qadağa qoyulan torpaqlarda yaşamağa günah kimi baxırlar. Müsəlmanlarla sülh içində yaşaya biləcəklərini deyirlər. Avropadan sürgün edilərək Osmanlının qəbul etdiyi yəhudilərin hasidik yəhudilər olduğu tarixi məlumatlar arasında mövcuddur. Hasidikləri Mavi Mərmərə hadisələrində Türkiyəyə verdikləri dəstəklə də xatırlayırıq.

İslam Həmrəyliyi Təşkilatının (İHT) Qüds gündəmi ilə İstanbulda toplanan Liderlər Zirvəsində çıxış edən İran İslam Respublikasının prezidenti Həsən Ruhani də bu cümlələrlə vəziyyəti ifadə etmişdir: "Bu gün hər kəs yəhudilərin düşməninin müsəlmanlar və ərəblər olmadığını, əsas düşmənin təhlükəli sionizm layihəsi olduğunu bilir. Biz müsəlmanlar, xristianlar və yəhudilər bu bölgənin tarixi sahibləriyik. Yad olan sionistlərdir. Keçən əsrlərdən bəri bölgəyə terrorizm və zorakılıq toxumlarını əkənlər sionistlərdir".

**NƏ DEDİLƏR?**
Nəcməddin Ərbakan

**Sionizm bir timsah kimidir**

Nəcməddin Ərbakan 20 iyun 2009-cu il tarixində D-8-in qurulmasının 12-ci ildönümündə etdiyi çıxışda sionizmi bir timsaha bənzədərək bu cümlələri qurmuşdu:

"Birləşmiş Millətlər Təşkilatı sionizmin qurumudur. Müsəlman ölkələrin bu quruma daxil olmaması lazım gəlir. Rol oynayırlar. Baş verənləri görmürsünüzmü? Birləşmiş Millətlər Təşkilatı, UNESCO, Dünya Bankı onların qurumlarıdır. Bu necə dünyadır? Belə bir dünyadan xeyir gəlməz. Bunun dəyişməsi lazımdır. Sionizm bir timsah halındadır. Üst çənəsi Amerikadır. Alt çənəsi Avropa Birliyidir. Quyruğu İsraildir. Bədəni bir sıra müsəlman ölkələrin rəhbərləri, media qurumları, iş adamlarıdır. Bunların qarşısında tamaşaçı kimi qalmaq mümkündürmü? Bu səbəblə yeni bir dünya qurmağa məcburuq".

## Xülasə, nəticə olaraq

### Qərbdən göründüyü kimi günahsız deyil

Sionizm Qərbdə özlərinə bir ölkə əldə etmək istəyən yəhudilərin günahsız bir ideologiyası kimi qəbul edilir. Vətən naminə mübarizə aparmaq ağlabatan ola bilər, lakin amansızcasına zorakılığın hər növündən sonuna qədər istifadə edərək burada yaşayan müsəlman ərəb xalqını yox saymaq, etnik təmizləmə aparmaq və qanunsuz koloniyalaşma yolu ilə getmək məntiqli və qanuni deyildir.

### Dağdan gəlib bağdakını qovmaq

Sionistlərin Fələstinə köçmələri bölgədəki saysız-hesabsız problemin mənbəyi olub. Çünki məskən saldıqları yerlərin yerli əhalisi ilə qaynayıb-qarışaraq dinc yaşamayıblar, insanları vətənlərindən sürgün etmiş, yox saymışlar. Müsəlmanlara aid saysız-hesabsız kəndi xəritədən siliblər. Vətən sahibi olmaq üçün milyonlarca insanın vətənsiz qalmasına səbəb olublar. Necə deyərlər, dağdan gəlib bağdakını qovublar.

### Məqsəd sadəcə Fələstin deyil

Unutmamaq lazımdır ki, radikal sionizmin yeganə hədəfi Fələstin torpaqlarında bir vətən qurmaq deyil, bundan daha çoxudur. Ümumən bütün dünyada hakimiyyəti ələ almaq, nəzarət altında saxlamaq və güc mənbələrinə sahib olmaq kimi hədd-hüdud tanımayan bir ehtirasla bütün dünya sülhünə qəsd etməkdir. Sionizmə qarşı aparılacaq mübarizə sadəcə Orta Şərqdə yerləşən müsəlmanların deyil, ağıl, anlayış, vicdan sahibi olan hər ölkənin məsuliyyəti altındadır.

## Bunlar paranoyadır

İşğal polisinin paranoya halları Fələstin torpaqlarına gələn hər ağıl sahibinin açıq-aşkar görəcəyi bir vəziyyətdir. Hava limanına enər-enməz başlayan gərəkli-gərəksiz suallar, saatlarca çəkən sorğu-suallar, hər hərəkətinizə, hər baxışınıza öz bildikləri kimi məna verən əhvali-ruhiyyələri, çantanızda olan ən zərərsiz əşyaya belə müəyyən mənalar verməkləri psixoloji vəziyyətlərinin normal olmadığını, sürəkli qorxu və bu səbəblə tədbirli hərəkət etmələri paranoyalıqlarını ifşa edir.

## Öz kəlmələrimizlə adlandıraq: Beytül-müqəddəs

Bir müsəlman olaraq öz məfhumlarımıza sahib çıxmadıqca salamatlığa çıxmağımız da mümkün görünmür. Bu baxımdan Fələstin bölgəsini hədisi-şərifdə sözügedən ifadə ilə "Beytül-müqəddəs" kimi ziyarət etməyimiz xüsusi bir əhəmiyyətə malikdir. Allah Rəsulu Beytül-müqəddəsə getməyi və orada namaz qılmağı təşviq etmişdir. "Bəs gedə bilməsək?" sualına cavab olaraq isə çıraqlarında yandırılması üçün zeytun yağı göndərməyi, oranı işıqlandırmağı məsləhət görmüş, bunun orada olmaqla eyni olduğunu ifadə etmişdir. Zeytun yağı bugünkü mənasıyla hüzuru və sülhü bərqərar edən hər cür əluzatma kimi yozula bilər.

## Xəcalət divarlarının acığına

Hazırda sionist İsrail xüsusilə türklərin ölkəyə girişində ciddi çətinliklər yaratsa da, bizim öhdəmizə düşən əsas iş şəxsən getmək, görmək, o qədər zorakılığa, qətlə rəğmən o ilahi ab-havanın varlığını hiss etməkdir. Gənci,

yaşlısı, uşağı – heç bir fərqi yoxdur – Beytül-müqəddəs əhalisinin ehtiyacı olan ən önəmli şeyin bərabərlik hissi, ən çox kədərləndirən şeyin də tək-tənha qalıbmış kimi hiss etmək olduğunu bir-birimizə xatırlatmağa məcburuq. Ölkəni parça-parça edən "Xəcalət divarları"nın acığına qəlbimizlə və bədənimizlə orada olmalıyıq. Onların bizə ehtiyacı varmış kimi görünsə də, bizim onların və oraların dərinliyinə, müqavimətinə, enerjisinə ehtiyacımız olduğunu təkrar-təkrar xatırlamağımız gərəklidir.

## Məlumata əsaslanan yanaşma vacibdir

Sionizm və Beytül-müqəddəs haqqında danışılacaq və yazılacaq bir dünya dolusu mövzu var. Biz burada yenə giriş mahiyyətində bir neçə kəlmə demiş olduq. Bu qədər ağrılı bir məsələmiz varkən sadəcə duyğulanmaq və ah-vay etməklə kifayətlənməməli, məlumata əsaslanan yanaşmanı ortaya qoymağın vacibliyini bildirməliyik. Sionizmin qanunsuz işğalından qurtulmuş, hüzur və salamatlıq yurdu olmuş Beytül-müqəddəsin oxuyub araşdırmaq, anlamaq, müqtəsəbat (yəni əldə edilmiş, qazanılmış bilik) sahibi olmaqla əldə olunacağını idrak etməliyik.

"Ölkəni parça-parça edən "Xəcalət divarları"nın acığına qəlbimizlə və bədənimizlə orada olmalıyıq."

# ŞOVİNİZM

Gəl hansımızın üstün olduğunu heç müzakirə etməyək

Ən əsası bir yerdə yaşama mədəniyyətini
həyat tərzinə çevirməkdir.

## Şovinizm nədir?

Tarixi məlumatlara görə, şovinizmin ortaya çıxması bu şəkildə nəql edilir: Napoleonun ordusunda xidmət edən Nikola Şouvin adlı bir əsgər varmış. Şouvin 17 dəfə ölümdən döndüyü halda döyüşməkdən əl çəkməmiş, vətəninə, millətinə ifrat dərəcədə bağlı olduğunu göstərmişdir. Hadisə bu cür olsa da "şovinizm"in bir məfhum olaraq yaranması əsasən bir pyes ilə baş tutmuşdur. 1831-ci ildə səhnələşdirilən "La Cocarde Tricolore" adlı komediyada Şouvin bir rol kimi, şovinizm isə bir termin kimi ilk dəfə işlədilmişdir.

Şovinizmin mənası haqqında Türk Dil Qurumuna baxdıqda isə "öz millətini önə çıxararaq müxtəlif irq və millətlər arasında düşmənçilik yaratmağı qarşısına məqsəd qoyan və bu yolda təhrikedici hərəkətlər edən ifrat cərəyan" tərifi ilə qarşılaşırıq.

Hazırkı dövrümüzdə "özünə aid olanın ifrat dərəcədə ucaldılması, kənara itilənin isə sahib olduğu eyni qabiliyyətlərə yuxarıdan aşağı baxılması" kimi daha ümumi bir məna qazanmışdır. Xüsusi olaraq bildirilmədikcə öz millətini üstün görmək, başqalarına aqressiv münasibət göstərmək, nüfuzdan salmaq, üstünlüyünü qəbul etdirmək üçün zorakılığa, qətliama üz tutmaq mənaları daşıyır. Daha yığcam ifadə edəcək olsaq, irqçilikdir.

## Ağıla gətirdiyi bəzi məfhumlar

Şovinizm məfhumunun birlikdə xatırlandığı, yaxud yada saldığı bəzi məfhumlar vardır.

## Millətçilik ayrı, şovinizm ayrı

Millətçilik məfhumu şovinizm ilə qarışdırılmamalıdır. Millətçilik hər hansı bir şəxsin millət və ölkəsinin maddi-mənəvi mənfəətini hər şeydən öndə tutmaqdır. Bu, insanın təbiətində olan bir hissdir. Şovinizmdə radikal və təəssübkeş bir millətçilik anlayışı vardır. Öz millətini/irqini bütün millətlərdən üstün tutmaq və digərlərini yox etmək üçün hər cür yolu münasib görmək anlayışı hakimdir.

## Faşizm də fərqli deyil

Faşizm məfhumu da şovinizm deyilincə ağıla gələn məfhumlardandır. Faşizm İtaliyada Benito Mussolininin öncülü olduğu siyasi ideologiyadır. Öz fikrini yüksəldərək qəbul etməyənləri zor gücü ilə özünə tabe etdirməyi mənimsəyən dünyagörüşüdür. Təşkilatlanmış zorakılıq yolu ilə ona müxalif olanları təzyiq altında saxlayır.

> “Millətçilik məfhumu şovinizm ilə qarışdırılmamalıdır. Millətçilik hər hansı bir şəxsin millət və ölkəsinin maddi-mənəvi mənfəətini hər şeydən öndə tutmaqdır. Bu, insanın təbiətində olan bir hissdir. Şovinizmdə radikal və təəssübkeş bir millətçilik anlayışı vardır.”

## Ha əsəbiyyət, ha şovinizm

Əsəbiyyətə aralarında qan qohumluğu olan şəxslərin bir-birilərinə ifrat bağlılığı və hər vəziyyətdə bir-birilərini qorumalarını təmin edən birlik və həmrəylik ruhu kimi tərif verilə bilər. İbn Xəlduna görə, əsəbiyyət eyni soy-kökdən gələn şəxslərin yardımlaşma və təhlükələrə qarşı birləşməsidir.

İslamaqədərki ərəb cəmiyyətində qəbiləçilik anlayışı geniş yayılmışdı. Təbii yaxınlıq artdıqca əsəbiyyət də artırdı. Öz soyundan olanlar üstün hesab edilir, haqlı-haqsız olmasına fərq qoymadan başqalarına qarşı qorunurdu. Ancaq islamiyyətin gəlişiylə birlikdə əsəbiyyət, yəni qövmçülük rədd edilmişdi. Allah Rəsulu hədislərində bir şəxsin qövmünü sevməsinin asabiyət (irqçilik) sayılmayacağını, lakin qövmü başqalarına zülm edərkən ona yardım etməyin əsəbiyyət olduğunu bildirmişdir. “Əsəbiyyət  davasına qoşulan bizdən deyildir” deyərək və başqa bir çox hədisi-şərifi ilə irqçiliyi qadağan etmişdir.

## Qəbilə qardaşından din qardaşına

Şərq üzrə alim və Fuat Sezginin həyatında mühüm bir yeri olan ustadı Helmut Ritter “qəbilə qardaşı” məfhumunun İslamla birlikdə “din qardaşı” məfhumuna çevrildiyini deyir.

## Şovinizm hər yerdə!

Şovinizm məfhumunun çıxış nöqtəsi irqçilik olsa da, zaman keçdikcə fərqli sahələrdə də istifadə edilmişdir. Məsələn, kişi şovinizmi. Kişilərin sadəcə cinsiyyətlərinə görə anadangəlmə üstünlüyə sahib olmaları və bu seçil-

mişlik inanclarını öz mənfəətləri üçün işlətmələri mənasındadır.

Şovinist kəlməsinin digər forması da din sahəsindədir. Müəyyən bir dinə mənsub olanların öz dinlərinin digərlərindən üstün və ali olduğuna inanmaları kimi qarşımıza çıxır. Memarlıqda da şovinist bir cərəyanla qarşılaşırıq. Bir qrupun yaratdıqları əsəri ən gözəl kimi görməsi və hər dəfə bunu dilə gətirmələri kimi tərif vermək mümkündür.

Məzhəb şovinizmi də qarşımıza çıxan bir başqa sahədir. Bir məzhəbə aid olanların öz məzhəblərini ən doğru yolda və ən üstün olaraq görməsidir.

Şovinizm elə bir məfhumdur ki, insan hansı sahədə özünü üstün görürsə, orada dövriyyəyə girir. İş yeri şovinizmi, peşə şovinizmi, mədəniyyət şovinizmi, ya da qadın şovinizmi kimi siyahı uzanaraq gedir.

## Təsiri dövrümüzədək gəlib çatan şovinist tətbiqlər

## Bir başqa baxımdan Çin işgəncəsi

Çin hakimiyyətinin bölgədə yaşayan uyğur türklərinə qarşı təzyiqedici siyasət yürütməsi tarixdən dövrümüzədək gəlib çatan şovinist münasibət kimi davam edir. Çin insan haqlarının pozulması və assimilyasiya siyasətləri ilə bölgədə yaşayan müsəlmanların ibadət və dinlərini məhdudlaşdırma, hətta qadağalar qoyma yolunu tutmuşdur. Çin Xalq Respublikası problemi terrorla açıqlamağa və ört-basdır etməyə cəhd etsə də, bu problem qlobal miqyaslı bir məsələyə çevrilmişdir.

## Adını eşitmək belə bəs edir: nasistlər!

Nasistlər alman irqi olan ariliyi ən üstün irq kimi görürdülər və özlərindən başqalarına ikinci dərəcəli insan münasibəti göstərirdilər. Almaniyada 1933-1945-ci illərdə Nasional Sosialist Partiyası iqtidara gəldikdən sonra milyonlarca insan faşist düşərgələrinə gətirilmiş və amansızlıqla öldürülmüşdür. Nazi rejimi çöksə də, bugünkü Almaniyada bu düşüncə neonasizm adı ilə hələ də varlığını davam etdirir.

## Çərkəz gözəli, toyuğu və sürgünü

Çar Rusiyasının əhali siyasəti nəticəsində bir milyon yarım çərkəz öz vətənləri Qafqazdan sürgün edilmişdir. Sürgün əsnasında yol şəraiti, yoluxucu xəstəliklər, aclıq kimi səbəblərə görə ciddi itkilər verilmişdir. Daha çox Anadolu və Rumeli, oradan da Suriya və İordaniyaya səpələnən çərkəzlər Rusiyadan üzr istəməsini gözləyir, 21 may tarixinin "Çərkəz soyqırımı və sürgünü" kimi anılmasını istəyirlər.

## "Devrilməyə layiq Moskva"

Stalinin rəhbərliyi ilə Sovet İttifaqı 1944-cü ildə Gürcüstanın Axısqa bölgəsində yaşayan türkləri "sərhəd təhlükəsizliyini təhdid etmələri" bəhanəsi ilə sürgün etmişdi. Qatar vaqonlarında, qeyri-insani şəraitdə aclıq və natəmizlik içində vicdansız davranışlarla sürgün edilən Axısqa türkləri xeyli itki vermişdir. Türkiyə, Azərbaycan, Ukrayna, Gürcüstan, Özbəkistan, Qazaxıstan, ABŞ və başqa fərqli yerlərə səpələnən Axısqa türklərinin əzabları, problemləri bu gün də davam edir.

## Dövrümüzdə şovinizm

Şovinizm, təəssüf ki, sadəcə keçmişdə yaşanmış və bitmiş bir cərəyan deyil. Bir çox ölkədə hələ də irqinə, dilinə, dininə, rənginə görə şovinist təzyiqlərə məruz qalan insanlar var.

## Qüds geri çəkilməyəcək!

Heç aktuallığını itirməyən Qüds məsələmiz bunun ağrı-acılı bir nümunəsidir. Sionistlərin özlərini ağa, başqalarını xidmətçi hesab etmələri bizə məlumdur. Onların fikrincə, "insan" sadəcə yəhudidir. Bu səbəblə tarix boyunca heç bir millətlə yola gedə bilməyiblər. Əllərinə keçən fürsətdən pis məqsədlərlə istifadə ediblər. Qüdsdəki sionistlər hər fürsətdə nifrət saçan ifadələrlə ərəblərə hücum edirlər. Qorxutma siyasəti və ölkəni parçalama yolu ilə bir millətin gözünü qorxudub geri çəkilməsini istəyirlər. İsrail zülm və zorakılıqdan doymayan şovinist hərəkətləri ilə qan tökməyə davam edir.

## Norveç

Norveç də şovinist davranışları ilə gündəmdən düşməyən bir ölkədir. Ölkədə irqçiliyi qızışdıran yayım orqanları fəaliyyətini davam etdirdiyi, mühacirlərə təhsil və iş imkanları məsələlərində yetərincə kömək etmədiyi üçün Avropa Birliyindən daha bir xəbərdarlıq alıb. İslamofobiyanın yüksəlişi ilə də mənasız bəhanələrlə sistemli şəkil-

> "Şovinizm, təəssüf ki, sadəcə tarixdə yaşanmış və ömrünü başa vurmuş bir cərəyan deyil."

də zorakılıqdan istifadə etmək küçədə gündəlik həyatın bir hissəsinə çevrilib.

1979-cu ildə ailəsi ilə birlikdə Norveçə işçi statusu ilə gedib yaşamağa başlayan Osman Celayir adlı Norveç vətəndaşı olan bir türk Norveçin şovinist hərəkətlərini öz həyatını nümunə kimi göstərərək qələmə almış və kitab şəklində çap etdirmişdir. *"İrqçiliyə xeyr, Norveç polisini dayandırın"* adlı kitabını tanıtmaq məqsədilə tədbirlər keçirərkən Norveç polisinin etirazı ilə üzləşir. Sadəcə bu nümunədən belə məlum olur ki, Norveçin şovinist hərəkətləri bir kitaba mövzu olacaq qədər çoxdur.

## Türkiyədə vəziyyət

Çox da uzaqlara getmədən bir də ətrafımıza göz gəzdirək. Suriyada başlayan müharibəyə görə mühacir həyatı yaşamağa məcbur olan suriyalılara ölkəmiz qapılarını açmış və müxtəlif cür imkanlarla təmin etmiş olsa da, müəyyən bir təbəqə bu vəziyyətə görə artıqlaması ilə narahat olur. "Suriyalıları ölkəmizdə istəmirik" kampaniyalarına başlayan bu təbəqə mühacir vəziyyətində olan bu insanları bir təhdid kimi dəyərləndirir. Bəzi qondarma sənətçilər, yazarlar, siyasətçilər qızışdırma siyasətləri ilə insanlar arasında nifaq toxumu səpməyə çalışırlar.

Ən başda dinimizin, sonra mədəniyyətimizin tələbi kimi suriyalıların qardaşlarımız olduğunu unutmamalı, ənsar-mühacir münasibətini yaratmağa çalışmalıyıq. Üstəlik, köç öz-özlüyündə nə yaxşıdır, nə də pis. Yaxşı idarə edildiyi təqdirdə mühacir də, ev sahibi də qazanclı ola bilər. Yetər ki, mərhəmətimizə, insanlığımıza sığınan bu insanları kənarlaşdıraraq pis əməlli silahlı qruplaşmaların

ümidinə buraxmayaq. Getto şəklində yaşamalarına səbəb olmayaq. Və daha da önəmlisi, o biri dünyaya inanan müsəlmanlar olaraq hesabımızı asan verək.

## Bir dünyadan başqa bir dünyaya Samiha Ayverdi




Samiha Ayverdi "Bir dünyadan başqa bir dünyaya" adlı kitabının 45 və 46-cı səhifələrində İslamın ruhunda şovinizm olmadığını bu sətirlərlə izah edir: "Bu ilk İslam yürüşü bir ideologiya səfəri idi ki, ordular ilk getdikləri yerə Kəlimətullahı aparır, müsəlmanların birliyə inamını, insaf əxlaqını, ictimai və iqtisadi nizam və əmrlərini daşıyır, əsla imperialist əməllər güdmür, öz dinlərini mühafizə etmək istəyənlərə təzyiq etmir, xülasə, irq və milliyyət fərqi qoymadan haraya üz tutsalar, sezarizmin zərbələri altında əzilən Şərq qövmlərini sanki ovsunlayır, özlərinə yeni dindaşlar qazanırdılar.

İslamın ruhunda imperializm və şovinizm yox idi. Ona görə də ictimai nizam haqq və ədalət ünsürünü hər irqə, hər məzhəbə və hər sinfə bol-bol paylayır, ibadət səflərində hökmdarla hambalı yan-yana qoyurdu".

## Və indi də reklamlar

Böyük bir geyim mağazasının reklam plakatında zənci uşağın əyninə "meşələrin ən şıq meymunu" yazılı bir köynək geyindirməsi sərt reaksiyalara yol açdı. İrqçilik etdiyi

üçün sosial mediada həmin geyim markasını boykot çağırışları edildi. Cənubi Afrikada bir qrup fəal mağazanın bəzi şöbələrini yerlə-yeksan etdi. Nəticədə mağaza üzr istədi, köynəyin satışını dayandırdı və o fotoşəkli saytından sildi.

## “Xülasə, nəticə olaraq”

Şovinizmin psixologiyasına baxdıqda insanın özünü mərkəzə qoyaraq bir “başqası” məfhumunu yaratması tarixin bizə təqdim etdiyi məlumatlardan bəllidir. Özünə təhdid olaraq gördüyü bu “başqası” ünsürünü “yad” kimi qəbul edir və qeyri-insanilәşdirərək düşmən bilir. Bu səbəbdən kiçik bir səbəb belə toqquşma üçün yetərli bəhanə olur. İnsanlar istər dar bir çərçivədə bir fərd olaraq, istərsə də geniş çərçivədə bir millət olaraq hökm etmək, sözünü keçirmək cəhdiylə zülmü mənimsəyir və çox təəssüf ki, yeganə çıxış yolu imiş kimi bunu normallaşdırır. Bu nəzərlə baxıldıqda gücün müqəddəsləşdirilməsi qaçılmaz olur.

Halbuki ən əsası bir yerdə yaşama mədəniyyətini həyat tərzinə çevirməkdir. Hansı irq, dil, din, məzhəb, rəng olduğuna baxmadan hüzurlu bir şərait yaratmaq üçün qarşısındakının hisslərini anlamaq, özünü onun yerinə qoymaq və qarşılıqlı şəkildə əmək sərf etmək lazımdır. Bu isə ancaq ümumən digər dini təlimlərin pozulmamış hallarına, şəxsən isə kainatla bağlı olana və qiyamətə qədər hökm sürəcək tək din olan İslamın bəxş etdiyi həyat tərzinə etibar etməklə mümkündür.

İslam bizə üstünlüyün ancaq təqvada olduğunu deyir. Təqva isə Allaha qarşı məsuliyyətin şüuruna varmaqdır.

İnsanın yaradıcısına qorxudan daha çox sevgiylə itaət etməsidir. Nəyə məruz qalırsa qalsın, insanın inciməməsi və incitməməsidir. Özünə edilməsini istəmədiyi şeyi başqasına etməməsidir.

Necə ki, insan başqa bir millətin öz millətinə böyükcəlik etməsini, haqsız yerə zülmünə məruz qalmağı, sanksiyaları ilə qarşılaşmağı istəmirsə, özü də bu cür səhv hərəkətlərdən uzaq durmalıdır. İrqçi hisslərini bəsləyəcək mühitlərdən, kitablardan, söhbətlərdən özünü qorumalıdır. İradəsini birliyi, yardımlaşmanı, səmimiyyəti təlqin edən mühitlərin lehinə istifadə  etməlidir.

## Ölülərinin sayı ilə öyünənlər qınanmışdır

Hucurat surəsində insanın bir dişi və bir erkəkdən yaradıldığı, tanış olmaları üçün qövmlərə ayrıldığı ifadə edilmişdir. Üstəlik, Allah Rəsulu Vida xütbəsində buyurur: *"Ey insanlar! Rəbbiniz birdir. Babanız da birdir. Hamınız Adəmin övladlarısınız. Adəm isə torpaqdandır. Allah yanında ən qiymətli olanınız Ondan ən çox qorxanınızdır. Ərəbin ərəb olmayandan təqvadan başqa üstünlüyü yoxdur"*. Təkasür surəsində məzarlıqdakı ölülərinin sayları ilə öyünənlər qınanmışdır. Bu və bu kimi çoxlu ayə və hədis ilə şovinist hərəkətlər rədd edilmişdir.

Mədəniyyətimizin ən gözəl təmsilçilərindən Yunus Əmrə, Mövlana, Hacı Bektaşi Vəli, Karacaoğlan, Aşıq Veysəl kimi möhtərəm simalar insanlıq məxrəcində görüşməyin zərurətini əsərlərinin mərkəzinə qoymuşlar.

## Gizli şovinizm də olur

"Mən şovinist deyiləm, nə irqimi, nə də başqa bir özəlliyimi kimsədən üstün bilmirəm" deyən hər kəs özünü bir daha nizamlı fasilələrlə gözdən keçirməlidir.

Davranışlarını, danışıqlarını, reaksiyalarını bəyənmədiyi bir şəxsə "cahil", "kəndli" və sairə sözlərlə lağ edən bir şəxsin bir addım sonra şovinist olmayacağına əmin ola bilməzsən. Bu gün özünü "şəhərli", "müasir" kimi tanıdaraq üstün görən, çöllük ərazilərdə yaşayanlara yuxarıdan aşağı baxaraq sosioloji və psixoloji baxımdan əzməyə çalışan bir təbəqənin varlığı inkar edilə bilməz. Cəmiyyətin hər təbəqəsində olsa da, xüsusilə gənclər arasında bu cür ayrı-seçkiliklər çox yayılıb. Ayrı-seçkiliyin, təcrid etmənin, düşmən yaratmağın gücləndiyi bu dövrdə qardaşlığı, birlikdə yaşamağı, mədəniyyətlərin qaynayıb-qarışmasını, fərqliliklərin zənginliyini, birlikdən doğan güc və xoşbəxtliyi dünya həyatının ən böyük neməti olaraq görmək vacibdir.

Unutmamalıyıq ki, bu hiss fərddə başlayır, cəmiyyətə yayılır. Bu mənada hər bir fərd "insanlığın gələcəyi mənim ailəmlə, yoldaşlarımla, qonşumla yaratdığım münasibətin səmimiyyətindən və keyfiyyətindən asılıdır" şüuru ilə şovinizmin tələsinə düşməkdən imtina etməlidir.

> Ayrı-seçkiliyin, təcridetmənin, düşmən yaratmağın gücləndiyi bu dövrdə qardaşlığı, birlikdə yaşamağı, mədəniyyətlərin qaynayıb-qarışmasını, fərqliliklərin zənginliyini, birlikdən doğan güc və xoşbəxtliyi dünya həyatının ən böyük neməti olaraq görmək vacibdir.

## Mündəricat

**NİHİLİZM**
Mənasız və məqsədsiz bir heç deyilik .................... 9

**HEDONİZM**
Əsas qayə həzz almaq deyil, həzm etməkdir ........ 25

**İMPERİALİZM**
Qlobal siyasətin xərçəngi .................................. 37

**FEMİNİZM**
Qadını istismar etmək üçün tələ ......................... 51

**KAPİTALİZM**
Kölgəsini sata bilmədiyi ağacı kəsən sistem.......... 65

**MİNİMALİZM**
Azacıq aşım, ağrımaz başım............................... 79

**NARSİZM**
Məndən gözəli varmı bu dünyada?...................... 93

**ORİYENTALİZM**
İstismarçılığın kəşf qolu................................... 109

**ROMANTİZM**

Hiss var, amma əsil deyil ................................ 125

**SEKULYARİZM**

İnsanın müqəddəsdən qopması ........................ 141

**SİONİZM**

Dünyanın timsahı .......................................... 155

**ŞOVİNİZM**

Gəl hansımızın üstün olduğunu heç
müzakirə etməyək.......................................... 169